# İbtidai məktəb və məktəbəqədər tərbiyə

1970-ci ildən ildən çıxır.

2003, № 3 (164)
iyul-sentyabr

# JURNAL

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

2003

3

# Bu nömrədə


**Kərimov Y.** Məktəbəqədər tərbiyə qayğı tələb edir.......3

***Fənlərin tədrisi və qabaqcıl təcrübə***

**Əhmədov İ., Vəliyeva S.** Adlı ədədlər üzərində əməllərin tə'liminə dair.......5
**Əliyev A.** İnformatika elementləri və məntiqi təfəkkürün inkişafı.......8
**Rüstəmov Ə.** Şagirdlərin vətənpərvərlik tərbiyəsində «Kitabi - Dədə Qorqud» dastanından istifadə.......9
**Həsənova N.** Fakultativ, fərdi və qrup məşğələləri.......13

***Tərbiyə məsələləri***

**Bəhmənova C.** Uşaq hüquqları üzrə işin aparılması.......14
**Qarayeva R.** Şəxsiyyətin formalaşmasında müəllim - şagird münasibətlərinin rolu.......15
**Əmircanova X.** Uşaq hüquqları haqqında ilkin təsəvvürlərin aşılanması şəxsiyyətin formalaşmasının mühüm amillərindən biri kimi.......17

***Psixologiya və defektologiya***

**Aslanova Z., İbrahimov C.** Tə'lim fəaliyyətində müqayisə priyomundan istifadənin bə'zi məsələləri.......20
**Kərimova E.** Psixi inkişafın ləngiməsinə dair.......21
**Şahsuvarova O.** Lal-kar uşaqlar və onlarla ünsiyyət vasitəsi.......23

***Gigiyena***

**İsmayılova Z., N.Novruzova N.** Günəş şüalarının uşaq orqanizminə tə'siri.......25

***Məktəbəqədər tərbiyə***

**Dadaşova M.** Didaktik oynlar.......29
**Baxışova Ş.** Uşaqlara islam dəyərlərinin aşılanmasının pedaqoji-psixoloji əsasları.
**Abdullayeva S.** Müasir tə'lim metodlarının tətbiqinin tə'limin keyfiyyətinə tə'siri.......32
**Əliyeva S.** Məktəbəqədər tərbiyə müəssisələrində diyarşünaslıq materiallarından istifadə.......34
Beşyaşıların məktəbə hazırlanmasına dair.......36

***Program materiallarının planlaşdırılması***

**I sinif** (ilin II yarısı üçün) Ana dili.......40
Musiqi.......42
Təsviri sənət.......43
Fiziki mədəniyyət.......43
Əmək tə'limi.......44
**II sinif** (ilin II yarısı üçün) Oxu.......46
Azərbaycan dili.......48
Musiqi.......51
Təsviri sənət.......51
Fiziki mədəniyyət.......52
Əmək tə'limi.......53
**III sinif** (ilin I yarısı üçün) Oxu.......55
Azərbaycan dili.......57
Təbiətşünaslıq.......59
Musiqi.......59
Təsviri sənət.......60
Fiziki mədəniyyət.......60
Əmək tə'limi.......61
**IV sinif** (ilin I yarısı üçün) Oxu.......62
Azərbaycan dili.......63
Təbiətşünaslıq.......65
Musiqi.......66
Təsviri sənət.......67
Fiziki mədəniyyət.......67
Əmək tə'limi.......68

**Bizim iş yoldaşlarımız**

**S.Abbasova.** Gənclik həvəsi ilə.......69
**V.Xəlilov.** Tərbiyəçilərin yaxın dostu, məsləhətdaşı.......70


---


Baş redaktor: **Y.Ş.Kərimov**
Redaksiya hey'əti: A.Muradov, M.Musayev, N.Əliyeva, A.Həsənov, V.Xəlilov, N.Alnağıyeva, S.Həmidov, Ə.Hüseynov, L.Məmmədova, R.Süleymanova.
Yığılmağa verilmiş: 05.07.2003. Çapa imzalanmış: 25.07.2003.
Kağız formatı 70x1081/6. Şərti çap vərəqi 6.5. Uçot nəşr vərəqi 6.
Sifariş № 59. Tirajı 1000. Qiyməti 8000 manat.
Redaksiyanın ünvanı: 370010, Bakı, Azərbaycan prospekti, 40. Telefon: 93-84-41.
"Nasir" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Ünvan: Bakı, Tağızadə küçəsi 17. Tel: 31-11-00.

# MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ QAYĞI TƏLƏB EDİR

Y.Ş.Kərimov,
professor

Milli varlığımız, gələcəyimiz, yüksəlişimiz məktəbəqədər yaşlı uşaqların tərbiyəsi ilə necə məşğul olmağımızdan asılıdır. Yetişməkdə olan gənc nəsil əməllərimizin aynasıdır. Biz elə etməliyik ki, bu aynada hər şey doğru və düzgün, təmiz, saf, ədalət və məhəbbətə bələnmiş şəkildə görünsün. Bunun üçün isə çox çalışmaq, körpə balalarımıza böyük qayğı ilə yanaşmaq lazımdır.

Deyirlər, azərbaycanlılar uşaqcanlı olurlar. Bu, doğrudur, lakin uşaqcanlı olmaq heç də uşağı düzgün tərbiyə etmək demək deyil. Uşağı çox istəmək, körpəlikdən onu öpüb qucaqlamaq, atıb-tutmaq, ona oyuncaq, paltar almaq, onunla əylənmək, onu yaxşı yedizdirmək, hətta sağlamlığının qayğısına qalmaq, hər bir xahişini yerinə yetirmək, çaldığı hava ilə oynamaq azdır. Həyatın ilk aylarından uşağa ədəb-ərkan, yaşıdları və yaşlılarla düzgün ünsiyyət saxlamağı, öyrənməyə can atmağı öyrətmək, onu müşahidəçiliyə alışdırmaq, ilkin əmək vərdişlərinə yiyələndirmək və s. kimi keyfiyyətlərlə onun şəxsiyyətinə tə'sir göstərmək lazımdır.

Müasir dövrdə təhsil sistemində məktəbəqədər tərbiyə müəssisələrinin yeri daha böyük mə'na kəsb edir. Mövcud təhsil qanununda məktəbəqədər tərbiyə müəssisələri təhsil sitseminin ilkin pilləsini təşkil edir. Bu pillədə yalnız uşaqların tərbiyəsi ilə deyil, həm də təhsili ilə məşğul olunur. Təsadüfi deyildir ki, həmin mərhələnin proqramı «Məktəbəqədər tərbiyə və tə'lim proqramı» adlanır. Bu, uşaqlara erkən tə'lim elementlərinin verilməsi ilə bağlıdır. Proqram həcmində tə'lim bacarıqları və vərdişlərinə yiyələnmiş uşaqlar məktəbdə müvəffəqiyyətlə təhsil alırlar. Deməli, məktəbəqədər tərbiyə müəssisələri uşaqların fiziki cəhətdən sağlam, gümrah, çevik, işgüzar, intellektual cəhətdən hazırlıqlı olmalarını tə'min edir, onları öyrənməyə can atan, hərtərəfli inkişaf etmiş şəxslər kimi yetişdirir.

Bu gün respublikamızın müxtəlif bölgələrində, həm iri şəhərlərdə, həm də rayon mərkəzlərində onlarla məktəbəqədər tərbiyə müəssisələrində iş yüksək səviyyədə qurulmuşdur. Bir çox körpələr evi-uşaq bağçalarının mə'zunları I sinifdə yaxşı oxuyur, çətinlik çəkmədən proqram materiallarını mənimsəyirlər.

Bununla belə, məktəbəqədər tərbiyənin təşkili sahəsində görülməli işlər çoxdur. Hər şeydən əvvəl, uşaqların məktəbəqədər tərbiyə müəssisələrinə cəlbi məsələsi qənaətbəxş deyil. Statistikaya görə, respublikamızda 111352 uşağı əhatə edən 1794 məktəbəqədər müəssisə fəaliyyət göstərir. Onlardan 104916 uşağı əhatə edən 1722 məktəbəqədər uşaq müəssisəsi Təhsil Nazirliyinin sistemindədir. Respublikamızda həmçinin sağlamlıq imkanı məhdud olan uşaqlar üçün 5 xüsusi tə'yinatlı məktəbəqədər müəssisə və 9 müəssisədə belə uşaqlar üçün 18 xüsusi qrup fəaliyyət göstərir. Bu müəssisələrdə 1500-dən çox uşaq tərbiyə olunur. Beləliklə, respublikamızda məktəbəqədər yaşlı uşaqların 16,8 faizi ictimai tərbiyəyə cəlb edilmişdir. Onların davamiyyəti isə 7 faizi keçmir. Ən yaxşı halda altıyaşlıların 83,2 faizi (əslində 93 faizi) məktəbə ictimai tərbiyə görmədən birbaşa ailədən gəlir. Bu isə məktəb tə'liminə müvəffəqiyyətlə başlamağımız üçün təhlükə törədir.

Uşaqların məktəbəqədər müəssisələrə cəlb olunmamalarının başlıca səbəbi anaların əksəriyyətinin işləməmələri və ailələrin maddi durumunun aşağı səviyyədə olması ilə izah edilməlidir. Məktəbəqədər müəssisələrdə şəraitin olmaması: ərzaqla təchizatın aşağı olması, qış mövsümündə istilik sisteminin işləməməsi üzündən uşaqların xəstələnmələri anaları bağçadan uzaqlaşdırır. Analar haqlı olaraq övladlarının

intellektual inkişafını onların sağlamlığına qurban verirlər.

İndiki şəraitdə inkişaf etmiş ölkələrdə olduğu kimi məktəqədər yaşlı uşaqların hamısının, heç olmasa, əksəriyyətinin körpələr evi-uşaq bağçalarına cəlb olunması ümumdövlət qayğısı tələb edir.

Bütün uşaqların ictimai tərbiyəsi təşkil olunmadan, hər bir uşaq məktəbəqədər tərbiyə müəssisəsindən keçmədən təhsil sistemində tam müvəffəqiyyətin əldə edilə biləcəyinə ümid bəsləmək olmaz.

Hazırkı dövrdə, heç olmasa, mövcud məktəbəqədər tərbiyə müəssisələrinin əsaslı tə'miri, ərzaqla təchiz olunması, onlara lazımi avadanlığın verilməsi qayğısına qalınmalıdır.

Bu gün qaçqınlara qayğı və hörmətlə yanaşmaq, onlara mə'nəvi və maddi kömək göstərmək hər birimizin borcudur. Bununla belə bə'zi uşaq bağçalarında qaçqınların yerləşdirilməsi uşaqların tərbiyəsi ilə normal məşğul olmağa imkan vermir. Bağçada sanitar-gigiyena tələbləri gözlənmir. Uşaqların yataq otaqları ilə qarşı-qarşıya otaqda paltarın yuyulması, yataq otağının içindən qaçqınların yol salmaları, oyun meydanı və əyləncə köşklərinin ətrafında ev quşları və heyvanlarının gəzməsi, həyətdə yük maşınlarının tə'mir edilməsi və yuyulması, xalçanın, paltarın yuyulması hallarına rast gəlmək mümkündür. Yaxın bağçalardan birinin binasını bütövlükdə qaçqınlara verərək bağçaları birləşdirmək bu işi qismən qaydaya salmağa imkan verərdi.

İri şəhərlərdə, xüsusilə Bakıda və onun ətrafında sür'ətlə çoxmərtəbəli binalar tikilir, yeni yaşayış massivləri salınır, lakin nə məktəbəqədər tərbiyə müəssisəsi, nə də məktəb binası tikilir. Bir neçə ildən sonra həmin yerlərdə uşaqların bağçaya və məktəbə cəlbi ciddi problemə çevriləcəkdir.

Son illərdə məktəbəqədər tərbiyə ocaqlarında uşaqların, xüsusilə məktəbə hazırlıq qrupu uşaqlarının yay istirahətləri unudulub.

Orta ümumtəhsil məktəblərinin I sin-
[illegible] göstərir ki, uşaqların böyük əksəriyyəti məktəb tə'liminə hazır olmur. Bunun nəticəsidir ki, onlar I sinifdə müvəffəqiyyətlə oxuya bilmirlər. Təəccüblü olsa da, hazırlıqsız uşaqların bir qismi körpələr evi-uşaq bağçalarının mə'zunlarıdır. Deməli, uşaq bağçalarının və ya oradakı tərbiyəçilərin bir qismi uşaqları proqramın tələbləri səviyyəsində məktəbə hazırlaya bilmir.

Ona görə də qarşıdakı dərs ilindən beşyaşlıların bağçaya cəlb edilməsi üzrə planlı iş getməlidir. İmkan olan yerlərdə məktəbin yaxınlığındakı ərazidə yaşayan və qonşuluqdakı məktəbə qəbul olunacaq bütün beşyaşlılar uşaq bağçasına cəlb edilməli, onlarla birillik hazırlıq kursu təşkil olunmalıdır.

Beşyaşlıların kütləvi şəkildə məktəb tə'liminə hazırlanması mümkün olmayan yerlərdə (bağçanın olmadığı kəndlərdə, məktəbəqədər müəssisənin az olduğu rayon mərkəzləri və şəhərlərdə) onları məktəbdəki hazırlıq siniflərinə cəlb etmək mümkündür. Belə bir tədbir məktəbin daxili maliyyə imkanları hesabına, yaxud ictimai əsaslar üzrə həyata keçirilə bilər.

Bu il IV sinifi təhvil vermiş müəllimi fədakarlıq edərək gələn dərs ilində I sinifdə dərs deyəcəyi uşaqları məktəbə hazırlaya bilər. Bu cür şəraitdə hazırlığın başqa yolu, heç olmasa, avqust ayında 10 günlük hazırlıq kursu keçməkdir.

Bir sözlə, yerlərdə beşyaşlıların məktəbə hazırlanması üzrə sistemli iş aparılmalıdır. Bu, I sinifdə müəllimin işini xeyli asanlaşdırar, tə'limin normal təşkilinə imkan verər.

Hələlik beşyaşlıların məktəbəqədər müəssisələrdə məktəb tə'liminə hazırlanmaları daha realdır. Bu işin elmi əsaslar üzrə mükəmməl təşkili isə yeni yanaşma tələb edir. Hazırda bu istiqamətdə mühüm işlər görülür.

Məktəbəqədər tərbiyə müəssisələrinin konsepsiyası hazırlanır, proqram təkmilləşdirilir, sağlamlıq imkanları məhdud olan uşaqların tərbiyə aldıqları müəssisələr üçün proqramlar tərbiyənin müxtəlif sahələri üzrə metodik işləmələr hazırlanır.

Qarşıdakı dərs ilinin əvvəllərində tərbiyəçilər bunları əldə edə biləcəklər

# ADLI ƏDƏDLƏR ÜZƏRİNDƏ ƏMƏLLƏRİN TƏ'LİMİNƏ DAİR

**İsmayıl Əhmədov,**
Gəncə Dövlət Universitetinin dosenti,
**Sona Vəliyeva,**
Gəncə Dövlət Universitetinin müəllimi

I sinifdən başlayaraq məsələ və misalların həllində adlı ədədlərlə rastlaşırıq. Mücərrəd ədədlərdən fərqli olaraq adlı ədədlərin yazılmasına və onlar üzərində əməllərə xüsusi diqqətin verilməsi tələb olunur. Bu məqsədlə ibtidai siniflər üçün vahid tələblərin qoyulması və bu tələblərə riayət olunması faydalıdır. Adlı ədədlərin yazılışında qısaldılmış formadan istifadə edilir. Müəllimlər mətnli məsələ həll edərkən manat, metr kimi vahidlərdən istifadə etməli olur və bu zaman «m» yazmaqla məsələ həll edilir. Bu isə dolaşıqlığa səbəb olur.

Adlı ədədlərin qısaldılması formasının aşağıdakı kimi qəbul edildiyini müəllim uşaqlara çatdırmalıdır:

| | |
|---|---|
| manat | - «man.» (yanında nöqtə) |
| qəpik | - «qəp.» (yanında nöqtə) |
| metr | - «m» (nöqtəsiz, baş hərf) |
| santimetr | - «sm» (nöqtəsiz, baş hərfləri) |
| litr | - «l» (nöqtəsiz, baş hərf) |
| sentner | - «s» (nöqtəsiz, baş hərf) |
| ton | - «t» (nöqtəsiz, baş hərf) |
| kiloqramm | - «kq» (nöqtəsiz, baş hərflər) |
| qram | - «q» (nöqtəsiz, baş hərf) |

Bu işarələrdən istifadə ilə bağlı bir məsələyə baxaq.

**Məsələ:** Səbətdə 5 kq alma vardı.
Oradan 2 kq alma götürdülər. Səbətdə neçə kq alma qaldı?

**Şərti:** Vardı - 5 kq
Götürdülər - ***2 kq***
Qaldı - ?
**Həlli:** 5 - 2 = 3 (kq)
**Cavab:** 3 kq

Şagirdlər məsələnin sualını yazarkən «Səbətdə neçə kq alma qaldı?» kimi yazırlar. Əlbəttə, bunu vaxtında şagirdə başa salmaq vacibdir ki, «kiloqram» sözü yalnız ədədlərin yanında «kq» kimi yazılmalıdır.

I sinifdən başlayaraq *kq, q, sm, m, s, t* və s. kimi işarələrin yanında nöqtə qoyulmasına yol verilməməlidir.

İbtidai siniflərin riyaziyyat proqramında bir sıra terminlərin öyrədilməsinə ciddi üstünlük verilir. Həmin terminləri eşidən şagird mətnli məsələdə hansı əməli seçməyi müəyyən edə bilir. Həmin terminlərə «oldu», «qaldı», «azdır», «çoxdur», «qısadır», «uzundur», «artıqdır», «o qədərdir», «dəfə çox», «dəfə az» və s. misal göstərilə bilər. Bunları yaxşı başa düşən şagird mətnli məsələdə əməl seçməkdə çətinlik çəkmir.

Bə'zən məsələ həllində şagirdlər «qaldı» və «oldu» terminlərindən düzgün istifadə etmirlər. Müəllim soruşur:

- 5 ilə 4-ün cəmi neçəyə bərabərdir?

Şagird cavab verir:

- 5 ilə 4-ü toplayanda 9 «qalar».

Belə cavabları diqqətlə izləyib, düzəliş vermək lazımdır.

Başqa bir məsələyə baxaq.

**Məsələ 1.** Pəncərədə 5 dibçək vardı. 2 dibçək də gətirib qoydular. Neçə dilçək oldu?

Şərtin qısa yazılışı:
Vardı - 5 dibçək
Qoydular - 2 dibçək
Oldu -?
**Həlli:** 5 + 2 =7 (dibçək)
**Cavab:** 7 dibçək

**Məsələ 2.** Pəncərədə 7 dibçək vardı. 2 dibçəyi götürdülər. Neçə dibçək qaldı?

Şərtin qısa yazılışı:
Vardı - 7 dibçək
Götürdülər - 2 dibçək
Qaldı - ?
**Həlli:** 7 - 2 = 5 (dibçək)
**Cavab:** 5 dibçək.

Bu məsələlərdən göründüyü kimi «oldu» və «qaldı» şərtlərinə uyğun olaraq müvafiq əməl müəyyən edilir. Şagirdlərin bu terminləri yaxşı başa düşmələri adlı ədədlər üzərində əməllərdə səhvin qarşısını almağa kömək edir.

Məhz bu baxımdan ibtidai sinif riyaziyyat dərsliyindəki adlı ədədlərin adlı ədədlərə bölünməsinə aid bir misalın həlli ilə bağlı fikrimizi izah edək. Əvvələ, mövcud dərsliklərdə adlı ədədlərin adlı ədədlərə bölünməsinə aid misallar kifayət qədər deyildir: olan misalların həllində də bə'zi diqqətsizliklərin şahidi oluruq.

Riyaziyyatdan bizə belə qaydalar mə'lumdur:

a) Adlı ədədi adlı ədədə böldükdə adsız ədəd alınır.

b) Adlı ədədi adsız ədədə böldükdə adlı ədəd alınır.

Bu qaydalar ibtidai sinif şagirdlərinə konkret misallar nümunəsində aşılanmalıdır. Bu məqsədlə bir neçə misalın həlli nəzərdən keçirilir, sonra bu cəhətə diqqət verilir və yekunda müəllimin rəhbərliyi ilə qayda söylənilir. Misalların hər birində ciddi təhlil aparmadan bu nəticəni e'lan etmək yolverilməzdir.

Əməlləri yerinə yetirin:
36 man. : 15 qəp.
26 man. 24 qəp. : 32 qəp.
72 m : 96 sm
48 m 24 sm : 36 sm
18 kq : 400 q
7 s 68 kq : 48 kq

Misalların birincisinin həllini izah edək:

36 manatı 15 qəpiyə bölmək üçün 36 manatı qəpiyə çevirmək lazımdır:

36 man. = 3600 qəp.;

3600 qəp. : 15 qəp.

Bu yazılış o deməkdir ki, 3600 qəpiyin içərisində 15 qəpiklik neçə dəfə yerləşir (240 dəfə yerləşir). Burada 240-ın bə'zən manat, bə'zən qəpik kimi götürülməsi müşahidə olunur. Şagirdlərə başa salmaq lazımdır ki, bölünən və bölən qəpik olduğu üçün 3600 qəpiyi 15 qəpiyə böləndə bu iki adlı ədədi bir-birilə müqayisə etməli oluruq. Yə'ni bunların biri digərindən neçə dəfə çox və ya azdır.

Anlaşılmazlığı aradan qaldırmağın ən optimal yolu bu məqamda mətnli məsələlərə baxılmasıdır. İki mətnli məsələyə baxaq:

**Məsələ 1.** 4 m parça aldılar və eyni ölçüdə iki don tikdilər.

Hər bir dona neçə metr parça işləndi?

**Şərti:** Cəmi parça -4
Donlar -2
Bir dona -?

**Həlli:** 4 m : 2 = 2 m

**Cavab:** 2 m

**Məsələ 2.** Lalə 6 m, Nərgiz isə 3 m parça aldı.

Lalənin parçası Nərgizinkindən neçə dəfə çoxdur?

**Şərti:** Lalə -6 m } çoxdur ?
Nərgiz -3 m

**Həlli:** 6 m : 3 m = 2

**Cavab:** 2 dəfə.

Bu məsələlər tipində bir neçə məsələ həlli yuxarıda söylədiyimiz çatışmazlığı tamamilə aradan qaldıra bilər.

İbtidai sinifdə vurma əməli öyrədilərkən qeyd edilir ki, 5 · 3 ilə 3 · 5 mahiyyətçə müxtəlif mə'na kəsb edir. Belə ki, 5 · 3 dedikdə 3 dənə 5-in toplanması, 3 · 5 dedikdə isə 5 dənə 3-ü toplanması başa düşülür. Sonradan bunların bir-birinə bərabər olması yerdəyişmə qanunu əsasında izah edilir.

Ancaq adlı ədədlərlə bağlı məsələlərin həllində məhz müxtəlif mə'na kəsb etmək cəhətini yadda saxlamaq faydalıdır.

Əli biri 600 manatdan 3 marka aldı.

Əli markalara nə qədər pul verdi?

**Şərti:** Bir marka 600 man.
Aldı – 3 marka
Verdi - ?

**Həlli:** 600 · 3 = 1800 man.

**Cavab:** 1800 man.

Bu məsələdə 600 · 3 əvəzinə 3 · 600 yazmaq düzgün olmaz. 3 · 600 kimi yazsaydıq, 3 manatlıq 600 marka almış olardıq. Bu isə məsələnin şərti ilə uyğun deyil.

Bu incəlikləri başa salmaq üçün məsələnin əyani şərtinə baxmaq vacibdir.

Deyilənləri ümumiləşdirilib, belə nəticəyə gəlmək olar ki, ibtidai siniflərin riyaziyyat dərslərində hər bir anı nəzərə almaq, hər bir sözün yerini və mə'nasını dəqiq izah etmək, adlı ədədlərlə bağlı tapşırıqları mücərrəd ədədlər üçün olanlardan fərqləndirmək lazımdır.

Metrik ölçü sistemi yaranandan sonra adlı ədəd anlayışı və bunun ümumtəhsil məktəblərində tədrisi aktual məsələ kimi qarşıya çıxdı. İbtidai siniflərdə adlı ədədlər və bunlar üzərində əməllər mövcud proqramın tələbləri baxımından daha da aktualdır.

Bu anlayışla tanışlıq hələ bağça yaşlarından başlanır, ibtidai siniflərdə hər bir dairədə hesab əməllərini öyrənərkən bunlarla əlaqəli tə'lim olunur.

Ölçü və adlı ədədlərlə tanışlıq aşağıdakı plan üzrə həyata keçirilir:

1) müəllimin söhbəti və öyrənilən ölçülərin göstərilməsi;

2) öyrənilmiş ölçülərin praktik tətbiqi;

3) vəsaitlər hazırlamaqla bağlı şagirdlərin işləri;

4) çalışmaların həlli.

Bu plana uyğun olaraq metrik ölçü sisteminin əsas vahidləri haqqında anlayışların verilməsi metodikası mövcud ədəbiyyatda ətraflı şərh edilmişdir.

Uzunluğun əsas vahidi metr, kütlənin əsas vahidi qram, zamanın əsas vahidi sutka və il qəbul ediləndən sonra törəmə vahidlər haqqında mə'lumatlar verilir. Qarışıq ölçü vahidləri ilə bağlı son mərhələdə sadə və mürəkkəb adlı ədədlərlə rastlaşırıq ki, bunların da tədrisində bə'zi çətinliklər müşahidə edilməkdədir. Bu çətinliyi aradan qaldırmaq üçün sadə və mürəkkəb adlı ədədləri çoxrəqəmli ədədlər dairəsində əməllərlə bağlamaq və paralel tə'lim etmək özünü doğruldur. Uzunluğun destimetr, millimetr, kilometr, metr, santimetr kimi vahidlərini ölçməkdən, müxtəlif tapşırıqları icra etməkdən alınmasını şərh etdikdən sonra metrlə santimetr arasındakı əlaqəni əyani şərh etmək lazım gəlir. 1 metrin 100 sm olmasında 1 sm-in metrin yüzdə biri olması nəticəsinə gəlinir. Sonra 1 metrlik lent götürüb onun üzərində 10 sm-lik bölgülər ayırmağı və 1 dm-lik parça çəkərək bunlar arasında müqayisə aparmağı tələb etmək olar. Sinif otağının uzunluq və enini, stolun, jurnalın və s. ölçülərini həmin destimetrlərin parça ilə müqayisə əsasında 3 dm, 5 dm, 1 dm kimi yazılışlarını alırıq.

Həmin qayda ilə 1 sm-i 10 hissəyə bölməklə millimetrin alınması və bununla ölçmə işləri həyata keçirilərkən 15 mm, 30 mm, 45 mm və s. kimi yazılışlarını alırıq. Bütün bu işlərdən sonra 1 km = 100 m, 1 m = 10 dm = 100 sm, 1 dm = 10 sm, 1sm=10mm cədvəlini öyrətmək lazımdır.

Yuxarıdakı ölçmə işlərini həyata keçirərkən 5 m 4 dm, 10 m 5 sm, 3 dm 5 mm şəklində ölçmə nəticələrinə diqqət yönəldilərək bunların mürəkkəb adlı ədədlər olması qeyd edilir. Bunlar üzərində hesab əməllərinin icra edilməsində müxtəlif yanaşmalar olduğuna və onların hansının səmərəliliyinə diqqət verilir.

5 m 7 dm + 3 m 5 dm = 8m 12 dm = 9 m 2 dm

1 m 2 dm · 6 = 6 m 12 dm = 7 m 2 dm

8 m 5 dm – 4 m 6 dm = 7 m 15 dm – 4 m 6 dm = 3 m 9 dm kimi həlli

Ancaq adlı ədədlər üzərində əməllərə əlavə tə'lim vaxtı sərf etmədən onların xırdalanması qaydasını öyrətmək kifayət edir.

5 m 7 dm + 3 m 5 dm cəmini tapmaq üçün

5 m 7 dm = 57 dm, 3 m 5 dm = 35 dm kimi göstərmək və 57 + 35 cəmini tapmaq qaydası şagirdlərə mə'lumdur.

Deməli, mürəkkəb adlı ədədlər üzərində əməlləri icra edərkən onu xırdalamaq, yə'ni orada olan ən kiçik vahidə gətirmək və bundan sonra çoxrəqəmli ədədlər üzərində əməllər kimi icra etmək lazımdır. Belə olan halda yuxarıdakı misallar:

12 · 6 = 72;    85 – 39 = 46;    56 : 4 = 14

kimi həll olunur.

Bunları tətbiq etməklə sadə və mürəkkəb adlı ədədlər üzərində vurma və bölməyə aid bə'zi nümunələri nəzərdən keçirək:

a) Sadə adlı ədədlərin birrəqəmli ədədə vurulma və bölünməsi:

107 t · 8 = 856 t    200saat· 4 = 800 saat
600 t : 3 = 200 t    560man.:8 man.= 70
40 dm · 7 = 280 dm = 28 m
38 qəp. · 9 = 342 qəp. = 3 man. 42 qəp.
2 m : 5 sm = 40 sm : 5 sm = 8

b) Sadə adlı ədədlərin yuvarlaq və yüzlüyə vurulması və bölünməsi (şifahi):

2 kq · 400 = 800 kq = 8 s
150 kq : 30 kq = 5
300 m : 100 = 3 m
720 s : 120 s = 6
6 man. : 50 qəp. = 600 qəp. : 50 qəp. = 12
1 t : 200 kq = 1000 kq : 200 kq = 5

c) Sadə adlı ədədlərin ikirəqəmli və üçrəqəmli ədədlərə vurulma və bölünməsi:

9 t · 81 = 729 t
36 man. · 15 = 540 man.
8 q · 125 = 1000 q = 1 kq
625 t : 125 t = 5
600 m : 15 = 40 m
432 kq : 18 = 24 kq
30 dm : 25 sm = 12
8 man. : 16 qəp. = 50

ç) Mürəkkəb adlı ədədlərin birrəqəmli və yuvarlaq onluqlara vurulma və bölünməsi

1) 13 t 8 s·5 = 690 s = 69 t    1) 138·5= 690
2) 3 t 5 s · 20 = 700 s = 70 t    2) 35·20= 700
3) 5 m 40 sm : 9 = 60 sm    3) 540 : 9= 60
4) 9 man. 6 qəp : 6 qəp. = 151    4)906 : 6 =151
5) 7 man. 58 qəp.: 6 =
=1 man. 26 qəp.    5)756 : 6 =126
6) 6 m 40 sm : 40 sm = 16    6) 640: 40 =16

d) mürəkkəb adlı ədədlərin ikirəqəmli və üçrəqəmli ədədə vurulma və bölməsi

1) 5 l 4 l·13 = 702 l = 70 l 2 l
2) 3 man. 24 qəp.: 36 = 9 qəp.
3) 6 dm 48 mm: 18 mm = 36
4) 9 m: 1 m 80 sm = 5

```
 54        2) 324 | 36        3) 648 | 18
x            -    |----           -  |----
 13               |  9               |  36
----          324                54
162          ----               ----
 54            0               -108
----                             108
702                             ----
                                   0
```

```
4) 900 | 180
   -   |----
   900 |  5
   ---
     0
```

Nəhayət, mürəkkəb adlı ədədlə mürəkkəb adlı ədədin toplanma və çıxılmasına aid nümunələrə baxaq:

1) 2 km 420 m + 5 km 580 m = 8 km;

```
  2420
+
  5580
  ----
  8000
```

2) 8 km 15 m – 4 km 327 m = 3 km 688 m

```
  8015
-
  4327
  ----
  3688
```

Mürəkkəb adlı ədədlərə sadə adlı ədədlərin qarışığı olan çalışmalarda müxtəlif variantlara baxıla bilər. Ancaq burada əlverişli yol komponentlərdə iştirak edən ən kiçik vahidə xırdalamaqla əməlin yerinə yetirilməsidir.

Burada xarakterik çalışmalar zamanla bağlı olanlardır. Xırdalama onluq say sistemində getmədiyindən bu müəllimdən çox diqqətli olmağı, əsasən, adları yazmaqla əməllərin icra edilməsinə üstünlük verməyi tələb edir.

```
  4 sutka 12 saat
+
  6 sutka 17 saat
  ---------------
  10 sutka 29 saat =11 sutka 5 saat

  11 sutka 8 saat
-
  8 sutka 5 saat
  ---------------
  3 sutka 3 saat
```

7 dəq. 12san.–4dəq. 25 san.= 2 dəq. 47 san.

Vurma və bölmə əməllərinin icrası xüsusi diqqət tələb edir.

12saat 39dəq. · 34 =17sut.22 saat 6 dəq.

```
1) 39 dəq          2) 1326 | 60
 x                         |----
  34                   126 | 22 saat
 ----                 ----
 1326                 6 dəq.

3) 34          4) 408 saat      5) 430 | 24
 x              +                      |----
  12              22 saat              | 17 sut.
 --------        --------         ------
 408 saat        430 saat         22 saat
```

Adlı ədədlər üzərində əməllərin səmərəli tə'limi yuxarı siniflərdə bir sıra fənlərin tədrisi üçün baza olmaqla yanaşı, həm də şagirdlərin hərtərəfli inkişafına kömək edir.

# İNFORMATİKA ELEMENTLƏRİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI

**Akif Əliyev,**
ARTPİ-nin dissertantı

Azərbaycan Respublkiası Təhsil Problemləri İnstitutu Elmi şurasının qərarı ilə 2001-2002-ci tədris ilindən başlayaraq müasir tipli kompüterlərlə tə'min olunmuş ümumtəhsil məktəblərinin I siniflərində «İnformatika» (məsələ və oyunlarda) kursunun eksperimental qaydada tədrisnin təşkili məqsədəmüvafiq hesab edilmişdir. Hazırda bir sıra məktəblərdə Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş proqram (Proqram məqalə müəllifinin də daxil olduğu işçi qrup tərəfindən hazırlanmışdır.) və ona dair bə'zi məsələlər jurnalın 2002-ci il 1-ci nömrəsindəki məqalədə işıqlandırılmışdır. Bu məqalədə əsas məqsədimiz proqramın bölmələrinə dair məsələlərə aydınlıq gətirmək və bu sahədə ibtidai sinif müəllimlərinin qarşılaşdıqları bə'zi çətinliklərin aradan qaldırılmasına kömək göstərməkdir.

Eksperimentin ilkin nəticələri göstərir ki, hər bir məktəbdə hər sinif-qrupa uyğun proqram materialı və metodika verilməlidir, lakin hamı üçün ümumi olan bə'zi, zəruri məsələləri qeyd etmək məqsədəuyğundur.

Verilən tapşırıqlar sistemi aşağıdakı məqsədlərə xidmət edən qruplara ayrılmalıdır:

1. İnformatikanın ilkin anlayışlarının xarakterik xassələrini tanımağa imkan verən tapşırıqlar.

2. Uşaqların məntiqi təfəkkürünün inkişafına kömək edən tapşırıqlar.

Bu məqsədlə I sinifdə proqram materialının 2-ci bölməsi (obyektin özünü aparma mənzərəsi, proseslər və alqoritmlər) daha maraqlıdır. Aydındır ki, buradakı mövzuların hər birinə uyğun tapşırıqlar sistemi vermək olar. Biz yalnız alqoritmə aid bir neçə tapşırıqla kifayətlənəcəyik.

Uşaqlar bu bölmə üzrə:

- verilmiş məsələ üzrə alqoritmi icra edib (ardıcıl addımları təsvir etməklə) konkret nəticə almağı;
- yeni tip məsələlərin həlli üçün alqoritmdə dəyişikliklər etməyi;
- yoxlama nəticəsində alqoritmdəki səhvləri tapıb düzəliş aparmağı;
- eyni nəticə ilə başa çatan müxtəlif alqoritmləri fərqləndirməyi;
- alqoritmə tapşırığın məqsədinə uyğun ad verməyi;
- rasional alqoritmi seçib ayırmağı bacarmalıdırlar.

Burada (bir dərsdə) əsas məqsəd:

- «alqoritm» anlayışının daxil edilməsinə hazırlıq işi aparmaq;
- hadisələr (hərəkətlər) ardıcıllığını müəyyən etməyi öyrətməkdir.

Şagirdlərə oyun formasında aşağıdakı tapşırığı vermək olar:

**Tapşırıq oyun.** Müəllim 6 nəfər şagirdi çağırır. Hər bir şagird onun təsvir etdiyi hadisəni hərəkəti ilə göstərir və cümlə ilə ifadə edir. Oğlan yuxudan durur.

Şagirdlər deyirlər:

- gimnastika edir;
- yuyunur;
- geyinir;
- səhər yeməyini yeyir;
- məktəbə gedir.

Bütün proses şən və yumorla aparılır; məsələn, 1-ci şagird deyir:

Uşaq yataqdan qalxır.

Müəllim:

-Bundan əvvəl yuxudan oyanmaq lazım deyil? Deməli, əvvəl yuxudan oyanıb, sonra yataqdan qalxmaq olar. Sonra, gimnastika. Yaxşı olar ki, sonra yuyunasınız və s.

Beləliklə, uşaqlarda alqoritm-hərəkətlər ardıcıllığının ilk xassələri haqqında təsəvvürlər formalaşır:

**Oyun 1.** «Ardını fikirləşib tap» oyunu.

Müəllim hər hansı hadisəni təsvir edən bir cümlə deyir, uşaqlar isə fikirləşib həmin hadisədən sonra gələn hadisəni təsvir edən cümləni tapırlar.

Burada yaxşı olardı ki, hərəkətlər ardıcıl, bir-birindən sonra alınsın: məsələn, «Siçan qaçdı», «Pişik siçanı qovdu». «Pişik siçanı tutdu».

Hadisələrin əks gedişi ola bilməz. Ona görə də «Mən kəpənəyi gördüm»,«Kəpənək rəngbərəngdir» kimi bir-birindən sonra baş verməyən hadisələri təsvir edən cümlələri təklif etmək tövsiyə edilmir.

Digər nümunələri veririk:

-Ağacda alma yetişmişdi (Kən'an onu dərib yedi);

-Gülşən məsələni hamıdan tez həll etdi (Müəllim onu tə'riflədi və ya müəllim ona ə'la qiymət yazdı).

-Adil xəstələndi. (Anası həkim çağırdı).

Yaxşı olardı ki, müəllim verilmiş tapşırığa arzu edən şagirdlərin cavab vermələrinə imkan versin. Bundan sonra düzgün cavabı seçmək olar.

**Oyun 2.** «Qonaq getmək».

Əvvəlcə müəllim uşaqlara qonaq gedərkən hansı hərəkətlər ardıcıllığının icra edildiyini göstərmək üçün sinfi qızlar və oğlanlar qrupuna ayıra bilər.

-İndi oğlanlar qızlara qonaq gedəcəklər. Qonaqlar evə yaxınlaşarkən nə edirlər?

-Qapını döyürlər və ya zəngi basırlar.

-Oğlanlar, indi siz başlayın (Oğlanlar qapını döyürlər). Bəs ev sahibləri nə edirlər? (Soruşurlar: - kimdir?)

-Qızlar siz də başlayın.

Beləliklə, «Qonaq gedərkən» hərəkətlər ardıcıllığının alqoritmi belə olur. (Uşaqlarla bir yerdə təkrar edirik).

-Qonaqlar qapını döyürlər.

Ev sahibi:

-Kimdir?

Qonaq:

-Salam, bu mənəm (adını deyir).

Ev sahibi:

- Xoş gəlmisiniz, buyurun! Keçin əyləşin.

Qonaq:

-Sağ olun (əyləşir).

Ev sahibi:

-Necəsiniz? Evdəkilər necədirlər.

Ev sahibi çay, meyvə, xörək gətirir.

-Buyurun qonaq olun.

Qonaq:

-Çox sağ olun. Hələlik.

Ev sahibi:

-Yenə də gəlin.

Artıq indi oyunu sxemlə vermək olar.

Şəkildə göstərilən heyvanlar bir-birinə qonaq gedirlər. Amma onlar yalnız müəyyən istiqamətdə, sağa və ya sola, aşağı və ya yuxarı hərəkət edə bilərlər. Məsələn, tülkü qoyuna qonaq getmək üçün

T→D→Ş→Q, T→C→A→Q və ya

T→D→Ş→ C→A→Q variantlarından istifadə edə bilər.




Şəkil 1.

Variantların hamısı təhlil edidikdən sonra onlardan ən sərfəlisi (daha az addımla) şagirdlər tərəfindən seçilir.

Bütün bu və digər oyun və tapşırıqlar kompüter texnikası olmayan məktəblərdə də tətbiq edilə bilər.

Kompüter sinfində isə bu iş müəllif tərəfindən hazırlanmış «Yığmalar» oyunu vasitəsilə və ya hər bir müəllimin özünün hazırladığı oyunların köməyi ilə aparıla bilər. «Yığmalar» oyununda müxtəlif fiqurlardan (kvadrat, üçbucaq) evin yığılması ardıcıllığı gözlənilməklə kimin işi tez başa çatdırması tələb olunur.




Şəkil 2.

Tapşırığı evin mənzillərinin sayını artırmaqla mürəkkəbləşdirmək mümkündür.

## ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ «KİTABİ-DƏDƏ QORQUD» DASTANINDAN İSTİFADƏ


**Əşrəf Rüstəmov,**

Sumqayıt şəhər 38 nömrəli məktəbin müəllimi


Keçən əsrin son on illiyi xalqımızın tarixində dərin izlər buraxmışdır. Sovetlər birliyinin süqutu, torpaqlarımıza edilən təcavüz, erməni işğalçılarının törətdikləri vəhşiliklər xalqımızın keşməkeşli taleyinin yaddançıxmaz səhifələridir. Tarixi yaradan da, yaşadan da xalqın özündür. Hər hansı bir xalqın tarixi, dünya xalqları arasında o vaxt özünəlayiq yer tutur ki, bu tarix vətən və millət məfhumları ilə sıx bağlı olsun, vətənpərvərlik hissi, ana xətt kimi onun hər bir səhifəsindən keçsin. Müasir dövrdə ümumtəhsil məktəblərində ən aktual problemlərdən biri milli vətənpərvərlik tərbiyəsidir.

Müstəqil Azərbaycan Respublikasının milli-bəşəri dəyərlər üzərində qurulan ideologiyasının uğurla həyata keçirilməsi ümumtəhsil məktəbləri qarşısında da mühüm vəzifələr qoyur. Möhtərəm prezidentimiz cənab Heydər Əliyev gənclər günü münasibətilə gənclərlə görüşündə bu vacib məsələni xüsusi vurğulayaraq demişdir: «Birinci növbədə, hər bir gənc vətənpərvər olmalıdır. İndi Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir gəncin, xüsusən hər bir məktəblinin ən ümdə borcu və vəzifəsidir. Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir məktəblinin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır».

Bu baxımdan kiçikyaşlı məktəblinin vətənpərvərlik ruhunda tərbiyə olunması, hər bir şagirdin milli soykökünə, tariximizə, folklorumuza, min illərdən bəri xalqımızın yaratdığı mə'nəvi dəyərlərə dərindən yiyələnməsində oxu dərslərinin də geniş imkanları vardır. Qabaqcıl təcrübə göstərir ki, oxu dərslərində folklor materiallarından məqsədyönlü istifadə, bugünkü nəslin tə'lim-tərbiyəsində çox mühüm rol oynayır.

Xalqımızın ana kitabı «Kitabi-Dədə Qorqud»un müxtəlif boylarının, bu dastanla bağlı hekayələrin tədrisində şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi məsələsinə hər bir sinif müəllimi xüsusi diqqət yetirməlidir. Mən oxu dərslərində «Kitabi-Dədə Qorqud»la əlaqədar verilmiş parçaların tədrisinə dair vətənpərvərlik motivli materialları müəyyənləşdirib qruplaşdırıram. Çalışıram ki, ulu babalarımızdan miras qalmış qiymətli sərvəti hər bir Azərbaycan vətəndaşı göz bəbəyi kimi qorusun, ona qayğı göstərsin.

Ulu babalarımız həmişə dinc həyat sürməyə çalışmış, başqa xalqlara hörmətlə yanaşmışlar, lakin zaman-zaman yadelli işğalçılar yurdumuzun var-dövlətini daşıyıb aparmaq, xalqı qul etmək istəmişlər. Yurdumuza basqın olanda ağsaqqal ozanlar xalqı, vətənimizi qorumağa, mərdlik göstərməyə çağırıblar.

Çox keçmiş zamanlarda belə müdrik bilicilərdən biri el ağsaqqalı Dədə Qorqud olmuşdur. Dədə Qorqud həmişə xalqın köməyinə gəlib, onun ağıllı məsləhətçisi olub, gələcəkdən xəbər verərmiş. Dədə Qorqud həmişə məclisə üz tutub alqışlar söylərmiş:

*Çapa-çapa ağ, boz atlar büdrəməsin!*
*Çarpışanda qılıncınız kütəlməsin!*
*Evdə yanan çırağınız daim yansın!*
*Heç kəs namərdə möhtac olmasın!*

Bu dünyada vətəndən əziz, doğma eldən qiymətli nə var? Heç kəs ondan ayrılmasın, qürbət ellərə düşməsin. Qürbətə düşənlər sağ-salamat geri dönsünlər. Mərd igidlər dar ayaqda vətəninə dayaq olar. Bir igid düşsə qərib, gör başına nələr gələr!... İgid ölər adı qalar, namərd ölsə, nəyi qalar?

«Kitabi-Dədə Qorqud» boylarında oğul ataya inanır, dərin hörmətlə yanaşır. Qazan xanın oğlu Uruz atasına deyir:

*Noldu sənə, atam Qazan?!*
*Tez ol söylə, söylə atam?!*
*Sağa baxdın, çox sevindin,*
*Baxdın önə məni gördün,*
*Uşaq kimi nə hönkürdün?*
*Səbəb nədir söylə mənə!*
*Qara başım qurban sənə!*

Atası isə oğlundan igid olmağı, vətəni qorumağa hazır olmağı tələb edir:

*Önə baxdım, səni gördüm*
*Köks ötürdüm, qəlbim yandı.*
*Keçmisən on beş yaşını,*
*Tapdamısan tay-tuşunu.*
*Yay çəkmədin, ox atmadın,*
*Eldə bir ad çıxartmadın,*
*Yox hələ şöhrətin-şanın,*
*Adı gərək qəhrəmanın!*
*Sabah ölsəm söylə əgər,*
*Bu yerimdə kim əyləşər?*

Qazan xanın özü güclü qəhrəman idi. Düşmən onu əsir alıb, ölümlə hədələyəndə də düşmən qabağında əyilməzdi.

*Bu dastandır, əfsanədir,*
*Amma düşün, mə'na nədir?*

İnsan gözəl həyat sürsə, qısa ömür uzun olar.

*Can deyib, can eşidərsə,*
*Bir il dönər yüz il olar!*
*Yaxşı dostun sədaqəti*
*Ölümdən də qüvvətlidir!*
*Sədaqətlə güc birləşsə,*
*Ölüm üçün dəhşətlidir!*

Bu boylarda Dədə Qorqud qopuz çalır, dastan qoşur, gənclərə öyüd verir, alqışlar söyləyərdi.

III sinifdə «Basatın Təpəgözü öldürməsi» boyu tədris olunarkən Basatın vətənpərvərliyi, doğma yurda, elinə, obasına sönməz sevgisi, onun qorxunc yağı qarşısında əyilməzliyi və cəsarəti ön plana

kilmişdir. Kifayət qədər şan-şöhrət sahibi olan Basat Təpəgözün üstünə, bəlkə getməyə də bilərdi. Ancaq ana yurda məhəbbət, amansız düşmənin qəddarlığı, Oğuz elinin üstünü alan təhlükə onu bu nəhənglə ölüm- dirim mübarizəsinə sövq edir. Ata-anası ağlayıb sızlasa da, Basat öz yolundan dönmür. Hətta Oğuz elinin bəylərbəyi Salur Qazan belə Təpəgözlə savaşın çox qorxulu olduğunu Basata anlatmağa, onu öz yolundan döndərməyə çalışsa da, o, yolundan dönmür:

***Böyük nəhəng oldu Təpəgöz,***
***Göydə çevirdim, yıxa bilmədim, Basat!***
***Uca dağlarda fırlandıq, yıxa bilmədim, Basat!***
***Ağsaqqalı atanı ağlatma!***
***Ağbirçəkli ananı göynətmə!***

Bu sözlərdən real təhlükənin nə qədər qorxulu olduğu anlaşılır, çünki bütün Oğuz elinin dövləti, «ümmət-soyunun aslanı, qalmış yigit arxası» kimi tanınan Qazan xan belə Təpəgözün qarşısında acizliyini e'tiraf edir. Müəllim şagirdlərin diqqətini bu istiqamətə cəlb edərək, Basatın nə qədər cəsarətli və təhlükəli bir addım atdığını, həm də bu addımın nəcib bir məqsədlə-xalq, doğma yurd və onun övladları naminə atıldığını qeyd etməli, məktəblilərə vətənpərvərlik tərbiyəsi aşılamalıdır.

Dərs dediyim IV sinifdə bu məzmunda apardığım işlər öz əksini tapmışdır. Belə ki, «Dədə Qorqud» dastanı ilə bağlı «Ana südü, dağ çiçəyi» hekayəsindən danışarkən şagirdlərə başa salıram ki, Vətən ana ilə bərabər tutulur. Vətən haqqı ana haqqıdır. Oğuz igidləri vətənin keşiyində sayıq durub, onu göz bəbəyi kimi qoruyurlar. Onlar bilirlər ki, vətən torpağını düşməndən qorumaq hər bir namuslu oğlun və qızın müqəddəs borcudur. İgid atanın yolunu oğul davam etdirməsə, vətənin müdafiəsi tə'min edilə bilməz. Dirsə xan buna görə övladsızlığa dözmür. Allah ona bir oğul verir Dirsə xanın adsız böyüyən oğlu Dədə Qorqudun dilindən Buğac adını alır. Şagirdlərə çatdırıram ki, «Dədə Qorqud» dastanı M.Rzaquluzadənin «Ana südü, dağ çiçəyi» əsəri üçün mövzu mənbəyi olmuşdur.

Qamğan oğlu Bayandır ildə bir kərə Oğuz bəylərini qonaq çağırıb, atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirir. O, bu qonaqlıqda bəylər üçün otaqlar da ayırır. Oğlu olanı ağ, qızı olanı qızıl, oğlu- qızı olmayanı qara otaqda otuzdurur.

Dirsə xanın oğlu Buğac ovda ölümcül yarananır. Bozatlı Xızır yaralı oğlanın yanında hazır olur. Üç dəfə yarasını əliylə sığallayıb deyir: «Oğlan, qorxma, sənə bu yaradan ölüm yoxdur. Dağ çiçəyi ilə ananın südü sənin yarana məlhəmdir». Oğlanın anası at çapıb, oğlunun yaralandığı yerə gəlib çıxır, baxıb görür ki, oğlu al qanına boyanıb yatır. Oğlan azacıq gözünü açır və anasına deyir:

- Ana ağlama, qorxma, bu yaradan mənə ölüm yoxdur. Bozatlı Xızır yanıma gəldi, üç dəfə yaramı sığalladı və əlavə etdi ki, bu yaradan sənə ölüm yoxdur, dağ çiçəyi ilə ana südü sənə məlhəmdir.

Oğlan belə deyən kimi qırx incəbelli qız ətrafa yayılıb dağ çiçəyi topladı. Oğlanın anası əmcəyini bir sıxdı, südü gəlmədi. İki sıxdı, yenə südü gəlmədi. Üçüncüdə özünə bir güc verdi, əmcəyini sıxdı, qanla qarışıq süd gəldi.

Dağ çiçəyi və ana südü oğlanı sağaltdı.

Bu mövzu ilə bağlı danışarkən aşağıdakı müsahibəyə yer verirəm:

- «Kitabi Dədə Qorqud» dastanındakı boylarda qonaqlar necə qarşılanırdı?

- Bozatlı Xızır yaralanmış oğlana necə kömək edir?

-Bozatlı Xızırın əlində müalicə əlamətinin olduğunu nədən bilmək mümkündür?

-Hansı dağ çiçəklərindən indi də müalicədə istifadə olunur?

-Dastanda göstərilən hansı ən'ənələr indi də yaşayır?

-Dədə Qorquda və onun ətrafında dolanan qəhrəmanlara oxşamaq istəyirsinizmi? Bunun səbəbi nədir?

-Uşaqlar, bu gün Qazan xanın, Qaraca Çobanın, Beyrəyin yurdu düşmən tərəfindən yenə də talanır. Bunun üçün nə etməliyik? Bu talanan, dərdli, yaralı torpağı yadelli işğalçılardan, qatı düşməndən xilas edən bugünkü gənclik olmalıdır. Siz də vətəni qorumağa hazır olmalısınız.

–Deyin, Qazan xan döyüşə necə gedərdi?

–Qazan xan və onun igidləri, döyüşə at belində, cəngi üstündə gedərdilər.

–Bəs uşaqlar, siz düşmən üzərinə necə gedərdiniz?

–Müəllim, əgər düşmən ata-baba torpaqlarımızı qaytarmasa, biz böyüyəndə vətən bizi səsləsə, düşmənləri son mənzillərinədək qovub, məhv edəcəyik.

Dünya şöhrətli bu dastanın bütün boyları ulu babalarımızın vətən sevgisi,

yurd məhəbbəti ilə yoğrulmuşdur. Atası tərəfindən ölümcül yaralanmış Buğac el təəssübü, yağıya nifrət hissi ilə silaha sarılaraq atası Dirsə xanı və doğma yurdunu xain əllərdən, məkrli düşmən caynaqlarından qurtarır. Əvəzsiz sənət nümunəsi olan dastanın digər qəhrəmanları-Qazan xan, Beyrək, Qaraca Çoban, Qaragünə, Qanturalı və başqaları haqqında da eyni sözləri demək olar.

İbtidai siniflərdə şagirdlərin milli-vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün çox geniş işlər görülür. Bu işlərin görülməsi üçün şagirdlərin bütövlüyünə, gənc vətəndaşların ictimai baxışları və mə'nəvi dəyərlərinin düzgün formalaşmasına çox ciddi fikir verilməlidir. Vətənpərvərlik tərbiyəsi Azərbaycan Respublikasının milli ideologiyasının ən mühüm tərkib hissələrindən biridir. Möhtərəm prezidentimiz Heydər Əliyevin dediyi kimi: «Azərbaycanın bütün təhsil, tərbiyə müəssisələrinin, gənclər təşkilatlarının başlıca vəzifəsi uşaqları, şagirdləri, bütövlükdə gəncləri, müstəqil dövlətimizin milli ideologiyasının prinsipləri əsasında tərbiyələndirməkdən ibarətdir»,

İbtidai siniflərdə zəngin folklor materiallarından fəal tə'lim prinsiplərinə uyğun şəkildə istifadə etməklə, kiçikyaşlı məktəblilərin milli-vətənpərvərlik tərbiyəsi hörmətli Prezidentimizin göstərdiyi istiqamətdə aparılmalıdır. Müharibə şəraitində yaşayan Azərbaycan dövlətinin qüdrətinin artması məhz vətənpərvərlik tərbiyəsinin düzgün aparılmasından başlanır. Məktəbə, millətin bütün gələcəyinə böyük diqqət göstərən görkəmli ədib H.Cavid 1915-ci ildə «Açıq söz» qəzetində yazırdı: «Rus-yapon müharibəsində bə'zi mütəfəkkirlər yaponların qalibiyyətlərini, onların komandalarında, zabitlərində deyil, ibtidai məktəblərində, məktəb müəllimlərində, müəllimlərin xalqa vermiş olduğu tərbiyədə aramışdır».

İbtidai siniflərin «Oxu» dərsliklərində «Kitabi-Dədə Qorqud»la əlaqədar verilmiş parçaların tədrisinə dair vətənpərvərlik motivli materialları müəyyənləşdirib qruplaşdırır, onların tədrisi ilə bağlı müvafiq yollar üzərində düşünürəm. «Kitabi-Dədə Qorqud»da «küçük ölüm» adlanan yuxu «oğuzun başına nə gəlsə yatanda gələr» fikrinin altında gizlənən həqiqətin incələnib, aşkarlanması gənc nəsli ayıq olmağa, düşmənin şirin dilinə heç vaxt aldanmamağa çağırır. Qazan xan kimi bir bahadırın yağı əlində illərlə dustaq olmasının səbəbini araşdırırkən şagirdlər belə bir qənaətə gəlirlər ki, türk oğlu heç vaxt öz sayıqlığını itirməməlidir. Sayıqlığını itirən andan onun faciəsi başlayır. Bugünkü faciələrimizin bir səbəbi də öz sayıqlığımızı itirməyimiz, düşməni lazımınca qiymətləndirməməyimiz oldu.

Erməni tapdağında qalan yurd yerləri, füsunkar Qarabağ, doğma vətənimizlə bağlı əfsanəvi rəvayətlər, nağıl və dastanlar, bayatı və nəğmələr pedaqoji ustalıqla seçilib, şagirdlərin mühakiməsinə verilməlidir. Bu, gənc nəslin vətənpərvərlik tərbiyəsində əvəzsiz vasitədir.

***Ağbabadan Çıldıra,***
***Yol gedir sıra- sıra.***
***Ağlım vətən dərdindən***
***Qorxuram ki, çıldıra.***
***Dağ başında qara bax,***
***Üstün alan sara bax.***
***Aləm cənnətə dönsə,***
***Yaddan çıxmaz Qarabağ!***

Bu və ya bunun kimi onlarla bayatılarda qədim yurd yerləri şagirdlərin nəzərinə çatdırılmalıdır.

«Vətən», «Vətəndaşlıq», Vətənpərvərlik!» Bu sözlər şagirdlərdə daha dərin və əziz hisslər oyadır. Vətənə məhəbbət-öz xalqına məhəbbətdir. Vətən uğrunda hər cür fədakarlığa hazır olmaq lazımdır. «Vətənpərvərlik isə əsrlərlə insanların qan yaddaşına həkk olunmuş hisslərdəndir. Vətəni sevmədən, qorumadan, ata-babalarımızın keçdikləri yollara nəzər salmadan, onların qəhrəmanlıq mününələrini öyrənmədən vətənpərvər yetirmək olmaz.

Vətən məhəbbəti, insanın qəlbində yaşayan, onu vətənin çiçəklənməsinə təhrik edən ən güclü mə'nəvi-əxlaqi hissdir. Bu hissi hələ uşaqlıq illərindən, bağça yaşlarından, ibtidai siniflərdən aşılamaq hər bir müəllimin başlıca vəzifəsidir.

Doğma torpaqlarımız uğrunda mübarizə, dədə-baba ocaqlarına qayıdış inamı gənc nəslin qəlbinə hakim kəsilməlidir. Zəngin və rəngarəng folklor nümunələrindən bəhrələndikcə, şagirdlər öyrənirlər ki, Göycə, Gümrü, Dədəçiçək, Ağbaba, Qızılqoç, Calaloğlu, Pəmbək, Dərələyəz, Zəngəzur, Üçkilsə, İrəvan, Qarakilsə və Dəmirqapı Dərbənd kimi qədim yurd yerləri son vaxtlaradək ulu babalarımızın at oynadıb, qılınc çəkdikləri əzəli və əbədi məskənləri olub. Bu cür folklor materiallarını bədii təhlilə gətirməklə, şagirdlərdə bir tərəfdən tariximizə, söykökümüzə bağlılıq, yüksək vətənpərvərlik hissi tərbiyə olunursa, digər tərəfdən yağılara qarşı güclü nifrət hissi

İbtidai məktəbin müxtəlif siniflərində tədris olunan «Kitabi-Dədə Qorqud», «Koroğlu» «Şah İsmayıl Xətai» və b. dastanlar «Oğuz Qazan», «Araz çayı», «Arpa çayı» kimi əfsanə və rəvayətlər, nəğmələr, bayatılar Azərbaycan şifahi- xalq ədəbiyyatının digər janrları geniş mündəricəyə, yüksək bədii – tərbiyəvi dəyərlərə malikdir. Bu mə'nəvi dəyərlərdən pedaqoji ustalıqla fəal tə'lim metodlarına əsaslanaraq istifadə etmək, gənc nəslin milli-vətənpərvərlik ruhunda formalaşmasına çalışmaq, tərbiyə prosesini məzmun və keyfiyyətcə yeniləşdirmək deməkdir. Hər bir müəllim və tərbiyəçi folklorumuzun tükənməz xəzinəsindən istifadə etməklə bu mühüm məsələyə xüsusi diqqət yetirməlidir.

## FAKULTATİV, FƏRDİ VƏ QRUP MƏŞĞƏLƏLƏRİ

**Nənəxanım Həsənova,**
Yasamal RTŞ-nin metodisti

Təhsil islahatı orta ümumtəhsil sisteminin təkmilləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiya olunması istiqamətində mühüm işlərin görülməsini tələb edir.

Hazırda şagirdin tə'lim prosesinin mərkəzinə qoyulması, ona obyekt deyil, subyekt kimi baxılması şəxsiyyətin inkişafının təhsilin məqsədinə çevrilməsi məramımızı müəyyənləşdirir.

Təhsil islahatına başladığımız dövrdən ibtidai sinif şagirdlərinin hazırlığına verilən tələblər də dəyişdi. Kiçikyaşlı məktəblilərin arzu və istəklərindən asılı olaraq tə'limin məzmununda müəyyən dəyişikliklərin aparılmasına imkan verildi. Şagirdlərin özləri proqramlarda nəzərdə tutulmuş məcburi bilik və bacarıqlardan əlavə, nələri öyrənmək istədiklərini diktə etməyə imkan tapdılar. Bu, təhsildə demokratiya və humanistləşmə prinsiplərinə əməl olunmasından irəli gəlir. Kiçikyaşlı məktəblilərin dediklərini nəzərə almaq, onu şəxsiyyət hesab etmək təhsilin səmərəli təşkili, maraqlı olması və məqsədəuyğun şəklə düşməsi üçün əlverişli şərait yaratdı. Belə bir şərait şagirdləri hər şeylə maraqlanmağa, müstəqil biliklər əldə etməyə yönəltdi.

1998-ci ildə məktəblərimizin istifadəsinə verilmiş bazis tədris planında I sinifdən başlayaraq fakultativ, fərdi və qrup məşğələləri üçün hər sinifdə həftədə 2 saat ayrılır. Əsas dərs yükündən əlavə verilmiş bu saatlarla şagirdlərin məcburi maksimum dərs yükü müəyyənləşdirilir. Həmin saatlar şagirdlərin meyli, marağı və arzusu nəzərə alınmaqla təşkil edilməlidir. Bu zaman valideynlərin razılığı ilə hesablaşmaq da lazım gəlir. Belə kursları sinif müəllimi, həmçinin səriştəli digər ixtisas sahibləri də apara bilərlər. Müəllimin əmək haqqı qəbul olunmuş qaydada ödənilir.

Çox təəssüf ki, məktəblərin əksəriyyətində uşaqların arzuları ya nəzər alınmır, ya da buna formal yanaşılır. Müəllim yaxşı tədris edə bilmədiyi fənnin eybini örtmək üçün saatları həmin fənnə (ana dili, riyaziyyat) sərf edir. Həmin saatları ingilis dili və rus dilinin tədrisinə həsr edənlər, yol hərəkəti qaydaları, ekologiya, uşaq hüquqlarına verənlər də var. Əgər müəllim valideynlərlə məsləhətləşirsə, nəticədə onların istəkləri üst-üstə düşür Beləliklə, əslində fakultativ kurslar şagirdləri (ən yaxşı halda onların bir hissəsini) yükləyir. Elə şagirdlər var ki, onlar bildiklərinin yersiz təkrar olunmasını, yersiz çeynənməsini xoşlamırlar.

Uşaqlarla aparılan sorğu göstərir ki, onların arzu və istəkləri müxtəlifdir. Hər bir sinifdə kompüter texnikasını öyrənmək, foto çəkmək, rəssam, rəngkar, heykəltəraş olmaq, xalçaçılıq, tikmə ilə məşğul olmaq, müəyyən çalğı alətində çalmaq, xoreoqrafiya ilə məşğul olmaq, üzgüçülük, bədii gimnastika, idmanın müxtəlif növləri ilə məşğul olmaq istəyənlər var. Təbiidir ki, bunları bacarmayan müəllim öz maddi mənafeyini üstün tutaraq uşaqlara istəmədiklərini keçir. Sinfin qruplara ayrıldığı, müəllimin qrupla işlədiyi hallar isə az olur.

Fakultativ kurslara belə yanaşma kiçikyaşlı məktəblilərin hərtərfli inkişafının qarşısını alır. Beləliklə, biz iste'dadların üzə çıxmasına, onların inkişafına mane oluruq Bu isə nəticə e'tibarilə təhsildə şagird amilinə üstünlüyün verilməsinə, humanizmin bərqərar olmasına əngəl törədir.

İstərdik ki, məktəblərimizdə, xüsusilə müvafiq maddi bazası, mütəxəssisləri olan məktəblərdə kiçikyaşlı məktəblilərin arzu və istəkləri maksimum dərəcədə nəzərə alınsın, gələcəkdə həyatda düzgün seçim apara, müstəqil yaradıcı fəaliyyət göstərə biləcək şəxsiyyətin formalaşmasının bünövrəsi məhz bu siniflərdə qoyulsun.

* * *

# UŞAQ HÜQUQLARI ÜZRƏ İŞİN APARILMASI

**Cəmilə Bəhmənova,**
**132 nömrəli məktəbin müəllimi**

«Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti 1998-ci il avqustun 24-də fərman vermişdir. Həmin vaxtdan Azərbaycanda uşaqların hüququnu müdafiə edən qanun bazası yaranmış və bu qanunların icrası dövlətin nəzarətindədir.

Bildiyimiz kimi, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra (1992-ci ildə) Uşaq Hüquqları Konvensiyasına qoşulmuşdur. Bu Konvensiya 54 maddədən ibarətdir. Uşaq hüquqlarının şagirdlərə öyrədilməsi müəllimlərin qarşısında qoyulmuş vəzifələrdən biridir. Bugünki uşaqlar öz xalqının tarixini, ən'ənələrini, hüquqlarını bilməlidirlər.

Uşaq hüquqlarının öyrədilməsinin bünövrəsi məktəbəqədər yaş dövründən qoyulur. Məktəbdə isə müəllim bu işə daha ciddi yanaşmalıdır.

Şagirdlərlə hüquq tərbiyəsi üzrə iş apararkən onların əxlaq tərbiyəsini, mə'nəvi tərbiyəsini formalaşdırmaq vacibdir. Hüquq tərbiyəsi əxlaq tərbiyəsi, mə'nəvi tərbiyə ilə sıx əlaqədardır.

Şagirdlərin hüquqlarının qorunması üçün onlara humanistcəsinə, fərdi yanaşır, şəxsiyyətinə hörmət etməklə müsbət cəhətlərini qiymətləndirirəm. Siniflə valideynlərin əlaqəsini möhkəmləndirirəm.

Uşaq hüquqlarını şagirdlərə öyrədərkən Azərbaycan Respubliksının Konstitusiyası, «Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu», «Uşaq Hüquqları Konvensiyası», «İnsan hüquqlarının tədrisi», «İlk addımlar: İnsan hüquqları tə'liminin ibtidai kursu», «Kiçikyaşlı məktəblilərə insan hüquqlarının öyrədilməsi», «Bu da mən» və başqa kitablardan istifadə edirəm.

Uşaq Hüquqları Konvensiyasını şagirdə öyrədərkən çalışıram hər bir uşaq öyrəndikləri maddələrin açıqlanması ilə də tanış olsun. Bu məqsədlə sualları iki cür qoyuram: qapalı suallar, açıq suallar. Tutaq ki, qapalı sualın cavabı belədir: «Hər bir uşağın təhsil almaq hüququ var». Qapalı sualların cavabı konkret olduğundan bu şagirdlərin təfəkkürünü yaxşı inkişaf etdirmir. Açıq sual verirəm: Necə? Nə cür? Nəyə görə? Hansı şəraitdə? və s. Bu suallara şagirdlər daha geniş, ətraflı cavab verirlər, üstəlik bildirirlər ki, əlil uşaqların da, vətənimizdə yaşayan əcnəbi uşaqların da təhsil almaq hüquqları var. Bu cür açıq suallar şagirdləri fəallaşdırır. Onlar dərindən düşünür, öz fikirlərini sərbəst deməyə çalışırlar. Uşaq hüquqlarından oxu dərslərində istifadə edirəm. «20 yanvar», «Xocalı faciəsi», «Soyqırımı», «Qanlı çiçəklər» və s. mövzularını tədris edərkən uşaq hüquqlarının necə pozulduğunu şagirdlərə aydınlaşdırıram.

Avtoritar yanaşma uşaqların fəaliyyətini azaldır, onlara mənfi tə'sir göstərir. Ona görə də şagirdlərə hər hansı biliyi öyrədərkən onlara demokratik yanaşıram. Demokratik yanaşma uşaqların təfəkkürünü inkişaf etdirir, yeniləşdirir, fəallığını artırır. Belə yanaşma şagirdlərə müsbət tə'sir edir.

Tə'lim zamanı çalışıram ki, dərsimi insan hüquqları və demokratiya prinsipləri üzərində qurum. Bu məqsədlə qaş-qabaqlı olmamağa, gülərüz görünməyə çalışıram. Şagirdləri adları ilə çağırıram. Onların cavabları düzgün olmadıqda özümdən çıxmır, yardımçı suallar verib, düzgün cavab almağa çalışıram. Şagirdlərə sərbəst fikir söyləməyə şərait yaradıram.

Bilirəm ki, XXI əsrin müəllimi dünya təcrübəsindən məqsədəyönlü istifadə etməli, yeni metodlarla işləyərək yüksək keyfiyyət əldə etməlidir. Humanizm keyfiyyət ölçüsüdür. Humanist müəllim isə canını, qanını, ürəyini uşaqlara verən təmkinli, məs'uliyyətli, yaradıcı olan, uşaqların sevincinə, kədərinə şərik çıxan müəllimlərdir.

Tə'lim-tərbiyə prosesində müasir tə'lim metodlarından interaktiv tə'lim metodunun köməyindən istifadə edirəm.

III[c] sinfində «Biz uşaq hüquqlarını öyrənirik» mövzusunu keçərkən qrup məşğələsində şagirdlərin qarşısında «Siz adaya düşsəniz nə edərsiniz?» problemini qoydum. Təbii fəlakət zamanı dənizdə bir neçə gəminin batdığını əks etdirən şəkilləri yazı taxtasından asdım. Hər qrupa işçi vərəqi payladım. Keçdiyimiz maddələrin

yada salınmasını və onlardan istifadə edərək sualın cavabını açıqlamağı xahiş etdim. 10 dəqiqə vaxt verdim. Qruplar məsləhətləşib, liderini tə'yin etdilər. İşçi vərəqlərini yazıb, mənə verdilər. Mən şagirdlər tərəfindən yazılmış işçi vərəqləri yazı taxtasından asdım. Sonra müzakirə etdik. «Ada» oyununda şagirdlərin fikirləri bir-birini tamamlayırdı. Qiymətləndirmə çox demokratik keçdi. Mövzuya aid şəkil çəkənlər, kağızdan gəmi modeli, qurbağa düzəldən qruplar yüksək qiymətləndirildi. Ən maraqlısı odur ki, bütün qruplar birinci yaşamaq hüququnu yazmışdılar.

Adada yaratdıqları dövlətin adını «Azərbaycan» qoydular. Hətta Azərbay-cana, vətənə aid şe'r söylədilər. Hər qrupun lideri qrupuna verdiyi adın mə'nasını (Qa-rabağ, Xəzər, Naxçıvan, Odlar diyarı, Təb-riz) açıqladı.

Yaratdığı ölkəyə prezident seçdilər. Seçkini demokratik apardılar. Seçdikləri prezidentin M.Ə.Rəsulzadə kimi, N.Nəri-manov kimi vətənpərvər olmasını, Hüseyn-qulu xan, Cavad xan kimi igid olmasını, H.Əliyev kimi siyasətçi, diplomat, xalqını sevən, mədəni olmasını istədilər. Belə prezi-dentə səs verdilər.

Bir sözlə, dərsin belə təşkili hər bir uşaq-da məs'uliyyət hissini artırır, onlar arasında qarşılıqlı münasibət yaradır. Şagirdlər bir-birini dinləyir, məsləhətləşir və müzakirə aparırlar. Onlar belə dərslərdə yorulmur, tə'lim maraqlı olur. Şagirdlər daim axtarışa cəlb olunurlar. Mən deyərdim ki, belə metod-dan istifadə şagird şəxsiyyətinin formalaş-masında böyük rol oynayır.

Mən şagirdlərin hüquq tərbiyəsini formalaşdırmaq üçün əvvəlcə onları iki istiqamətdə öyrəndim, sonra qruplaşdır-dım. Hər qrupla məqsədyönlü iş apardım. Birinci qrup uşaq hüquqlarını, qanun-larını bilir, ancaq onları pozur. İkinci qrup qanunları bilmir, həm də onları pozur. Göründüyü kimi, bu qrupların arasında fərq çoxdur. 1-ci və 2-ci qrupa daxil olan uşaqlarla eyni cür işləmək olmaz, çünki şagird qanunu bilmədən po-zursa, əvvəlcə, uşaq hüquqlarını ona öy-rətmək lazımdır. Əgər şagird hüquq qa-nunlarını bilir və pozursa, belə şagirdlərlə aparılan tərbiyə işi onların qanunlara tabe olmalarını və riayət etmələrini formalaş-dırmaq məqsədi daşımalıdır.

## ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA MÜƏLLİM - ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ROLU

**Reyhan Qarayeva,**
Bakıdakı 246 nömrəli məktəb-liseyin müəllimi

Məktəbin qarşısında duran əsas vəzifə-lərindən biri hərətərəfli inkişaf etmiş şəxsiyyətlər formalaşdırmaqdan ibarətdir. Bu vəzifənin mü-vəffəqiyyətlə həyata keçirilməsi tə'lim-tərbiyə prosesində müəllim-şagird münasibətlərinin nə-zərə alınmasından asılıdır.

Pedaqoji prosesdə münasibətlər çoxcə-hətlidir: müəllim – məktəb direktoru; müəllim-pedaqoji kollektiv; müəllim-şagird, müəllim - valideyn; uşaq-valideyn və s. Bu münasibət-lərdən ən çox diqqət mərkəzində olan müəllim-şagird münasibətləridir. Müəllimi müqəddəs, əziz edən, sevdirən onun tərbiyə etdiyi, savad-landırdığı şagirdlərdir. Əgər müəllim şagirdə doğma övladına yanaşdığı kimi yanaşırsa, şa-girdin qəlbində yer tuta bilirsə, özünü şagirdə sevdirə məyi bacarırsa, istənilən nəticə alınar. Şagirdlərin hamısı bir gözdə görülməli, biri di-gərindən seçilməməlidir. Əgər şagirdlər arasında ayrı-seçkilik salınsa, müəllim nüfuzunu itirər.

İbtidai siniflərdə müəllim şagirdləri kiçik-yaşlı hesab edib, heç bir yersiz hərəkətə yol vermə məlidir. «Şagird gözü tərəzidir» deyib-lər. Şagirdin diqqətindən heç nə yayınmır. Əgər müəllim şagirdlər arasında ayrı-seçkilik yaradırsa, müəllim-şagird münasibətləri düz-gün qurula bilməz.

Müəllim sinfə daxil olarkən bilməlidir ki, həmin sinifdə müxtəlif ailələrdən gəlmiş, müx-təlif ailə tərbiyəsi görmüş, müxtəlif xarakterli, temperamentli, müxtəlif maraq və meyllərə malik uşaqlar əyləşiblər. Onların arasında fəal və qeyri-fəal, cəsarətli və utancaq, ola bilsin ki, qüsurlu olanlar da var. Müəllim elə bir gücə, pedaqoji ustalığa malik olmalıdır ki, onların hamısı ilə dil tapa bilsin. Həm onlara elmi öyrətsin, həm tərbiyə versin, həm də özünü onlara sevdirsin.

Müəllim-şagird münasibətlərinin tənzim-lənməsində, e'timad-inam ölçülərinin də rolu böyükdür. Şagird müəllimin imkanlarına, qa-biliyyətinə, bacarığına, müəllim isə şagirdinin qabiliyyətinə, savadına inanmalı, hər vəchlə

onun bütün bacarığının üzə çıxmasına şərait yaratmalıdır.

Şagirdlərin müəllimlərinə inanmalarının əhəmiyyəti böyükdür. Şagirdlər müəllimlərinə inanırlarsa, hər hansı çətinliklə qarşılaşanda ona müraciət edib məsləhət istəyirlər. Müəllim-şagird münasibətlərinin möhkəmlənməsində səmimilik, mehribanlıq mühüm rol oynayır. Müəllim səmimi olanda şagirdlər ona daha da doğmalaşırlar. Bə'zən elə hallar olur ki, bu doğmalıq nəticəsində uşaq evdə deyə bilmədiyi sözləri müəllimi ilə bölüşür.

Səmimi müəllim şagirdləri ilə gözəl ünsiyyətə girir, onlarla mehriban danışır, dərsi onların anlayacağı tərzdə başa salır.

Müəllim həm də ədalətli, qayğıkeş olmalıdır. O, hər bir kiçikyaşlı məktəblini öz övladı kimi sevməli, əzizləməli, ona qayğı göstərməlidir. Əgər müəllim şagirdin qəlbində özünə yer tapıbsa, onun çəkdiyi zəhmət tez-gec bəhrəsini verəcəkdir.

Hər bir müəllimin qarşısında duran başlıca vəzifə tərbiyəli, bilikli, hərtərəfli inkişaf etmiş şəxsiyyət formalaşdırmaqdan ibarətdir. Bunun üçün ilk növbədə müəllimin özü nəzəri biliklərə dərindən yiyələnməli, praktik cəhətdən pedaqoji-metodik qaydalara, tələblərə əməl etməli, dərs prosesində, eləcə də sinifdənxaric tədbirlər zamanı müəllim-şagird münasibətlərində «subyekt-subyekt» prinsipini gözləməlidir. Buna nail olmaq üçün müəllimlər pedaqoq-psixoloq alimlərin nəzəri irsindən bəhrələnməklə yanaşı, qabaqcıl təcrübəyə də istinad etməlidirlər.

Bu gün hamı e'tiraf edir ki, tə'lim və tərbiyə bir cəhətə-subyektdən obyektə istiqamətlənmiş proses olmayıb, hər şeydən əvvəl, qarşılıqlı prosesdir. Özünü təhsilləndirmə olmadan tə'lim, özünütərbiyələndirmə olmadan tərbiyə tam qiymətli ola bilməz.

Deməli, müəllimlərlə şagirdlər arasında münasibətlər zamanı qarşılıqlı anlaşma olmazsa, tə'lim və tərbiyə şəxsiyyətə təzyiq prosesinə çevrilər. Belə olduqda müəllim tə'lim-tərbiyədə istənilən nəticə əldə edə bilməz.

Hər bir müəllim şagirdinə gələcəyin qurucusu kimi baxmalıdır. Müəllim başa düşməlidir ki, onun qarşısında əyləşən hər bir kiçikyaşlı məktəbli gələcəyimizi quranlardan biri ola bilər. O, hər bir uşağın gələcəyin dahisi olacağına inanmaqla onu da bu və ya digər sənətin, peşənin sahibi olacağına inandırmalı, həvəsləndirməlidir. Belə olduqda şagirdin tə'limə marağı daha da artır.

Biz müstəqil dövlətimizdə azadlığın və demokratiyanın bərqərar olduğu bir vaxtda təhsilin hümanistləşdirilməsi və demokratikləşdirilməsi prinsipi əsasında fəaliyyətimizi elə qurub, davam etdirməliyik ki, tərbiyələndirdiyimiz şagirdlərdən yüksək elmi dünyagörüşə malik savadlı, qabiliyyətli, bacarıqlı şəxsiyyətlər yetişsin. Elə şəxsiyyətlər ki, oxumaqla yanaşı, vətənini, millətini, xalqını ürəkdən sevsin, lazım gələrsə, vətən yolunda canlarından keçməyə hazır olsunlar. Ona görə də «Vətən», «ana» kəlmələrinin bir-birinə nə dərəcədə bağlı olduğu dərindən izah edilməlidir.

Biz bu gün işğal olunmuş, erməni tapdağı altında qalmış torpaqlarımızdan danışırıq və ümid edirik ki, doğma torpaqlarımız xilas olunacaqdır. Dövlətin, Vətənin müdafiəçiləri də məhz ibtidai siniflərdən kiçik məktəb yaşı dövründən formalaşmağa başlayır. Ona görə də müəllim-şagird münasibətləri elə bir köklü zəmin üzərində qurulmalıdır ki, şagird həm yüksək savada malik olsun, həm yüksək əxlaq nümayiş etdirsin, həm də Vətən üçün gərəkli bir insan olsun.

Müəllim-şagird münasitbətləri o zaman istənilən nəticələri verəcək ki, müəllim yüksək savada, gözəl insani keyfiyyətlərə, müasir tə'lim metodları və texnologiyalarından tə'lim prosesində istifadə etmək bacarığına malik olmaqla yanaşı, hər bir şagirdə şəxsiyyət kimi yanaşmağı, onların qüvvələrinə inandığını büruzə verməyi bacarsın. Belə olduqda müəllim şagirdlərə özünü sevdirə və tə'limdə istədiyi nəticəni əldə edər.

Müəllim-şagird münasiətlərinin zəruriliyini sübuta yetirmək üçün hörmətli prezidentimiz Heydər Əliyevin müdrik kəlamını yada salmaq istəyirəm: «Müəllimlik sənəti, peşəsi cəmiyyətdə ən yüksək qiymətə layiq olan bir peşədir... Müəllim olmaq kimi şərəfli bir iş yoxdur. Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq... Müəllimə borclu olmayan adam yoxdur».

Deməli, müəllim həm pedaqoq, həm də psixoloq olmaqla ən yüksək insani keyfiyyətləri özündə birləşdirməlidir. Gözəl tərbiyəçi və təşkilatçı kimi müəllim şagirdlərin ləyaqətinə, şəxsiyyətinə hörmət etməli, onun həyatda fəal mövqe tutması, yetkin şəxsiyyət kimi formalaşması üçün əlindən gələni əsirgəməməlidir.

Təcrübə göstərir ki, kiçikyaşlı məktəblilərə qayğı və inamla yanaşdıqda, onlara lazımiköməyi əsirgəmədikdə, müəllim-şagird münasibətlərində yeni çalarlar meydana çıxır. Bu zaman müəllim tərbiyə etdiyi şagirdlərə özünü sevdirə bilir. Bu cəhətə diqqət yetirilməsi tə'limin səmərəliliyinin artması üçün də olduqca vacibdir. Ona görə də məktəbdə başlıca sima olan müəllim, hər şeydən əvvəl, tələbkar olmalı, özünə tənqidi yanaşmalı, şagirdləri ilə səmimi münasibət saxlamağı bacarmalıdır.

# UŞAQ HÜQUQLARI HAQQINDA İLKİN TƏSƏVVÜRLƏRİN AŞILANMASI ŞƏXSİYYƏTİN FORMALAŞMASININ MÜHÜM AMİLLƏRİNDƏN BİRİ KİMİ

**Xuraman Əmircanova,**
Bakıdakı 115 nömrəli məktəbin müəllimi

Müstəqillik əldə etmiş azad Azərbaycan demokratik, hüquqi, dünyavi cəmiyyət quruculuğu yoluna qədəm qoymuşdur. Belə cəmiyyətin əsas atributlarından biri də insan hüquqlarının aliliyinin tə'minatıdır. Məhz buna görə də Konstitusiyamızın 18 maddəsi insan azadlıqları və hüquqlarına həsr olunmuşdur. Bütün mütərəqqi dövlətlərin və xalqların mədəni dəyərini insan hüquqları təşkil edir. Ona görə də demokratiya təcrübəsi kifayət qədər olmayan müstəqil Azərbaycanda vətəndaşların hüquqi biliklərə yiyələnmələrinə lap kiçik yaşlardan başlamaq lazımdır. Məktəblərdə uşaq hüquqlarının təbliği, öyrədilməsi günün aktual problemi kimi diqqət mərkəzində olmalıdır.

Bu məqsədlə "İnsan hüquqları haqqında ümumi Bəyannamə", "Uşaq hüquqları Konvensiyası", "Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu" və başqa sənədlərdən istifadə edərək onların hüquq tərbiyəsinə zəmin yaratmaq lazımdır.

Unutmayaq ki, qurmaq istədiyimiz hüquqi dövlətimizin gələcəyi məhz bu gün parta arxasında əyləşmiş şagirdlərdən, onların tə'limi, tərbiyəsi və hüquqi biliklərə yiyələnmələrindən asılı olacaqdır.

Şagirdlər mə'nəviyyatı və sosial vəziyyəti müxtəlif olan ailələrdən gəldiklərindən fərdin mədəni dəyəri olan insan hüquqlarının öyrədilməsi məktəb və müəllim qarşısında aktual problem qoyur. Bu problemin öhdəsindən gələk müəllimdən xüsusi pedaqoji ustalıq tələb edir.

Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının üzvü olduğu gündən bəri uşaq hüquqlarına aid mövzulara dərsliklərdə geniş yer verilməyə başlanılmış və ayrıca fakültativ məşğələlərdə belə hüquqi mövzuların tədrisinə başlanmışdır. Bu zəruriyyət BMT tərəfindən 1995-2004-cü illərin insan hüquqlarının tədrisi onilliyi e'lan olunasından irəli gəlmişdir. Buna görə də bu gün gənc nəsli inkişaf etməkdə olan demokratik cəmiyyətə hazırlamaq, gələcəyimiz üçün layiqli bir vətəndaş kimi yetişdirmək hər bir müəllimin mə'nəvi borcu sayılmalıdır.

İbtidai siniflərdə təşkil olunan uşaq hüquqları məşğələləri ümumi vətəndaşlıq tərbiyəsinin bir hissəsidir ki, bu məşğələlərin nə öyrətiyini və həyatla nə əlaqəsi olduğunu, bilik, bacarıq və dəyər (münasibət) üçbucağının köməyi ilə aydınlaşdırmaq mümkündür.

Bunun üçün, hər şeydən əvvəl, şagird hansı hüquqa malik olduğnu bilməlidir. Hər bir şagird bilməlidir ki, ölkəmizdə onun azad və yaxşı yaşaması üçün təbiət və cəmiyyət tərəfindən müəyyən hüquqlar verilir: yaşamaq hüququ, ailə hüququ, tibbi yardım hüququ, öz fikrini azad demək hüququ, təhsil hüququ, qidalanmaq hüququ və s. Şagirdlər onlara verilən bu hüquqların hər biri haqqında geniş mə'lumat alırlar. Belə hüquqi mövzuların tədrisi zamanı tə'limin interaktiv metodlarından geniş istifadə olunur ki, bu da şagirdlərin dünyagörüşünü zənginləşdirir, onlarda bir sıra mə'nəvi dəyərlər formalaşdırır.

Məşğələ zamanı şagirdlər öz hüquqları haqqında və onun ödənilməsinə aid ətraflı biliklər əldə edirlər: məsələn, "Ailə hüququ" mövzusu həm II sinfin dərsliyində verilir, həm də fakultativ məşğələlərdə möhkəmləndirilir. Mən bu mövzunun tədrisini bir gündə iki saat dalbadal keçərək nəticə əldə etdim. Belə ki, əlavə nəyə nail olacağımı planlaşdırdım:

a) şagirdlərə həyatda ailənin rolunu göstərməyi;

b) ailədə uşağın hüquqları barədə mə'lumat verməyi;

c) ailədə uşağın vəzifələrinin nədən ibarət olduğunu göstərməyi.

Mə'lumdur ki, insan həyatda heç vaxt tək yaşaya bilməz. Ailə hər bir insana təhlükəsiz, rahat və münasib yaşayış üçün şərait yaradır. Ailəsi olmayan uşaqlara isə dövlət xüsusi qaygı göstərir və onların hərtərəfli inkişafına şərait yaradır.

"Mən nə üçün ailəmizi çox sevirəm?" adlanan məşğələ dairəvi stol arxasında, dialoq şəklində aparılır. Şagirdlər növbə ilə öz fikirlərini söyləyirlər. Nail deyir:

- Onlar mənim qayğımı çəkirlər.

Tərlanə deyir:

- Anam məni dünyaya gətirib, atam da bütün istədiklərimi yerinə yetirir.

Emil deyir:

- Ailəmizdə mən rahat oluram.

Sonra "Mənim ailəm" adlı məşğələyə keçirəm. Hər bir şagird öz ailəsinin tərkibi və qohumları haqqında mə'lumat verir. Bu məşğələdə məqsəd onların ailə qayğılarını

necə anlamalarını aşkara çıxarmaqdır. Mə'lumatdan sonra hərə öz ailəsinin şəklini çəkir. Çəkilmiş şəkillər üzrə müzakirələr aparılır.

Müəllim soruşur:

- Ailəniz kimlərdən ibarətdir? Dərsdən evə qayıdanda sizi kim qarşılayır? Sizin hüquqlarınız evdə tə'min olunurmu? Dərsləri hazırlamaq üçün ayrıca guşə varmı? Dövlət yetim uşaqlara necə qayğı göstərir? Ailənizə necə kömək edirsiniz? Evdə vəzifəniz varmı?

Bu suallar ətrafında hərə öz fikrini yazılı şəkildə bildirir.

Vüsalə yazır:

- Bizim ailəmiz 5 nəfərdən ibarətdir. Atam, anam, bacım, qardaşım və mən. Dərsdən evə gələndə məni anam qarşılayır. Valideynlərim mənə qayğı ilə yanaşırlar. Onlar mənim üçün ayrıca guşə hazırlayıblar. Mən ev tapşırıqlarını orada yerinə yetirirəm.

Bə'zi uşaqlar kimsəsiz olurlar. Yaxşı adamlar onları götürüb saxlayırlar. Dövlət onlara qayğı göstərir. Mən istəyirəm ki, uşağı olmayan ailələr belə uşaqları özlərinə götürsünlər. Mən ev işlərində anama kömək edirəm, kiçik bacı və qardaşıma qayğı göstərirəm. Evdə vəzifəm var: evi səliqəyə salmaq, öz guşəmi təmiz saxlamaq, yemək zamanı süfrəyə gücüm çatan əşyaları qoymaq, sonra süfrəni yığışdırmaq.

İlahə bütün suallara Vüsalənin fikrinə uyğun cavab vermişdi, lakin onların evində olan darısqallıq barədə öz fikrini belə göstərmişdi: "Ailəmiz böyükdür: Nənəm, babam, əmim, atam, anam, bacım, qardaşım və mən. Evimiz üçotaqlıdır. Əvvəl dərslərimi harada yer oldu, orada hazırlayırdım. Hüquqlarımı biləndən sonra evdə fikrimi dedim, sağ olsun, atam çox qayğıkeşdir. O, mənə yatağımın yanında gözəl bir guşə düzəltdi. İndi dərslərimi rahat öyrənə bilirəm".

Bu məşğələdən sonra istirahət məqsədilə "Barama qurdu" oyununu keçirirəm. Şagirdlər bir-birinin ardınca düzülüb, əllərini qarşısındakı yoldaşının çiyninə qoyaraq hərəkət edirlər. Əvvəl hərəkətlər nizamsız olur, sonra get-gedə nizama düşür və harmonik şəkilli hərəkət barama qurdunun yerişinə bənzəyir.

Belə hərəkətlər ailə səmimiyyətinə oxşayır. Ailədə hər kəs öz vəzifəsinin öhdəsindən gələrsə, öz işinə cavabdeh olarsa, gördüyü işi könülli, məs'uliyyətlə görərsə, ailə möhkəm və uğurlu olar.

Məşğələ hər bir şagirdin evdəki vəzifələrindən ibarət bir siyahı tutmaları ilə başa çatır. Dərsin axırında bu siyahılar müzakirə olunur.

Hüquqi məşğələlər "Mən kiməm?" mövzusu ilə başlamalıdır. Bu məşğələdə məqsəd şagirdin öz şəxsiyyətini, mənliyini, şəxsi ləyaqət hissini dərk etməsinə; uşaqların qayğıya, hörmətə, sevgiyə layiq olmalarını və onlarda da başqalarına belə hisslərin formalaşdırılmasına nail olmaqdır.

Qoyduğumuz "Mən kiməm?" sualına şagirdlər müxtəlif səpkili cavablar verirlər.

Emin deyir:

- Mən gələcəyin əsgəriyəm:

Mürsəl deyir:

- Mən vətənimi düşməndən qoruyan qəhrəman olacağam.

Sadiq deyir:

- Mən ikinci sinif şagirdiyəm.

Qüdrət:

- Anam deyir, sən mənim oğul balamsan.

Məşğələdə hər bir şagird adının kim tərəfindən qoyulduğunu, mə'nasının nə olduğunu bildirir. Sonra hərə öz ünvanını deyir. Axırda hər bir şagird ona həyatda vacib və yaxın olan şeylərin adlarını qeyd edir, şəklini öz şəklinə yaxın yerdə qoyur. Bu şəkillər vasitəsilə onu çəkənə nəyin daha çox lazım olduğunu və həyatda ona əziz adamın kim olduğunu müəyyən edirəm.

İnsan hüquqlarının tədrisi məşğələlərində interaktiv tə'lim metodlarından geniş istifadə etmək imkanı var. İnsan hüququ dərslərinə müəllim əvvəlcədən hazırlaşmalıdır (vərəq, şəkil, yapışqan, rəngli karandaş və s.). Sinfə girərkən müəllim məqsədi aydın təsəvvür etməli və həmin istiqamətdə fəaliyyətə başlamalıdır. İbtidai sinif şagirdləri monoton tapşırıqlardan tez yorulurlar. Ona görə də tapşırıqlar tez-tez dəyişdirilməli proqram tələblərindən kənara çıxmadan rəngarənglik yaradılmalıdır.

Dərsə giriş mərhələsində sinfi canlandırır, mövzunun şüurlu mənimsənilməsi üçün şərait yaradıram (5-7 dəq.).

İkinci, əsas hissədə interaktiv metodlarından istifadə etməklə tədris materialını mənimsədir və onlara praktik vərdişlər aşılayıram (30-35 dəq.).

Üçüncü mərhələdə isə dərsi yekunlaşdırmaq məqsədilə didaktik oyunlar keçi-

aparılan musahibə...

rirəm. Didaktik oyun xarakterli məşğələlər materialın şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsinə kömək göstərir. Bu zaman şagirdlərdə yeni mə'nəvi dəyərlərin formalaşması onların davranışlarına müsbət təsir göstərir.

Mə'nəvi məsələlərin müzakirəsi zamanı "Oğurlamaq olmaz" mövzusunu belə açıqlayıram:

- "Niyə oğurlamaq olmaz?"
- Adamı tuta bilərlər.
- Adamı cəzalandırırlar.
- Hamı bizə nifrət edər.

Müəllim:

- Bu cəza ancaq sizəmi aid olur? Başqa insanlara bunun tə'siri yoxmu?

-Valideynlərimiz bizdən inciyib əsəbiləşərlər.

- Onlar elə bilərlər ki, pis valideynlərdir.

- Onlar oğurluğa görə cəzalanarlar.

- Başqaları elə bilərlər ki, oğurluğu bizə valideynlərimiz oyrədiblər.

- Fikirləşərlər ki, valideynlərimiz də oğrudur.

Müəllim:

- Başqa daha kimlər zərər çəkər? Əşyası itən adam hansı hissələri keçirər?

- Mənim pulumu oğurlayanda ağlamışdım.

- Adamın bir şeyi oğurlananda o, özünü pis hiss edir.

Müəllim:

- Siz oğurluq qadağan olunmayan ölkə haqqında fikirləşmisinizmi? Adamlara bu necə tə'sir edir?

- Belə ölkədə yaşamaq qorxuludur. Adamlar çoxlu cinayət edərlər.

İbtidai sinif şagirdləri ilə aparılan belə diskussiyalardan aydın olur ki, şagirdlər onu daha aydın başa düşürlər və onların təsəvvürləri "mən" dən "cəmiyyətə" doğru inkişaf edir.

İbtidai sinif şagirdlərinin təhsili hüquqi demokratik cəmiyyət quruculuğu şəraitində fərdin əsas hüquqlarından biri sayılır. "Təhsil hüququ" mövzusunu tədris edərkən şagirdlərin təhsil hüququna malik olduqları haqqında təsəvvür yaratmağa; onlara intellektual inkişafın vacibliyini göstərməyə; məktəbdəki vəzifələrinin nədən ibarət olduğunu şagirdlərin özlərindən eşitməyə çalışıram.

Başa salıram ki, təhsil almaq, oxumaq ən vacib sayılan uşaq hüquqlarından biridir, çünki oxumaq insanın intellektual tələbatıdır, o, həmişə nə isə öyrənməyə çalışır. Bilikli, bacarıqlı insan cəmiyyətdə özünü inamlı aparır.

Dərsi aşağıdakı suallarla başlayıram:

- Siz məktəbə nə üçün gəlirsiniz? Nə üçün bütün uşaqlar oxumalıdırlar? Oxumaq yalnız peşə seçmək üçünmü lazımdır? Məktəbdən başqa daha harada savad almaq olar?

"Zəruri əşyalar" oyunu ilə məşğələni canlandırıram. Deyirəm: "Gəlin, ətrafımıza nəzər salaq. Oxumaq üçün bizə nələr vacibdir?"

Şagirdlər növbə ilə əşyalarını sayırlar, axırıncı əşyanı deyən qalib olur.

"Bizim məktəbdəki vəzifələrimiz" məşdələsi ilə dərsi davam etdirirəm. Mə'lumat verirəm ki, şagirdlərin təhsil hüquqları dövlət tərəfindən tə'min olunur: məktəblər tikilir, dərsliklər buraxılır, müəllimlərə əmək haqqı verilir və s. Bəs şagirdlərin vəzifələri nədən ibarətdir? - deyə müraciət edirəm və sinfi qruplara bölürəm. Şagirdlərdən məktəblərdəki vəzifələrini yazmağı xahiş edirəm. 10-15 dəqiqədən sonra yazılanlar müzakirə olunur. İzahatdan sonra böyük bir plakatda şagirdlərin məktəbdəki vəzifələrinin siyahısı tutulur:

Bizim vəzifələrimiz: dərsə gecikməmək; səliqəli geyinmək; sinfi təmiz saxlamaq; ev tapşırıqlarını yerinə yetirmək; partaları korlamamaq; özünü yaxşı aparmaq; başqa uşaqları incitməmək; müəllimin tapşırığına əməl etmək və s.

Sonda məşğələni dairəvi stol arxasında söhbət aparmaqla möhkəmləndirirəm. Bu zaman şagirdlər: "Mənim ən çox sevdiyim kitab" "Əgər müəllim olsaydım, nə edərdim?" sualı üzrə dialoqa başlayırlar.

* * *

# TƏ'LİM FƏALİYYƏTİNDƏ MÜQAYİSƏ PRİYOMUNDAN İSTİFADƏNİN BƏ'Zİ MƏSƏLƏLƏRİ

**Zülayə Aslanova,**
psixologiya elmləri namidəzi, dosent
**Cəfər İbrahimov,**
pedaqoji elmlər namizədi, dosent

Kiçikyaşlı məktəbli təfəkkürünün inkişafında müqayisənin bir fikri əməliyyat kimi böyük əhəmiyyəti vardır. Mə'lum olduğu kimi, müqayisənin məqsədi cisim və hadisələr arasında olan oxşar və fərqli cəhətləri fikrən müəyyənləşdirməkdən ibarətdir. Əlamətlərdə oxşarlıq və fərqlərin olması qanunauyğun haldır. Bu duyğuların aşağı və mütləq hədlərində, həmçinin qavrama prosesində nəzərə çarpır, lakin fikri müqayisə nisbətən mürəkkəb proses olub, kiçikyaşlı məktəblilərdə tədricən inkişaf edir. Belə fikri əməliyyatlar çox vaxt konkret cisimlərlə, cisimlər arasında əlaqələrlə bağlı olur. Həmin fikri əməliyyatlarda digər təfəkkür prosesləri təhlil və tərkib, ümumiləşdirmə, konkretləşdirmə, təsnifat da iştirak edir.

Qeyd etmək lazımdır ki, şagirdlərin müqayisə etmək bacarığının xüsusiyyətləri yalnız cisimlərin oxşarlıq dərəcəsindən, onların xarakterindən, tanışlığın səviyyəsindən deyil, həm də müəllimin kiçikyaşlı məktəblilərlə apardığı metodik işin xarakterindən asılıdır. bu iş hər şeydən əvvəl, tə'limin xarakterinə uyğun olaraq, asandan çətinə; sadədən-mürəkkəbə; mə'lumdan məchula, konkretdən mücərrədə əsasında qurulur. Artıq kiçikyaşlı məktəbli yaşının sonunda (III-IV siniflər) sadə müqayisəli anlayışlar, tədricən mürəkkəb anlayışlarla əvəz olunmağa başlayır.

Müəllimlə şagirdlərin birgə tə'lim fəaliyyəti əsasında müqayisə olunacaq obyektlər seçilib, oxşar və fərqli əlamətlərin ardıcıllığı müəyyən edilir. Sonra isə müqayisədən çıxarılan nəticə təhlil olunur. Müqayisə obyektlərini şagirdlərin özləri də müstəqil surətdə müəyyən edərək, həyata keçirə bilərlər. Bu zaman onlar özləri müqayisə edilənləri seçir, iki qoşa obyekti göstərir, oxşar və fərqli cəhətləri müəyyən edirlər. Şagird dünya okeanları haqqında tam bilik əldə etdikdən sonra onları müqayisə edərək oxşar və fərqli cəhətləri müəyyənləşdirir. "Quşlar" haqqında şagirdlər müvafiq bilik əldə etdikdən sonra onları "ev quşları", "köçəri quşlar", "yırtıcı quşlar" və s. qruplara ayırır, oxşar və fərqli cəhətlərini müqayisə edirlər.

Müəllim şagirdlərdə müqayisə bacarığını formalaşdırmaq üçün müqayisənin müvafiq qaydasını izah edir, konkret misallar göstərir. Müqayisə bacarığı formalaşan zaman şagirdlərdə olan səthi biliklər, dərin biliyə doğru inkişaf edir. Ən əsası, şagirdlərin fəallığı və müstəqillik səviyyəsi artır. Fəallıq və müstəqillik öz növbəsində şagirdlərdən iradi sə'y və əqli əməliyyat tələb edir. Müqayisənin böyük idrak əhəmiyyətini nəzərə alaraq K.D.Uşinski göstərirdi ki, əgər siz təbiət hadisələrindən hər hansı birinin adının başa düşülməsini istəyirsinizsə, onu ən oxşar cisimlərdən fərqləndirin və onunla ən uzaq olan cisimlər arasında oxşarlıq tapın, yalnız bu zaman siz cismin bütün əlamətlərini aydınlaşdıra bilərsiniz.

Əlamətlərin müqayisə edilməsi kiçikyaşlı məktəblilərdə əyani (qavranılan) və əyani olmayan (qavranılmayan) xassələrə görə müəyyən edilə bilər. Fikri əməliyyat zamanı şagirdlərin daha çox əyani əlamətləri müqayisə etmələrini necə izah etmək olar?

Obyektlərin qavranılmasından, yaxud təsəvvür edilməsindən asılı olaraq, kiçikyaşlı məktəblilərdə müqayisə müxtəlif cür cərəyan edə bilər. Burada müşahidə edilən obyektlər müqayisə edilərkən şagirdlər ən çox qavranılan əlamətlərə diqqət yetirirlər və ilk növbədə başa düşdükləri oxşar və fərqli əlamətləri ayırd edirlər. Təsəvvür səviyyəsində isə müqayisə kiçikyaşlı məktəblilərdə bir qədər fərqli cərəyan edir. Fikri müqayisədə müşahidəsi mümkün olan oxşar və fərqli cəhətlərlə yanaşı, şagirdlər müşahidə olunmayan daxili əlamətlərə də diqqət yetirirlər.

Müqayisənin məzmunlu və əhatəli olması müqayisə edilən məfhumların mürəkkəblik dərəcəsindən də asılıdır. Əgər konkret məfhumlar (məsələn, iynəyarpaqlı və enliyarpaqlı ağaclar) müqayisə edilirsə, şagirdlər ilk növbədə onların əyani və funksional əlamətlərini göstərirlər. Mücərrəd məfhumları (məsələn, ***xoşbəxtlik*** məfhumunu) müqayisə edərkən müvafiq əlamətləri aşkara çıxarmaqda çətinlik çəkirlər. Onlar mücərrəd məfhumları ayrılıqda izah etməyə meyl göstərirlər.

Hər bir müəllim çalışır ki, keçilən materialı şagirdlərə şüurlu surətdə mənimsətsin. Bu prosesin başlıca şərti isə öyrənilən materialı şagirdlərin anlamalarıdır. N.Kazımovun fikrincə, müqayisə materialın şagirdlər tərəfindən aydın surətdə başa düşülməsinə kömək edir. K.D.Uşinski isə göstərirdi ki, insanın şüurunda hər hansı bir cisim tərəfindən müqayisəedici və fərqləndirici fəaliyyət nə qədər güclü oyadılırsa, bizdə həmin cismin anlaşılması səviyyəsi bir o qədər yüksək olur.

Müqayisə bir tərəfdən təfəkkür prosesi kimi, həm şagirdlərin tə'lim prosesində şüurluluğunun atmasına, həm də əyanilik prinsipinin həyata keçirilməsinə kömək göstərir. Təcrübə göstərir ki, şagirdlərdə təfəkkürün inkişaf səviyyəsi ilə onların təsəvvür və məfhumlarının formalaşması səviyyəsi qarşılıqlı surətdə əlaqədardır. Belə ki, düzgün əqli nəticə çıxarmağı bacaran şagird eyni anlayışları asan qavraya bilir, şüurlu qavranılmış anlayışlar isə öz növbəsində uşağın fikri qabiliyyətinin daha da təkmilləşməsinə səbəb olur.

Kiçikyaşlı məktəblilərdə dərsin başa düşülməsi, yadda saxlanması və yada salınması müəyyən dərəcədə yaddasaxlama zamanı tətbiq edilmiş müqayisənin xarakterindən asılıdır. Müqayisə yalnız oxşarlıqla məhdudlaşdırıldıqda maksimum fayda vermir. Oxşarlıqla fərqin başa düşülməsi yadda saxlamanın müvəffəqiyyətli olmasını tə'min edən şərtlərdən biridir.

Beləliklə, tə'lim prosesində müqayisə böyük əhəmiyyətə malik olub, nəinki şagirdlərin tə'lim prosesində şüurluluğun atmasına, həm də əyanilik prinsipinin həyata keçirilməsinə kömək edir. Y.A.Komenski haqlı olaraq deyirdi: «Kim yaxşı fərqləndirirsə, yaxşı da öyrədir».

Deməli, tə'lim zamanı təbiət və cəmiyyət hadisələrinin müqayisəli şəkildə öyrənilməsinin, onların qanunauyğunluqlarının şüurlu başa düşülməsinin böyük əhəmiyyəti vardır. Müqayisə şagirdlərin qavrayışını, hafizəsini, təfəkkürünü, diqqətini inkişaf etdirir, müşahdəçilik və məntiqi fikir yürütmək kimi qabiliyyətlərin formalaşmasına xidmət edir.

## PSİXİ İNKİŞAFIN LƏNGİMƏSİNƏ DAİR

**Elmira Kərimova,**
TPİ-nin əməkdaşı, həkim nevroloq

Həm normal, həm də anomal uşağın psixi inkişafı eyni qanunlara əsaslanır. İnkişafın anomal olması o deməkdir ki, bu qanunauyğunluq nə vaxtsa pozulub və nəticədə eşitmə, görmə, nitq, hərəkət, emosional, intellektual və s. qüsurlar əmələ gəlib. Ayrı-ayrı kateqoriyalı anomal uşaqların qüsurlarının korreksiya üsulları, tərbiyə və tə'limin şəraiti də ayrı olmalıdır. Lokal defektli və əqli cəhətdən zəif uşaqlar üçün xüsusi məktəbəqədər müəssisələr, məktəblər olduğu halda, psixi inkişafda geri qalan uşaqlar üçün belə müəssisələr nəzərdə tutulmayıb.

İndinin özündə ağır sosial-iqtisadi şəraitlə və təhsil islahatı ilə bağlı olaraq uşaqlarda psixi inkişafın ləngiməsinin erkən aşkar olunması və differensial diaqnostikanın aparılması çox vacibdir.

Psixi inkişafın ləngiməsi çox mürəkkəb problemdir, onu əmələ gətirən səbəblər, simptomlar müxtəlifdir və məhz ona görə, o, kompleks öyrənilməlidir. Psixi inkişafı ləngiyən uşaqlar öz normal həmyaşıdlarından baş beyninin bə'zi strukturlarının ləng yetişməsi, işgüzarlığın aşağı və diqqətin qeyri-sabit olması, təhlil-tərkib və ümumiləşdirmə proseslərinin pozulması və digər cəhətlərə görə fərqlənirlər. Çox vaxt belə uşaqlarda nitq nöqsanları, lüğət ehtiyatlarının kasıblığı, emosional-iradə sferasının pozulması aşkar olunur, lakin vaxtında diaqnoz tə'yin edilərsə, ixtisaslaşdırılmış korreksiya aparılarsa, belə nöqsanlar aradan qaldırıla bilər.

Əqli zəifliyin və psixi inkişafın ləngiməsinin differensial diaqnostikasının bə'zi məsələlərinin araşdırılmasına baxmayaraq, bu ləngimə əgər məktəbəqədər dövrdə müəyyən edilmirsə, onda kütləvi məktəblərdə oxuyurlar, belə uşaqlar tədris proqramlarının tələblərini ödəyə bilmir, formal olaraq sinifdən-sinfə keçirilirlər. Belə uşaqların pis oxumalarının bir səbəbi görmə funksiyasının inkişafdan geri qalmasıdır. Vaxt baxımından görmənin inkişafı ümumi psixi inkişafla üst-üstə düşür. Ona görə də ümumi psixi inkişafın göstəriciləri görmə funksiyasının nə qədər inkişaf etdiyindən və əksinə,

görmə inkişafının göstəriciləri ümumi psixi inkişafdan xəbər verir. Çox vaxt I sinfə gedən uşaqlarda görmə analizi və sintezi 4 və ya 5 yaşlı uşağa xas olan vəziyyətdə olur, yə'ni 2 və ya 3 illik geridəqalma müşahidə olunur. Kəmiyyətdən fərqli olaraq, keyfiyyətcə bu, mühüm amildir, çünki iki-üç illik görmə inkişafının geridə qalması 12 yaşlı uşağa nisbətən 7 yaşlı uşaqda daha ağır nəticəyə gətirir. Bu cür geriliklə məktəbə gələn uşaqlar proqram üzrə ayrılmış vaxtda yazıb-oxumağı öyrənə bilmirlər, hərflərin və rəqəmlərin mahiyyətini simvol kimi başa düşsələr də, onları yazıda düzgün işlədə bilmirlər, yazılışına görə oxşar hərfləri səhv salırlar. Bundan başqa, görmə analizi və sintezi zəif olan uşaqlar çox asta oxuyur, tez yorulurlar.

Məktəbə gələn bu cür uşağın həm də hərəkət sahəsi yaşına uyğun inkişaf etməlidir. Bə'zi müəlliflər yazırlar ki, dərslərində geri qalan uşaqların 23-25 faizini məhz hərəkət inkişafından geri qalan uşaqlar təşkil edir. Əsasən xırda motorikanın pozulması nəticəsində uşaqların hərəkətləri ya düzgün, amma asta, ya da cəld, amma qeyri-dəqiq olur. Bu, ilk növbədə uşağın xəttinə tə'sir göstərir: uşaq birinci gündən balaca dairə və s. xırda şəkilləri çəkə bilmir, sonradan isə hərfləri və sətirləri düzgün yazmır; imla və yoxlama işlərində çoxlu səhvə yol verir; onları ayrılan vaxtda yazıb çatdıra bilmir.

Psixi inkişafı ləngiyən uşaqların nitqinin də öz xüsusiyyətləri var. Onlarda lüğət ehtiyatı o qədər də zəngin olmur, qrammatik cəhətdən nitqləri daha bəsit olur. Belə nitq uşağı məişətdə tə'min edirsə də, məktəbdə problemlərlə qarşılaşmasına səbəb olur. Oxunu və yazmanı mənimsəmək üçün hələ məktəbəqədər dövrdə uşaqda sadə praktik dil ümumiləşdirmələri yaratmaq lazımdır. Belə uşaqların diqqəti çox dağınıq və qeyri-sabit olur, kənar qıcıqlandırıcılar onların qavramalarına mənfi tə'sir göstərir, yə'ni onlar fikirlərini cəmləşdirə bilmir, verilən informasiyanı bütövlükdə mənimsəmir, əşyaların və təzahürlərin təkcə gözə çarpan cəhətlərini nəzərə alırlar.

Qeyri-iradi yaddaşın zəif olmasının bir neçə səbəbi var, ən əsası isə təfəkkür proseslərinin fəallığının aşağı olmasıdır. Bu, təqlidetmə zamanı özünü göstərir: uşaq müəyyən mə'lumatı verəndə, bə'zi şeyləri deyir, qalan mə'lumatı yada salmağa heç bir cəhd göstərmir.

İradi yaddaş qeyri-dəqiq, həcmcə az olur; mətnin nöqtəbənöqtə təqlid edilməsi bu uşaqlar üçün çətin bir məsələyə çevrilir.

Psixi inkişafın ləngiməsi olan uşaqlara əsəbi proseslərin dinamikasının pozulması xasdır. Bu, əsasən əsəb sisteminin həddindən artıq yüklənməsi ilə izah olunur. Bu, nəticədə oxumağa həvəsin və motivasiyanın itməsinə, dərs buraxmaya və xarakterin patoloji dəyişməsinə, yə'ni yoldaşlara və müəllimlərə qarşı aqressivliyə, yalançılığa, cəmiyyətdə qəbul olunmayan hərəkətlərə gətirib çıxarır. Kliniki baxımdan belə uşaqlarda nevrozlar şəxsiyyətin psixopatizasiyası, neqativizm, emosional labillik və s. kimi təfəkkür prosesinə və bütövlükdə məktəb fəaliyyətinə mənfi tə'sir göstərən simptomlar müşahidə edilir. Qeyd etmək lazımdır ki, çox vaxt müəllimlər belə uşaqların çətinliklərinə qeyri-adekvat yanaşırlar, halbuki müəllimin uşağa olan diqqəti həm patogen, həm də korreksiyaedici ola bilər. Belə bir vəziyyəti araşdıraq.

Psixi inkişafı ləngiyən uşaq kütləvi məktəbin I sinfinə gəlir və ilk gündən öz vəziyyətinin ucbatından travmatik stressə düşür, pis oxuyur. Uşaq isə bu vəziyyətdən çıxmaq üçün xoşagəlməz yollara əl atır: sinifdə özünü pis aparır, dərs zamanı gəzir, o biri uşaqlara və müəllimə mane olur, öz istədiyinə çatır. Artıq müəllimin neqativ diqqəti təkcə bu uşağa yönəlir, yə'ni bu yolla uşaq diqqətsizliyi kompensasiya edir. Bu halda psixoloji korreksiya iki şərtdən ibarətdir:1. Belə uşaqlar üçün xüsusi, onların real bacarıqlarının və qabiliyyətlərini nəzərə alan proqramlar tərtib olunmalıdır.

2. Müəllimə məsləhət görülməlidir ki, uşağın pis hərəkətlərinə fikir verməsin və lap azacıq nailiyyətlərinə görə onu tə'rifləsin.

Nəticədə uşaq xroniki müvəffəqiyyətsizlik situasiyasından çıxır.

Qeyri-adekvat reaksiya valideynlər tərəfindən də ola bilər və çox paradoksal odur ki, valideynlərin intellektual səviyyəsi nə qədər yüksəkdirsə, bir o qədər də onlar uşaqların pis oxumalarına dözümsüz olurlar, onun vəziyyətini nəzərə almayaraq, tələblərini daha da artırırlar. Bunun nəticəsində uşaq şəxsiyyətinin strukturu pozulur, çətinliklər daha da artır və dərinləşir. Belə valideynlərə də həmin psixoloji korreksiya yollarını təklif etmək olar.

Çox vaxt uşaq həkimə korreksiya üçün əlverişli vaxt və imkanlar itiriləndə gətirilir. Bu olmasın deyə, birinci növbədə valideynləri maarifləndirmək lazımdır. Psixoloji çətinkilər, emosional sıxıntılar, davranış pozulmaları uşaqlarda psixi inkişafın ayrılmaz hissəsi olur. Bə'zi uşaqlarda belə hallar kobud şəkildə üzə çıxırsa, valideynlər narahat olmalı, uşağı tə'cili həkimə gətirməlidirlər. İkincisi, psixi inkişafın ləngiməsi psixi inkişafın digər pozulmalarından ayrılmalıdır. Psixi inkişafın ləngiməsi erkən məktəbəqədər dövrdə differensial yanaşmanı və öyrənməni tələb edir. Əqli zəif uşaqlar üçün xüsusiləşdirilmiş bağçanın bazasında ayrı

edir. Bu eşitmə qalıqlarının aşkar edilmsəi böyük əhəmiyyətə malikdir. O, aydın danışan uşaqlara məxsus məktəblərdə oxumaq üçün şagirdləri seçməyə imkan verir.

Lal-karlığın diaqnostikası yalnız çox körpə uşaqlarda çətindir. Lal-kar uşağın eşitmə analizatorunun müayinəsi xeyli mürəkkəb olub, bacarıq və hövsələ, uşaqlara müvafiq surətdə yanaşma tələb edir. Uşağın hər bir inkişaf dövründə eşitmə və müvazinət analizatorunun müayinəsi xüsusi xarakterə malikdir.

Ümumiyyətlə, kiçikyaşlı uşaqlarda eşitməni müəyyən etmək istədikdə zınqırovun, kamertonun, metal cismə çəkic zərbəsinin, audiometrin səslənməsindən istifadə olunur.

Mə'lumdur ki, eşidən uşaq öz hərəkətlərini dayandırmaqla özünün «eşitmə diqqətini» büruzə verir. Diqqətli ana-atadan bu barədə mə'lumat almaq olar. Böyük uşaqlarda lal-karlığın diaqnostikası xarakterik hecalarla danışıq, tipik mimika və eşitmənin müayinəsindən, adətən, qışqırıqla, ayrı-ayrı saitlərin, hecaların, sözlərin tələffüzündən alınan nəticələr, komertonlar və audiometrlə müayinə zamanı asan olur. Lal-kar uşaqlar yeriyərkən, adətən, ayaqlarını yerə sürtürlər.

Ölkəmizdə lal-kar uşaqların təhsilinə və tərbiyəsinə böyük diqqət yetirilir. Onlar üçün xüsusi uşaq bağçaları, əlahiddə məktəblər açılmış, surdoloq həkimlərin və müəllimlərin köməyi ilə tə'min olunmuşlar. Hazırkı surdopedaqogika öz nəzəri və praktik işlərilə, mimika və daktilologiya kimi yardımçı tə'lim üsullarından istifadə edərək lal-kar uşaqlarda danışığı və eşitməni inkişaf etdirmək işində böyük müvəffəqiyyətlər qazanmışdır.

Lal-kar uşaqlarla ünsiyyət vasitəsi də diqqət mərkəzinə qoyulmalı xüsusi problemdir. Uşaqlar dil vasitəsilə bir-biri ilə ünsiyyətdə olur, fikir mübadiləsi aparır, bir sözlə, ümumi dil tapırlar. Karlıq və karlığın nəticəsi olan lal-karlığın gələcəkdə patoloji tə'sirini göstərsə də, insanların cəmiyyətdən, ətraf mühitdən uzaqlaşmaları demək deyil. Belə xəstə adamlarda eşitmə və danışıq qabiliyyəti olmadığından və ya ilk dəfə az olduğundan görmə, hissetmə, duyma və s. qabiliyyətləri danışan və eşidən adamlara nisbətən daha güclüdür.

Lal-karlar bir-biri ilə daim ünsiyyətdə olmaq tələbini hiss edirlər, lakin eşitmə analizatorunun pozulmasına görə spesifik şərti əlaqəyə girmək zəmini yaranır. Bunun nəticəsində jestlər və mimikalar əmələ gəlir. Jest və mimika sisteminə əsasən lal-karlar xüsusi tə'lim almasa belə, təbii yolla ünsiyyət nəticəsində müəyyən dərəcədə inkişaf edirlər. Danışıq dilini başa düşməyən lal-karlar üçün mimiki nitq yeganə ünsiyyət vasitəsidir. Bu vasitə ilə onlar fikir mübadiləsi edir və bir-birilərini başa düşürlər. Mimika belə karlar üçün dilin iki funksiyasını (ünsiyyətdə olmaq, fikrin inkişafı) ifa edir.

Beləliklə, jest və mimika nitqi, danışıq nitqindən istifadə etməyi bacarmayan karlar üçün spesifik (şərti) dildir.

Mimikanın mövcud olması şərti müsbət cəhətləri ilə fərqlənir ki, bu da 4 cəhətdə özünü büruzə verir:

1) xüsusi tə'lim olmadan mimikanın mənimsənilməsi;

2) mimikanın obrazlılığı (bu, onun tez yadda qalmasına kömək edir);

3) mimikanın əsas komponentinin asan mənimsənilməsi;

4) jestin sür'əti nəticəsində karın görmə qabiliyyətinin yorulmaması.

Hər bir lal-kar adam öz danışıq dilindən düzgün istifadə etməyi bacarırsa, deməк o, ətraf mühitlə əlaqə saxlaya biləcək və mühiti əhatə edən insanlarla birbaşa ünsiyyətdə olacaqdır. Danışıq dili karlar qarşısında elə bir imkan yaradır ki, o, ətraf mühiti hər zaman anlaya bilir.

Lal-kar adam danışıq dilini yazılı və şifahi formada öyrənərkən onun özünəməxsus orması hesab edilən daktilologiya ilə bilavasitə tanış olur. Deməli, danışıq dilinin şifahi və yazılı forması ilə yanaşı, lal-kar uşaq mimika və daktilologiyanı öyrənərsə, tərbiyəçi və müəllimlərin işi asan olar.

Bu dili bilmədən lal-kar uşaqlar üçün xüsusi bağsında və ya məktəbdə müəllim və tərbiyəçi vəzifəsində işləmək çətindir.

* * *

# GÜNƏŞ ŞÜALARININ UŞAQ ORQANİZMİNƏ TƏ'SİRİ

**Zöhrə İsmayılova,**
**Nəzakət Novruzova,**
ARTPİ-nin yaş fiziologiya və gigiyena problemləri laboratoriyasının elmi işçiləri

Böyüməkdə olan uşaq və yeniyetmə orqanizmi xarici mühitin daim dəyişən təsirinə daha həssas olur. Xarici mühitin müxtəlif dəyişiklikləri orqanizmin fizioloji funksiyalarının pozğunluğunu törədir və hemostazın (daxili mühitin) sabitliyinin tə'min olunması məsələsini qarşıya qoyur. Kiçik yaşlarda maddələr mübadiləsinin intensivliyi, dərinin güclü kapilyar şəbəkəsi ilə təchizi və zərifliyi, mütləq dəri səthinin (hər kq çəkiyə düşən dəri səthi) çox olması, istiliyin xarici mühitə çox verilməsi, termorequlyasiya mərkəzinin funksional qeyri-hazırlığı və s. göstəricilər uşaq orqanizminin soyuq hava şəraitində daha tez soyumasına, yüksək hava şəraitində isə daha tez qızmasına şərait yaradır.

Uşaqlar arasında bir çox xəstəliklərin baş verməsində bədənin soyuması az rol oynamır. Bura yuxarı tənəffüs yollarının xəstəlikləri, ağ ciyərin iltihabı, nefrit, revmatizm və s. xəstəliklər daxildir. Soyuma bir amil kimi orqanizmin müqavimətini aşağı salır. Ona görə də orqanizmin soyuğa qarşı möhkəmləndirilməsi əsasdır. Bunun üçün ən münasib vaxt ilin isti aylarıdır.

Günəş yer kürəsində enerji, istilik və işıq mənbəyidir. Günəş enerjisi yer səthini qızdırır, suyu buxarlandırır.

Günəş şüasının insan orqanizmi üçün fizioloji rolu böyükdür. Günəş enerjisi orqanizmə ümumi tonuslandırıcı və möhkəmləndirici tə'sir göstərir, xəstəliklərə qarşı bədənin müqavimətini artırır, böyümə və inkişafına şərait yaradaraq, mübadilə prosesini fəallaşdırır.

Şüa enerjisinin tə'siri altında orqanizmdə baş verən bioloji reaksiyalar düşən şüaların səviyyəsindən asılıdır.

Günəş spektrinin tərkibinə daxil olan ultrabənövşəyi şüaların bioloji fəallığı daha yüksəkdir. Ultrabənövşəyi şüalar uzun (390-320 nm), orta (320-290 nm) və qısa (290 nm-dan aşağı) dalğalı şüalara bölünür. Qısa dalğalı şüalar 18-40 km hündürlükdə atmosferin azon qatı tərəfindən tutulub saxlanılır, yer səthinə çatmır. Orta dalğalı şüaların eritem (qızartı) əmələ gətirmə qabiliyyəti daha yüksəkdir.

Ultrabənövşəyi şüalar ancaq dərinin üst qatları tərəfindən udulur, bu zaman dəridə ilkin fotokimyəvi proses baş verir, dəridə yerləşən sinir ucları qıcıqlanır və sinir sisteminə reflektor tə'sir göstərir. Ultrabənövşəyi şüalar uşağın dərisində olan D provitaminini qeyri-fəal vəziyyətdən fəal vəziyyətə keçirərək sümükləşmənin normal getməsini tə'min edir, raxitin profilaktikasında mühüm rol oynayır.

Dəridə ultrabənövşəyi şüaların tə'sirindən qaralmanın meydana çıxmasına səbəb melanin piqmentinin əmələ gəlməsidir. Dərinin qaralması orqanizmin reaktivlik göstəricilərindən biridir. Ultrabənövşəyi şüalar təbii immuniteti artırır, mübadilə prosesini (zülal, yağ, karbohidrat) xeyli dəyişir, toxumalarda əsas mübadilə və oksidləşmə prosesləri sür'ətlənir, mineral mübadilə dəyişir, kapilyar keçiriciliyi artır, istilik tənzimi yaxşılaşır. Şüalanmaya mə'ruz qalmış uşaqlar arasında ümumi xəstələnmə, xüsusən yuxarı tənəffüs yollarının iltihabı, angina və xroniki tonzilitin, raxitin başvermə halları azalır, həmçinin ümumi vəziyyət, yuxu, iştaha yaxşılaşır.

Yay mövsümündə çayda, göldə və dənizdə çimmə zamanı uşaqlar təbii amillərin tə'sirinə mə'ruz qalırlar, bu zaman su və temperatur amillərinin tə'siri mexaniki və digər amillərlə (böyük su kütləsinin təzyiqi, ləpələrin, külək və günəşin tə'siri) uyğunlaşır. Dənizdə çimərkən kimyəvi maddələrin tə'siri də baş verir. Duz hissəcikləri dəriyə çökərək sinir uclarını qıcıqlandırıb sinir sisteminə tonuslaşdırıcı tə'sir göstərir və bütün orqanizmin tonusunu qaldırır.

Çimərkən uşağın hərəkəti də müəyyən əhəmiyyət kəsb edir. Məktəbəqədər yaşlı uşaqlar temperaturu 20-22°, məktəb yaşlı uşaqlar isə 20-18°-dən aşağı olmayan suda çimə bilərlər. Başlanğıcda çimmənin davametmə müddəti 3-5 dəqiqə, axırda isə 10-15 dəqiqə olmalıdır. Çimməyə gündə 1-2 dəfə yol verilə bilər.

qrupların açılması məqsədəuyğun olardı və bu məsələni həll etməyə kömək edərdi.

Məktəbdə isə belə uşaqların tə'limini xüsusi təşkil etmək lazımdır. Xüsusi korreksiya işində əsas yeri onların ətraf mühitə aid biliklərini artırmaq, təhliledici müşahidəni inkişaf etdirmək, əşyalar və təzahürlər arasındakı qarşılıqlı əlaqələri və tə'siri başa salmaq, bununla onların təfəkkür fəaliyyətini fəallaşdırmaq, nitqini inkişaf etdirmək və s. olar.

Tədris proqramının mürəkkəb bölmələrini öyrənmək üçün belə uşaqlar əvvəlcədən hazırlanmalıdırlar. Qeyd etmək lazımdır ki, çox vaxt bu uşaqlar intellektual məsələləri öz normal həmyaşıdları kimi həll edə bilir, amma tez yorulurlar. Nəticədə işgüzarlıq aşağı düşür, diqqət yayınır, çox səhvə yol verir, əsəbiləşirlər. Uşağı bu vəziyyətdən çıxarmaq üçün müəllim fəaliyyət növünü dəyişib, uşağın diqqətini, praktik fəaliyyətə yönəltməlidir. Müəllim və məktəb psixoloqu belə uşaqlar kömək etmək üçün həmrə'y işləməli, vaxtında tibbi diaqnostika və müalicə təşkil etməlidirlər. Psixi inkişafın ləngiməsi bizim respublikada lazımınca öyrənilməyib, amma bu o demək deyil ki, həmin problem bizdə yoxdur.

Psixi inkişafı ləngiyən uşaqlara vaxtında kömək göstərilməsi onlar üçün həyati zərurətdir.

## LAL – KAR UŞAQLAR VƏ ONLARLA ÜNSİYYƏT

**Ofelya Şahsuvarova,**
Eşitmə Qabiliyyəti Pozulmuş Uşaqlar Üçün Respublika İxtisaslaşdırılmış Xüsusi Körpələr Evi-Uşaq Bağçasının surdopedaqoq müəllimi

İnsan eşitmə üzvü vasitəsilə onu əhatə edən aləmlə ünsiyyətə girir və onu dərk edir. Danışıqda onun rolu böyükdür. Korluq kimi eşitmə qabiliyyətinin itirilməsi də böyük ictimai bəla olub, insanın danışığını çətinləşdirir və ya tamamilə qeyri-mümkün edir. Uşaq yalnız ətrafdakıları dinləmək və onları təqlid etməklə danışmağı öyrənir; kar doğulan, yaxud körpə ikən eşitmək qabiliyyətini itirən uşaq lal-kar olur. Həmin xəstəyilin səbəbi də elə bundan irəli gəlir: lal-karlıq elə patoloji haldır ki, bu zaman adi yolla danışmağı öyrənməyi qeyri-mümkün edən anadangəlmə və ya qazanılma karlıq olur. Xəstə danışmağı öyrənmiş olduqda isə o, tədricən unudulur. Karlıq 5-7 yaşından sonra əmələ gəldikdə isə danışıq qabiliyyəti daha itirilmir. Deyilənlərə əsasən güman etmək olar ki lal-karlıq zamanı üzvi dəyişiklikləri yalnız eşitmə üzvündə axtarmaq lazımdır.

Anadangəlmə və qazanılma lal-karlıq ayırd olunur. Hər bir ayrıca təsadüflə lal-karlığın xarakteri haqqında mə'lumatı kar uşaqların valideynlərindən alırıq, lakin bu mə'lumat bə'zən düzgün olmur. Təcrübədə gördüyümüzdən mə'lum olur ki, anadangəlmə lal-karlığın miqdarı qazanılmış lal-karlıqdan xeyli azdır.

Anadangəlmə lal-karlığın sayca üstünlüyü bətndaxili həyatdakına nisbətən adi həyatda zərərli təsir göstərərək karlıq törədən amillərin daha çox olması ilə izah olunur. Anadangəlmə lal-karlığa nisbətən qazanılma lal-karlıq eşitmə üzərində daha dərin dəyişikliklər verir.

Anadangəlmə karlıq zamanı aşağıdakılar böyük rol oynayır:

1) xəstəlik və hamiləlik zamanı anada travma olması (infeksiya və ya virusla törədilən xəstəliklər);

2) dölə xəsarət yetirən və onun eşitmə aparatına zərərli tə'sir göstərən toksik amillər (dərman maddələri, isitmə zamanı, abort məqsədilə böyük dozalarla qəbul edilən xinin və s.);

3) ana ilə uşaq arasında virus amilinə görə uyuşmazlıq və s.

Qazanılma lal-karlığın səbəbləri infeksion xəstəliklər, travma (doğuş və ya məişət travması) sayılır.

Minengit xəstəliyi zamanı yaranan lal-karlıq, adətən, dəyişikliksiz qalır. Qızılca, skarlatina xəstəliyi keçirən uşaqlarda lal-karlıq zamanı qulaqda irinli ifrazat tapılır.

Eşitmənin müayinəsi tam karlığı və ya eşitmənin qalıqlarını göstərir. Bu qalıqlar bə'zən ayrı-ayrı səsləri, ayrı-ayrı hecaları, bə'zən tanış sözləri və ya qısa cümlələri ayırd

Çimərkən müəyyən qaydalar gözlənilməlidir:

1. tərli və bədəni soyumuş uşaqların çimmələrinə icazə verilmir;

2. acqarına və qida qəbulundan 1,5-2 saat tez olmayaraq çimməməli;

3. çimdikdən sonra günəş vannasının qəbul edilməsinə heç cür yol verilməməlidir.

Sağlamlaşdırıcı məqsədlə mövsümdə hava və günəş vannalarından geniş istifadə olunmalıdır.

Hava-günəş vannaları qəbul edərkən uşağın bilavasitə çılpaq bədəninə meteroloji amillər (havanın temperaturu, onun rütubəti və hərəkət sür'əti, həmçinin dağılmış və əks olunmuş günəş radiasiyası) kompleks halında tə'sir edir. Günəş vannalarına nisbətən bu zaman düz düşən şüaların tə'siri yoxdur. Hava-günəş vannalarından istifadə edərkən, adətən, havanın temperaturu 20-22° olarkən başlamalı, bu zaman bədən səthi tədricən açılır: əvvəl yuxarı ətraflar, ayaqlar, sonra gövdə. Birinci vannanın davametmə müddəti 3 dəqiqə, sonralar gündə 3 dəqiqə əlavə etməklə hava vannalarının sürəkliliyi 90 dəqiqəyə çatdırılmalıdır. Hava vannaları qəbul etmək üçün ən münasib vaxt saat 9-dan 10-a qədər, ən münasib şərait isə aşağıdakı sayılır. Barometrik təzyiq 760 mm civə sütunu, nisbi rütubət -55-60% , yerdən 1, 5° m hündürlükdə hava hərəkətinin sür'əti -0,5-0,6 m/ san və havanın temperaturu 20° S.

Günəş vannaları qəbul etmək üçün ən münasib vaxt saat 8-dən 10-a qədərdir. Bu zaman günəş radiasiyasının ultrabənövşəyi spektrinin intensivliyi öz maksimum hüduduna çatır. Günəş vannalarını acqarına qəbul etmək olmaz, yeməkdən 1-1,5 saat sonrakı vaxt ən münasib sayılır. Günəş vannaları qəbul edərkən uşaqlara az miqdarda qaynanmış su vermək lazımdır. Günəş vannalarından əvvəl 5-7 gün ərzində davametmə müddəti 10 dəqiqədən 40 dəqiqəyə qədər olan hava günəş vannalarının qəbul edilməsi məsləhət olunur. Birinci günlər günəş vannalarının sürəkliliyi 5-6 dəqiqədən çox olmamalıdır. Sonralar uşaqlarda qaralma əmələ gəldikcə onların açıq günəş şüaları altında qalma vaxtını 10-15 dəqiqəyə qədər artırmaq olar. Günəş vannalarından sonra su əməliyyatları: su axıtma, duş, çimmək məsləhət görülür. Bundan sonra uşaqlar yaşşxıca qurulanmalı, geyinməli və səringahda 30-40 dəqiqə dincəlməlidirlər.

Günəş vannalarını düzgün qəbul etmədikdə orqanizmdə xoşagəlməz pozğunluqlar baş verir. Bu zaman günəş şüaları spektrinin tərkibinə daxil olan infraqırmızı şüaların təbii şəraitdə zərərli tə'sirindən günvurma baş verir, uşaqlarda başağrısı, başgicəllənmə, öyümə, qusma, temperaturun qalxması və s. kimi ümumi xəstəlik əlamətləri olur. İnfraqırmızı şüalar dəridə yerli reaksiya törədir: əmələ gələn eritema ultrabənövşəyi şüalanma zamanı əmələ gələn eritemadan fərqli olaraq kənarları qeyri-bərabər, girintili-çıxıntılı olur: şüalanmadan sonra dərhal yaranır, inkubasiya dövrü (ultrabənövşəyi şüalanmada 1-3 saat olur) olmur, qaralmaya keçmir, çox hallarda yanıq törədir. Ona görə də düz düşən günəş şüalarından istifadə qət'i qadağandır.

Yay aylarında uşaqların ayaqyalın gəzmələri də məsləhətdir. Bu, uşaqlar arasında geniş yayılmış yastıayaqlığın profilaktikasında əsas rol oynayır.

Beləliklə, uşaq və yeniyetmələrin yay mövsümündə təbii amillərdən düzgün və vaxtında istifadə etməsi onlar arasında yayılan bir çox xəstəliklərin profilaktikasında mühüm rol oynayır və orqanizmin müqavimətini artırır.

* * *

***Sizin kitab rəfiniz***

## TƏHSİLDƏ PSİXOLOJİ XİDMƏTƏ HƏSR OLUNMUŞ KİTAB

L.Bağırovanın yeni nəşr olunmuş «Məktəbə hazırlığın psixodiaqnostikası» kitabı onun elmi axtarışlarının nəticəsidir. Əsərdə müəllif regional xüsusiyyətləri, praktik psixoloqların elmi-təcrübi hazırlıq səviyyələrini nəzərə almışdır.

I fəsildə məktəbə qəbul ərəfəsində uşaqların psixo-fizioloji, psixo-sosial inikşaf xüsusiyyətlərinin şərh edilir. Onların antrofometrik göstəriciləri, somotik quruluşu, əsəb sistemi, psixikanın yaş göstəriciləri, intellekti, fəaliyyəti, şəxsiyyəti haqqında elmi təhlil aparılır.

II fəsildə psixodiaqnostikanın metodları, məzmunu, vəzifələri, prinsipləri və təsnifatı verilir. III fəsildə uşaqların məktəbə qəbulunun psixodiaqnostikası ilə məşqul olan mütəxəssislər üçün praktik əhəmiyyət kəsb edən məsələlərdən bəhs olunur. IV fəsildə psixodiaqnostik nümunələr verilir. Bu nümunələr beşyaşlı və altıyaşlı uşaqların psixofizioloji inkişafını, idrak proseslərinin yaş səviyyəsini, ətraf aləm haqqındakı təsəvvürlərini, məntiqi mühakimə qabiliyyətini, iradi iş bacarığını, əyani modelləşdirmə, məkana səmtləşmə imkanlarını diaqnozlaşdırmağa imkan verir.

Kitab məktəb psixoloqları, sinif müəllimləri, həmçinin məktəbəqədər tərbiyə müəssisələrinin işçiləri üçün nəzərdə tutulmuşdur.

# DİDAKTİK OYUNLAR

**Mələk Dadaşova,**
ARTPİ – nin dissertantı

Uşağın əqli qabiliyyət və bacarığının, idrak fəaliyyətinin inkişaf etdirilməsi didaktik oyunların düzgün təşkil edilməsindən də asılıdır. Uşağın tə'lim materiallarını müasir tələblər səviyəsində mənimsəməsində didaktik oyunların rolu böyükdür.

Didaktik oyunların yaradıcısı-tərbiyəçi pedaqoqdur. Oyunun maraqlı və mə'nalı aparılması onun iradəsindən asılıdır.

Didaktik oyunlar tə'lim forması kimi məşğələlərdən onunla fərqlənir ki, uşaq tə'lim zamanı verilən tapşırıqların həlli zamanı birbaşa özü ilə tək qalır, həlli yollarını axtarır, oyunda isə o, oyunun təşkilatçısına çevrilir, yoldaşları ilə birlikdə oyunun gedişiylə tanış olur. Əqli, potensial qüvvəsi güclü, qabiliyyətli uşaqlar zəif yoldaşlarına kömək edir, onları da öz səviyyələrinə çatdırmağa çalışırlar. Ağıllı uşaqlar nisbətən zəif uşaqlara kömək edir, bu prosesdə öz bildiklərini də möhkəmləndirirlər.

Uzun illərdir ki, oyunlar nəzəriyyə və təcrübədə tə'lim priyomlarından biri kimi məşğələlərin tərkibinə daxil edilir. Didaktik oyunlar güclü zehni gərginlik tələb edən tə'lim priyomudur.

Didaktik oyunların gedişi xarakter e'tibarilə mürəkkəb proses sayılır, çünki bu tə'lim və tərbiyənin bütün sahələrini (həm əqli, həm fiziki, həm estetik tərbiyənin, həm əmək, həm əxlaq tərbiyəsinin inkişaf prosesini) özünə birləşdirir. Didaktik oyun həm tə'limdir, həm də oyun. Bu, tərbiyəçi ilə uşaq, həm də uşaqların öz aralarında gedən xüsusi münasibət tərzidir. Tə'lim prosesində məşğələ aparılarkən tərbiyəçi və uşaq münasibətləri qısa və qapalı tərzdə gedir; tərbiyəçi öyrədir, uşaqlar isə öyrənirlər. Didaktik oyunlar təşkil olunarkən münasibət formaları dəyişir-tərbiyəçi uşaqlarla birlikdə həm oyunun iştirakçısı, həm təşkilatçısı həm də ona rəhbərlik edən olur. O, uşaqlara oyunun qaydalarını başa salır, onlardan nizam-intizamı gözləmək rəqib oyunçuya hörmət etməyi tələb edir. Özünə və ətrafındakılara rəğbət və ehtiram tərbiyələndirir.

Oyunun gedişindən doğan maraq və emosional gərginliklər uşaqları və tərbiyəçini bir-birinə daha da yaxınlaşdırır, səmimi münasibətlərin yaranmasını tə'min edir. Bu zaman tərbiyəçinin iste'dad və bacarığının, məharət və qabiliyyətinin necə yüksək səviyyədə olması özünü onda göstərir ki, o uşağın əqli fəaliyyətini oyunun məzmün və xarakterinə uyğun inkişaf etdirərək onu tə'lim formasına çevririr.

Bu prosesdə uşaqların lüğət ehtiyatı zənginləşir, leksikonlarına yeni sözlər daxil edilir.

Oyunun qaydaları pozulduqda, fəaliyyət dayanır. O, bə'zən məşğələyə uyğun tə'lim forması, bə'zən isə hərəkətli oyun fəaliyyəti formasını alır.

Didaktik oyunlar dəqiqlik tələb edir. Uşaqlar üçün oyunun məqsədi proqramın tərkibinə daxil olan didaktik tapşırıq istiqamətində müəyyənləşdirilir. Oyun zamanı aparılan fəaliyyət prosesi ilə tənzimlənən nəticə oyunun yekunu hesab olunur.

Uşaqlar oynayarkən yeni mə'lumatlara yiyələnir, əvvəllər öyrəndiklərindən yeri gəldikcə istifadə edirlər. Təkrar bacarıq və vərdişlərin möhkəm formalaşmasına gətirib çıxırır.

Uşaqlarda sensor tərbiyənin inkişaf etdirilməsində didaktik oyunların mühüm yeri var. Didaktik oyuncaqlarla oynayarkən uşaqların dünyagörüşü formalaşır. Onlar əşyaların bir sıra xüsusiyyət və keyfiyyətlərini, yə'ni ölçüsünü, rəngini, səsini, hansı məkanda yerləşməsini və səthini fərqləndirməyi öyrənirlər.

Y.İ.Tixeyeva sensor tərbiyəni məktəbəqədər pedaqogikanın mühüm tə'lim sahəsi sayırdı, çünki uşaq tərəfindən qəbul olunan hər bir sensor təsəvvür çoxlu sayda analizatorların iştirakı ilə qazanılır, çox dəqiq və parlaq olur. Bu aspektdə əşyalarla olan hərəkətlər müşahidə, seyretmə, tutuşdurma və qarşılaşdırma kimi hissi və nəzəri qavrama proseslərin didaktik oyunların mühüm forması sayılır.

Didaktik oyuncaqlarla təşkil olunmuş oyun-məşğələnin 8-12 nəfər uşaqdan ibarət qruplar şəklində aparılması məsləhətdir. Mütləq sadədən başlamaq lazımdır. Oyunun gedişi zamanı tərbiyəçi uşağın lüğət ehtiyatını zənginləşdirmək məqsədi güdərək çoxlu sual- cavab aparır: «Hansı halda daha böyükdür?», «Qalaçanız düzgünmü qurulub?», «Əlində nə var?».

Uşaqlar yumru-dairəvi əşyaların səthinin hamar olduğunu toxunaraq hiss edirlər, yumru əşyaları üst-üstə qalaqlamağın mümkün olmadığını öz gözləri ilə görürlər. Hər bir uşaq oyun zamanı marağına uyğun şəklə

müxtəlif formalı didaktik oyuncaqdan istifadə etməlidir. Bu yolla uşaqlar arasında aparılan oyun-məşğələlərdə hər bir fərd qazandığı təsəvvürü yoldaşı ilə bölüşərkən, nəticə e'tibarilə kəmiyyətlə keyifyyət arasında mütənasiblik yaranar, uşaqlarda məntiqi təhlil bacarığı formalaşar. Oyun-məşğələlər zamanı uşaq bir sıra yeni xüsusiyyət və keyfiyyətlərə malik olur; diqqəti, hafizəsi, dinləmə mədəniyyəti artır, onda həm özünə, həm də ətrafındakılara hörmət və ehtiram hissi oyanır.

Didaktik oyun-məşğələlərinin tə'lim məşğələləri ilə müqayisəsi sübut edir ki, oyunun imkanları məhdud dərəcədədir. Tə'lim məşğələlərini aparmaqdan ötrü daha mükəmməl və dərkolunan tədris fəaliyyəti tələb olunur, amma didaktik oyunların təşkilində isə bu məsələ birbaşa qoyulmur.

Didaktik oyunların da öz üstün xüsusiyyətləri var. Bu prosesin qavrayıb-anlama tərkibli olması uşağa yaxın və maraqlı fəaliyyət növü ilə – oynamaqla üst-üstə düşür. Oyun canlı maraq oyadır, sevinc emosiyaları ilə – həyəcan, təəccüb, şən və səmimi gülüşlərlə müşayiət olunur. Yarışma iradəni, düzgün qiymətləndirməni və özünüqiymətləndirməni formalaşdırır, uşaqlar arasında dostluğu, yoldaşlığı, birgə əməkdaşlıq etmək prosesini gücləndirir, təəssübkeşliyi, qayğıkeşliyi inkişaf etdirir.

Xalq pedaqogikası əşyaların rənginə, səsinə, səthinə görə fərqləndirməkdən ötrü didaktik oyunlar vasitəsilə uşaqlara güclü tə'sir göstərir. «Çumur-çumur», «Şəkərbura», «Xonça» və s. oyunları nümunə gətirmək olar.

Xalqın yaratdığı bütün oyunlar və oyuncaqların tə'yinatı bir istiqamətdədir: uşağı əşyanın əlaməti, keyfiyyətləri və xassələri ilə tanış etmək. Oyun və oyuncaqlar əqli tərbiyənin inkişafı üçün ən qüdrətli tə'sir vasitələridir. Sensor tərbiyənin güclü tə'siri ilə nitq inkişafı və riyaziyyatdan yüksək nəticələr əldə olunur.

Didaktik oyunlar vasitəsilə uşaqlar əşyaları xarici əlamət və görünüşünə görə ayırd edir, tə'yinatına və materialına görə qruplaşdırır. Bu isə onların diqqət və hafizəsinin inkişafına, inadkar-qətiyyətli böyümələrinə kömək göstərir.

Musiqinin müşayiəti ilə keçirilən didaktik oyunların köməyi ilə uşağın musiqi sədaları altında səsləri diapozonuna görə fərqləndirməyi öyrədirik. Bə'zi hallarda musiqili oyunlardan psixoloji tə'sir vasitəsi kimi də istifadə edirik.

Müşahidə qabiliyyətini inkişaf etdirmək məqsədilə bə'zən o qədər də əhəmiyyətli sayılmayan, uşaqlar üçün didaktik oyunların təşkili zamanı cüz'i görünən xırdalığa diqqətli oluruq. Uşaqlarda əyani təsəvvür olmasa da, tapmaca və yanıltmaclı oyunlar təşkil edirik ki, onlar əşyanın formasını, ölçüsünü, rəngini təsəvvür etməklə adını söyləsinlər.

«Uşaq bağçasında tə'lim və tərbiyə proqramı»nda və müxtəlif bədii-süjetli metodik məcmuələrdə çoxlu sayda didaktik oyun vardır. Bizim vəzifəmiz isə əqli tərbiyəni düzgün və sür'ətlə inkişaf etdirmək üçün bu oyunları tərkibinə görə təsnif etməkdir:

1. Uşağın əşya və oyuncaqlara olan marağını nəzərə alaraq, seçmə oyun-tapşırıqlar: ayırd etmək, söküb-yığmaq, bərkitmək, batırmaq və s. kimi hissi hərəkətlər. Sadə oyun hərəkətləri vasitəsilə əşyanın xarakteri ilə uşağın canlı hərəkəti üst-üstə düşür.

2. Gizlətmə və axtarmaqla səciyyələnən oyunlar vasitəsilə əşyanın gözlənilmədən görünməsinə və gözdən itməsinə maraq oyatmaq, sayının azalıb-çoxalmaısnı nümayiş etdirmək və həyəcanlandırıb təəccübləndirmək.

3. Qeyri-mə'lum olması ilə uşaqları özünə cəlb edə biləcək, maraq oyadacaq tapmaca-oyunlar: «Tanı», «Tap», «Burda nə var», «Nə oldu», «Nə dəyişdi?» və s.

4. Süjetli – rollu oyunlarla həyat tərzimizin müxtəlif situasiyalarda obrazlı şəkildə nümayiş etdirməklə ətraf aləmlə tanışlığı və nitqi inkişaf etdirmək, böyüklər və yaşlılar arasında cürbəcür peşə və sənət adamları olan satıcı, dərzi, pinəçi, satıcı, poçtalyon, sadə əməyi və xidməti ilə insanlara nə qədər gərəkli olduğunu dərk edirlər. Onlar təmsilləri səhnələşdirərkən canavar, qoyun, dovşan və tülkünü ifa etməklə güclü, zəif, cəsur, qorxaq, mə'sum-hiyləgər kimi xarakterləri anlayırlar.

5. Oyun-yarışlar. Məqsəd fiziki tərbiyə ilə yanaşı uşaqlar qüvvətli olmağa, qələbəyə, müvəffəqiyyətə nail olmağa, mübariz ruhda böyüməyə çağırmaqdır: «Kim birinci olacaq», «Kim çevikdir?», «Kimdə çoxdur?».

6. Şəkilli-loto oyunlarda məqsəd-intellekti, təfəkkürü inkişaf etdirmək, məntiqi nəticə çıxarmağı bacarmaq.

Oyuna güclü maraq müxtəlif obrazlarla ümumi ad verməklə, ayrı-ayrı təyinatlı əşyaları qruplaşdırmaqla əqli inkişafı gücləndirir:

Əşyaları bir neçə oxşar əlamət və xüsusiyyətinə görə təsnif etmək, qruplara yarmaq böyük yaş qrupunun uşaqları üçün nəzərdə tutulan didaktik oyun məşğələlərinin əsasını təşkil edir. Bu zaman onların təhliletmə, mühakimə yürütmə qabiliyyətləri özünü büruzə verir, qazanılmış bilik və bacarıqlardan yerində istifadə edərək rabitəli nitqə malik olur, hərəkətlərinə düşünülmüş xarakter verilir:

«Top dairəvi formalıdır», yarı qırmızı, yarısı göy rəngdədir, elastikdir, yumşaq rezindən hazırlanıb, diyirlətmək və atıb-tutmaq olur».

Yaxud torbadan loto kimi əşya-oyuncaqları çıxarmaqla tə'yinatını aydınlaşdırmaq, sual-cavab, sorğu aparmaq:

I. Kukla, əsasən, qızların sevdiyi əyləncə vasitəsi, oyuncaqdır.

II. Dəftər-yazı ləvazimatıdır, məktəblilərin ən çox istifadə etdkiləri əşyadır.

III. Boşqab xörək yemək üçün qabdır.

IV. Daş, qum-tikinti işlərində istifadə edilən materialdır.

V. Alma-meyvədir. Şirindir, qırmızı, sarı, ağ olur.

Yenə də çalışırıq ki, həmin əşya və meyvələrin ümumiləşdirici əlamətlərini aydınlaşdıraq. Oyun-məşğələ zamanı uşaqlar arasında fikir ayrılığı yaranır, mühakimələr yürüdülür və hər bir kəs öz bildiyini sübuta yetirmək istəiyr. Nəticədə tərbiyəçi yaranmış situasiyada rəhbərliyi ələ alır, kimin haqlı olduğunu, nə üçün haqlı olduğunu təmkinlə izah edir, başa salır.

Müxtəlif oyuncaqlarda ümumini axtarıb tapmaq bacarığı uşaqdan mürəkkəb analitik-sintetik fəaliyyət tələb edir. didaktik oyunların düzgün elmi təşkili uşaqda məntiqli müqayisə etmək bacarığı yaradır və praktik fəaliyyəti zaman müşahidə, təhlil, müqayisə, ümumiləşdirmək, səciyyələndirmək bacarığı inkişaf etdirir.

Əşya və təbiət hadisələrini ümumi əlamət xüsusiyyətlərinə görə təsnif etmək üçün müxtəlif didaktik oyunlar var. «Nə burda bitir?», «Kim hansı əmək alətəindən istifadə edir?», «Hansı fəsildə nələr baş verir?», «Ovçu və çoban». Bu oyunda vəhşi və ev heyvanlarının təsnifatı əsas məqsəddir.

Böyük rus pedaqoqu A.S.Makarenko oyunların əhəmiyyəti haqda yazıb: «Uşaqda oyuna ehtiras hissi vardır, onun bu tələbini ödəmək lazımdır. Uşağa oynamaq üçün təkcə asudə vaxt vermək lazım deyil, onun həyatını bu oyunla mə'nalandırmaq gərəkdir. Bütün həyatımız oyundan ibarətdir».

Uşaqlarda müqayisə etmək, əlaqələndirmək və uyğunlaşdırmaq kimi əqli fəaliyyət növünün inkişafı üçün oyunlar məqsədyönlü aparılmalıdır.

Konkret sənət sahiblərinin iş yerləri və istifadə etdikdləri alətlərin adları düzgün seçilib göstərilməlidir.

| peşə | alət | iş yeri |
|---|---|---|
| həkim | fonendoskop | xəstəxana |
| müəllim | kitab, qələm | məktəb |
| bəstəkar | pionino | musiqi məktəbi |
| dərzi | iynə, sap | atelye |
| inşaatçı | daş, sement | tikinti |
| stüardessa | təyyarə | aerodrom mavi əsa |

Didaktik oyunlar uşağın əqli tərbiyəsini, konkret və ümumi biliklərdən düzgün istifadə etmək bacırığı və qabiliyyətini inkişaf etdirir.

## UŞAQLARA İSLAM DƏYƏRLƏRİNİN AŞILANMASININ PEDAQOJİ – PSİXOLOJİ ƏSASLARI

**Şərafət Baxışova,**
TPİ-nin təhsilin ümumi problemləri şö'bəsinin elmi işçisi

Bu gün uşaqların tərbiyəsində islam dəyərlərindən istifadə edilməsi xüsusi aktuallıq tələb edir. Uşaqların körpəlikdən islam dəyərlərini öyrənməyə maraq göstərmələrinə baxmayaraq, bu biliklərin dairəsi müəyyən edilmədiyindən və metodikası işlənmədiyindən onların formalaşmasına zəmin yaranmır. Biliklərin sistemsiz, əlaqəsiz mənimsənilməsi onun dəqiqliyini həmişə tə'min etmir, yüksək əqli və əxlaqi keyfiyyətlərin formalaşmasına zəmanət vermir.

Uşaq bağçasında veriləcək dəyərlərin məzmununu müəyyənləşdirərkən biz aşağıdakı vəzifələri rəhbər tutduq:

1. İslam dəyərlərindən istifadənin pedaqoji - psixoloji əsaslarını öyrənmək.

2. İslam dəyərlərindən məktəbəqədər yaşlı uşaqlara öyrədilməsi zəruri olan tə'lim-tərbiyə işinin məzmununu müəyyənləşdirmək.

3. Məşğələlərin təşkili, məşğələdən kənar və asudə vaxtın təşkili prosesində bu dəyərləri öyrətməyin imkanlarını, forma və yollarını tşləyib hazırlamaq.

Tə'lim - tərbiyə üçün islam dəyərləri son dərəcə zəngin və insan əqidəsinə tə'siredicidir, həyatidir. Bu dəyərlərin hamısını uşaqlara öyrətmək imkan xaricindədir, lakin onları seçməklə daha zəruri olanları tə'lim - tərbiyə sisteminə daxil etmək olar. Uşaqlara aşılanması vacib olan islam dəyərlərinin həcmi bütöv olmalıdır İslam mədəniyyətinə daxil olan mütərəqqi ideyalar cəmləşdirilməli, onların uşaqlara aşılanması sistemi yaradılmalıdır. Bu həcm məktəbəqədər tə'lim- tərbiyə proqramı ilə üzvi surətdə əlaqələndirilməlidir. İslam dəyərlərindən məktəbəqədər yaşlı uşaqlara nələri öyrətməyin mümkünüyünü əsas götürməklə müəyyən prinsiplərə əsaslanmışıq. Bu prinsiplərə aşağıdakılar daxildir.

1. Mövcud tə'lim-tərbiyə sisteminə, konkret oxu mövzusuna, müəyyən bəhsə görə, məsələnin qoyuluşuna görə, tərbiyənin

məqsədinə görə, yaş uyğunluğuna görə, yerli adət- ən'ənələrə görə seçmə;

2. Məktəbəqədər yaşlı uşaqların yaş, maraq və dərketmə imkanlarına uyğunluq;

Bu prinsipləri əsas götürəndə aydın olur ki, şəxsiyyətin hərtərəfli inkişafı və əxlaqi cəhətdən yetkinliyi üçün tərbiyənin məzmununun yeniləşməsinə böyük ehtiyac var.

Uşaqları islam dəyərləri ruhunda tərbiyə etmək işində yaxşı nəticə əldə etmək üçün müvafiq pedaqoji-psixoloji əsasları bilmək islam dəyərlərindən istifadə prosesində hökmən həmin pedaqoji əsaslara riayət etmək lazımdır. Həmin əsaslar, adətən, tərbiyənin məqsədi, məzmunu və vəzifəsi ilə sıx bağlı olur. Tərbiyə işində islam dəyərlərindən istifadənin başlıca məqsədi məktəbəqədər yaşlı uşaqları müsbət əxlaqi-keyfiyyətlərə yiyələndirməkdir. Uşaqların tərbiyəsində islam dəyərlərindən istifadə işində aşağıdakı pedaqoji-psixoloji əsaslara istinad olunması məsləhət görülür.

1. Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində islam dəyərlərindən istifadə zamanı onların yaş xüsusiyyətləri ilə hesablaşmaq lazımdır.

2. Məşğələdənkənar tədbirlər üçün seçilmiş əsəri məktəbəqədər yaşlı uşaqların mə'nəvi aləminə, əxlaqına nə dərəcədə tə'sir göstərəcəyini qabaqcadan götür-qoy etmək, intiusiyaya əsasən təxmini olsa da müəyyənləşdirmək gərəkdir. Hər bir tərbiyəçi həmin əsərin məqsəd və məzmunundan çıxış edərək, onun nə kimi tərbiyəvi keyfiyyət aşılayacağını əvvəlcədən müəyyən etməli, mətni məşğələdə və məşğələdənkənar tədbirlərdə uşaqlara necə və hansı yollarla mənimsətmək məsələsi üzərində düşünməlidir.

3. Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində mə'nəvi dəyərlərdən istifadənin başlıca pedaqoji əsaslarından biri də hər bir uşağın fərdi xüsusiyyətlərinin nəzərə alınmasıdır.

Məktəbəqədər yaşlı uşaqların mətnlərə münasibətlərindəki fərqlər onların xarakterində də özünü göstərir. Uşaqlara verilən islam dəyərlərinie köməyi ilə uşaqlarda mənfi əxlaqi əlamətlərə nifrət hissi oyadılır. Onlarda vətənpərvərlik, düzlük, doğruluq, paklıq, əməksevərlik, dostluq və qayğıkeşlik, böyüklərə hörmət və məhəbbət, mərdlik və s. kimi mə'nəvi keyfiyyətlər çox asanlıqla tərbiyə olunur. Bədii mətnlərdən istifadə edərkən uşaqlara başa salınmalıdır ki, əsərdə verilən dəyərin mə'na və əhəmiyyətini sadəcə öyrənmək, bilmək, azdır. Əsas məsələ həmin dəyərlərə yiyələnmək üçün ciddi sə'y göstərməkdir. Yalnız belə olan halda bu mə'nəvi keyfiyyətlərə sahib olmaq mümkündür. Ümumiyyətlə, tərbiyəçi çalışmalıdır ki, bu istiqamətdə düzgün tərbiyəedici mühit yaratsın və mə'nəvi keyfiyyətlərin formalaşmasına müntəzəm rəhbərlik etsin.

4. Bir pedaqoji əsas da nümunədir. İslam dəyərlərindən məktəbəqədər yaşlı uşaqların tərbiyəsində istifadə sahəsindəki müvəffəqiyyət xeyli dərəcədə məhz tərbiyəçinin şəxsi nümunəsindən asılıdır. Müşahidə və təcrübələr aydın göstərir ki, məktəbəqədər yaşlı uşaqlar tərbiyəçinin hazırlığına, əxlaqi keyfiyyətlərinə, mədəni səviyyəsinə, mütaliə qabiliyyətinə və tərbiyə prosesində tutduğu mövqeyə diqqətlə yanaşır. Tərbiyəçinin bu işə münasibəti onlar üçün həlledici əhəmiyyət kəsb edir.

5. Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində mə'nəvi dəyərlərdən istifadənin mühüm pedaqoji əsaslarından biri də uşaqları islam dəyərləri ruhunda və milli qürur hissində tərbiyə etməkdir. Alimlərin haqlı dedikləri kimi, din insanların seçib bəyəndikləri və inandıqları bir sistemdir; elə bir ilahi məktəbdir ki, insanı tərbiyə edir; din ilahi bir tərbiyə qanunu, hər kəsi kamil insan olmağa sövq edən qaydalar məcmusudur. Milli mənsubiyyətimizi müəyyənləşdirən əsas şərtlərdən biri məhz islam dinidir.

Tərbiyəçi unutmamalıdır ki, məktəbəqədər yaşlı uşağın görüş dairəsi, həyat haqqında mə'lumatı məhdud, marağı, öyrənmək həvəsi isə genişdir. O gördüyü və eşitdiyi hadisələrin mahiyyətini başa düşməyə çalışır.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi üçün mətnlərin düzgün seçilməsi son dərəcə vacib məsələdir. Həmin məsələdə səhv etməməkdən ötrü bir sıra pedaqoji tələblərə ciddi əməl olunmalıdır. Bu tələblər aşağıdakılardır:

1. Tərbiyəçi ayrı-ayrı yaşlarda olan uşaqların psixologiyasını, anlaq səviyyəsini, arzu və meyllərini, eləcə də o yaş üçün əxlaq tərbiyəsinin xarakterini, mahiyyətini, məqsədini, üsul və vasitələrini yaxşı bilməlidir. Bunun üçün, hər şeydən əvvəl, pedaqogika, psixologiya elmlərinə və uşaq ədəbiyyatına dərindən bələd olmalıdır.

2. Hər bir tərbiyəçi məktəbəqədər yaşlı uşaqlar üçün yazılmış bədii əsərlərdə hansı mə'nəvi keyfiyyətlərin nə dərəcədə əhatə olunmasını qabaqcadan müəyyənləşdirməlidir. Müşahidələrimizdən aydın olur ki, bə'zi tərbiyəçilər bu məsələdə kifayət qədər pedaqoji ustalıq göstərmirlər. Yə'ni verilən mətnlərlə nə kimi əxlaqi keyfiyyət aşılayacaqlarını müəyyən etməkdə çətinlik çəkirlər. Nəticədə verilən mətnin tərbiyəedici imkanından istifadə məqsədyönlü deyil, təsadüfi xarakter daşıyır: tərbiyəvi tədbirlərdə istifadə olunan əsər mə'nəvi tərbiyənin məqsədinə və məzmununa görə deyil, hansı mətnin ələ düşməsi ilə müəyyənləşdirilir. Bə'zi tərbiyəçilər isə islam dəyərlərinin məzmununu aydın bilmədiklərindən görə tərbiyə işini bütün il boyu ancaq bir-iki keyfiyyət üzərində qurur.

Məqsədə çatmaq üçün islamın zəngin dəyərlərindən istifadə olunmasına məktə-

aparılan muşahidələr

bəqədər təhsil müəssisələrində ikinci yaş qrupundan başlanılması məsləhət görülür. Bu yaşda olan uşaqların davranışında özünü büruzə verən müstəqilliyə meyllilik islam dəyərləri ilə bağlı söhbətlər, ədəbi materialların köməyi ilə onlarda arzu olunan mədəni davranışa dair bacarıq və vərdişlərin əsasının qoyulmasına imkan verir. Bu yaş dövründə xeyir və şər, xeyirxah işlər, fəzilətlər, yaşlıların əməyinə hörmət etmək, özündən kiçiklərə mərhəmət göstərmək və s. kimi əxlaqi keyfiyyətlərin aşılanmasında islamdan çoxlu faktlar, nümunələr gətirmək mümkündür. Əsas məsələ odur ki, bu pillədə həmin dəyərlərdən istifadənin məzmunu müəyyənləşdirilsin.

Orta yaş qrupunda proqram tələbi belədir ki, uşaqlar ailə üzvləri arasında qarşılıqlı münasibəti, yaşlıların əməyini öyrənməli, qiymətləndirməli, vətən, torpaq haqqında ilkin təsəvvürlərə yiyələnməli, yaxşı və pisin nədən ibarət olduğunu anlamalıdırlar. İslamda belə əxlaqi keyfiyyətlər barədə zəngin fikirlər çoxdur. Peyğəmbərimiz kimsəsiz, atasız, anasız uşaqları görüncə son dərəcədə qəhərlənmiş, onlardan öz mərhəmətini əsirgəməmişdir: "Yetimlərə yaxşı baxın. Yetimlər cəmiyyətə əmanətdir. Ata-ana şəfqətindən məhrum olan bu biçarə mə'sumları qorumaq lazımdır. Hamiləri yoxdur deyə mallarına əl uzatmaq ən böyük vicdansızlıqdır. "Verilən sözə əməl edin", "Əhdə vəfa lazımdır", "Sözünü yerinə yetirməyən şəxs insan sayılmaz", "Sözü doğru olmayanın özü də doğru ola bilməz", "Uşaqların sağlamlığında təmiz yeməsi, təmiz geyinməsi, təmiz yerdə oturması, havanın təmiz saxlanmasını tə'min edin".

Təmizliyi "imanın yarısı" hesab edən Peyğəmbərimiz ruzunun bölünməsində təmizliyin rolunu xüsusilə diqqətə çatdırmışdır. Həzrəti Məhəmmədin birlik və bərabərlik haqqında tövsiyələri bugünü varlığımızın təzələnməsi və tənzimlənməsində böyük əhəmiyyət kəsb edir. Bü cür hümanist keyfiyyətlərin insan həyatındakı rolunu uşaqlara ilkin yaşlarında elə çatdırmaq lazımdır ki, bu ideyalar onların ruhuna hakim kəsilsin. Bu hisslər sonrakı həyat yollarında daxili mə'nəvi qüvvəyə çevrilsin, özünəməxsus keyfiyyətlərin formalaşmasına zəmin yaratsın.

Böyük məktəbəqədər yaşlı uşaqlarla tərbiyəvi işdə islam dəyərlərinə aşağıdakılar daxildir: məs'uliyyət hissi, vətənpərvərlik, yaxşı adamların nümunəsini izləmək, davranış qaydalarını gözləmək ata-anaya hörmət və məhəbbət, sözündə bütöv, ölçüdə və çəkidə doğruçuluğa diqqətlilik, kor-koranə təqlidçilikdən çəkinmək və s.

Məktəbəhazırlıq qruplarında uşaqlara islam dəyərləri haqqında verilməli mə'lumatların tematikası belə müəyyənləşdirildi:

1. Dinin mahiyyəti, ona itaət etməyin əşəmiyyəti.

2. Dini kitab. «Qur'an»ın meydana gəlməsi. Qur'ani-Kərimin məzmunu haqqında ümumi məlumat. «Qur'an»da əxlaq və mə'nəviyyat məsələləri. «Qur'ani-Kərim» icazəsiz başqasının evinə girməməyə, biri ilə qarşılaşarkən salam verməyə, verilən salamı hörmətlə almağa çağırır.

Hər kəs evdən çıxıb elm öyrənmək məqsədilə getsə, onun yazdığı hərfin hər birinə görə cənnətdə ona bir şəhər bağışlanar.

Elmi yaxşı dərk etmək üçün az yemək və az yatmaq, qəlbini kindən, həsəddən xilas etmək, ədəbsiz əməllərdən uzaq olmaq, haram işlərdən uzaq olmaq, yalan danışmaqdan çəkinmək lazımdır.

3. Məhəmməd Peybəmbərin həyatı və fəaliyyəti. Məhəmməd Peyğəmbərin kəlamları. Peyğəmbərin nümunəsi.

Hikmətli söz yaxşı hədiyyədir. Hər kəs təvazökarlıq eləsə, Tanrı onu yüksəldər, təkəbbüretmə alçaldar. Hər kəs biliksiz iş görsə, o işin pisliyi yaxşılıqdan çox olar. Hər kəs yaxşılıq eləsə, xeyir tapar, pislik etsə, peşmançılıq. Hər kəsin ədəbi olmasa, ağlı yoxdur. Hər kəs bir şeyi istəsə, çalışsa, əldə edər. Hər kəs rəhm eləməsə ona rəhm eləməzlər. Hər kəsi Tanrı istəsə, ona yaxşı dost qismət edər. İkiüzlü, iki dilli olmaq və iki cür danışmaq məl'unluqdur.

Xalq Tanrının övladlarıdır, ən çox sevilən adam xalqa daha çox fayda verəndir. Hər kəs Tanrıdan qorxsa, Tanrı onu hər şeydən qoruyar. Qoca öz evinin peyğəmbəri kimidir. Düzlük rahatlıq, yalan narahatlıq verər. Müsəlmana yalan danışmaq günahdır. Hər kim yoldan daşı götürsə, onun adına yaxşılıq yazılar.

4. Həzrəti Əlinin tərbiyə haqqında fikirləri. Həzrəti Əlinin oğluna nəsihəti.

Ədəb insanın şəklidir. Şəxsiyyətin ən yaxşı cəhəti əxlaqdır. Əqli çox olanın sözü çox olar. Yaxşılıq ilə adamı azad etmək olar. Ən böyük dövlət-ağıl, ən böyük yoxsulluq nadanlıq, ən böyük tərbiyə, ən böyük köməkçi vaxtında verilən məsləhətdir. Hər bir insanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülür.

5. Dini bayramlar və mərasimlər, xüsusən Orucluq, Qurban bayramı və Məhərrəmlik mərasimi ilə bağlı mə'lumatın verilməsi.

İmam Hüseynin başçılıq etdiyi dəstənin düşmənə tabe olmayıb azadlıq uğrunda şəhid olması, İslam dinini qorumaq üçün canlarından keçməsi, müsəlmanların həmin günü matəm etməsi.

Ramazan ayının Oruc tutulduğu ay olması. Bu ayın ayların ən şərəflisi olması. Peyğəmbərimiz Həzrəti Məhəmmədə peyğəmbərliyin bu ayda yetişməsi. Ona görə də müsəlmanların belə bir mübarək ayda Oruc

tutmaqla Allaha ibadət etməsi, oruc tutan adamın sağlam olması, pis işlərdən uzaq olması, heç kəsi aldatmaması, yalan danışmaması, böyüklərə hörmət, kiçiklərə qayğı göstərməsi, orucun insana bir çox yaxşı sifətlər bəxş etməsi, səbirli olmağı, aclığa, susuzluğa dözməyi, bir çox ne'mətlərdən məhrum olmağı öyrətməsi, varlıların bayram sevincini kasıblarla bölüşməsi, oruc tutanların mərhəmətli olması, adamlarla mehriban rəftar etməsi, qüsurların bağışlanması.

Qurban bayramında müsəlmanların qurban kəsməsi, ətin bir hissəsinin qonum- qonşuya, bir hissəsinin də yoxsullara paylanması.

Qurban bayramında qohumların və qonşuların görüşüb, bir-birinin bayramını təbrik etmələri, uşaqların, gənclərin ana-atanı, nənə-babanı, yaxın qonşularını ziyarət edib, görüşmələri. Qurban bayramının inam və insanpərvərlik bayramı olması.

Müəyyənləşdirdiyimiz təxmini məzmun məşğələ, məşğələdənkənar, asudə vaxtlarda məqsədyönlü bölüşdürülməklə onlarda bir bütövlük, tamlıq təşkil edilir. Uşaqların islam dəyərləri üzrə bilikləri asandan çətinə, sadədən mürəkkəbə, bəsitdən aliyə doğru inkişaf etdirilir.

Tə'lim-tərbiyə prosesi elə qurulur ki, onun özü uşaqların tərbiyəlilik səviyyəsinin tədricən artmasına, dünyaya müstəqil baxışlarının formalaşmasına səbəb olur.

# MÜASİR TƏ'LİM METODLARININ TƏTBİQİNİN TƏ'LİMİN KEYFİYYƏTİNƏ TƏ'SİRİ

**Südabə Abdullayeva,**
Xətai RTŞ-nin metodisti



Respublikamızın prezidenti möhtərəm Heydər Əliyev təhsil işçiləri ilə görüşündə demişdir: «Azərbaycan xalqını yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq qabaqcıl elmli və bilikli adamların fəaliyyəti nəticəsində olur. Belə adamları üzə çıxarmaqda tükənməz imkanlara malik olan qüvvə təhsildir. Respublikanın bütün müəllimləri təhsilimizin bu gücündən zamanın tələbinə uyğun istifadə etməli, müasir həyatla səsləşən, tə'lim metodlarından istifadəni ön plana çəkməli və öz dərs modelini yaratmalıdır».

Bu tövsiyələr biz təhsil işiçlərinin qarşısında çox mühüm vəzifələr qoyur. Təhsil işçilərində yeni pedaqoji təfəkkür formalaşdırmadan təhsil islahatı proqramında qarşıya qoyulan vəzifələri həyata keçirmək mümkün deyil.

Məktəbəqədər ictimai tərbiyə təhsil sisteminin ilkin pilləsidir, körpəlik və bağça yaşı dövründə uşaqların şəxsiyyətinin formalaşmasına xidmət edir.

Tanınmış pedaqoq və psixoloqların apardıqları tədqiqatların nəticələri göstərir ki, uşaqların əqli tərbiyəsində müasir texnologiyalardan, interaktiv tə'lim metodlarından istifadənin rolu böyükdür.

Hazırda itifadə etdiyimiz tə'lim-tərbiyə proqramının müvəffəqiyyətlə həyata keçirilməsi tə'lim-tərbiyə prosesində interaktiv tə'lim metodlarından yaradıcı şəkildə istifadə olunmasından asılıdır. Belə metodların tətbiqi uşaqlarda müstəqil düşünmək, sərbəst rə'y söyləmək, hər hansı problem barədə başqasının fikrinə münasibət bildirmək, onu təsdiq və ya inkar etmək, çoxluğun qərarını qəbul etmək və ya öz qərarının üstündə durmaq kimi xüsusiyyətlərin formalaşmasında kömək edir.

Bununla əlaqədar məktəbəqədər tərbiyə müəssisəsində çalışan hər bir tərbiyəçi yeni pedaqoji təfəkkürün yaranmasını tə'lim-tərbiyə müəssisəsində uşağın şəxsiyyət kimi formalaşmasının əsası kimi qəbul etməli və pedaqoji fəaliyyətini bu istiqamətdə qurmağa çalışmalıdır. Bu səbəbdən də hər bir tərbiyəçi uşağın bu gün yaşadığı illərin maraqlı və məzmunlu keçməsinə çalışmalıdır. Tərbiyəçi qrupda elə optimal şərait yaratmalıdır ki, uşaqlar öz fikrini ifadə etməkdə, sərbəst rə'y söyləməkdə, müstəqil əqli nəticə çıxarmaqda, yoldaşlarının qərarına münasibət bildirməkdə çətinlik çəkməsinlər. Qrupdakı bütün uşaqları

şəxsiyyət kimi qəbul etmək, onların hüquqlarını qorumaq, onlara hörmətlə yanaşmaq, bacaraq və qabiliyyətlərini büruzə verməyə imkan yaratmaq hər bir tərbiyəçinin borcudur.

Yeni pedaqoji təfəkkür tərbiyəçilərdən əsas diqqəti ilk növbədə uşağın intellektual və yaradıcı inkişafına, məntiqi və mücərrəd təfəkkürünün formalaşmasına, təhliletmə, əqli nəticə çıxarmaq, ümumiləşdirmə aparmaq bacarıq və vərdişlərin təşəkkülünə yönəlməsini tələb edir. Yeni pedaqoji təfəkkür– tə'lim-tərbiyə prosesinin öyrənməyi öyrətmək texnologiyası əsasında qurulmasını uşağın təfəkkür imkanlarının maksimum dərəcədə nəzərə alınmasını tələb edir.

Bu gün dünya təcrübəsində yeni pedaqoji texnologiyalardan, müasir interaktiv tə'lim metodlarından geniş istifadə olunur. İnteraktiv tə'lim metodlarının tətbiqi tədris prosesini xeyli zənginləşdirir, onu hər bir uşaq üçün maraqlı fəaliyyət sahəsinə çevirir, uşaqların məşğələdə fəallığı xeyli artır. Hazırda bu metodlardan istifadə uşaqların hərtərəfli inkişafına xeyli kömək edir. Tərbiyəçi uşaqlara hər hansı bir mövzunu öyrətməyə başlamazdan əvvəl «söz assosiyaları» yaradır. Uşaqların bu barədə nə bildiklərini, nəyi öyrənmək istədiklərini aydınlaşdırır. «Layihələrin hazırlanması» uşaqların bir-biri ilə və digər adamlarla ünsiyyətinə və qarşılıqlı münasibətlərin qurulmasına kömək edir.

Rayonun 257, 288, 199, 205, 236, 250 nömrəli körpələr evi–uşaq bağçalarında müasir tə'lim texnologiyaları, interaktiv tə'lim metodları tətbiq edir, keçirilən məşğələlər, tədbirlər maraqlı və məzmunlu olur. Tərbiyəçilər işlərini əyani şəkildə qura bilirlər. Belə ki, uşaqlar özləri müşahidə aparır, təhlil edir, əqli nəticə çıxarırlar.

Uşaqlarda əyani – obrazlı təfəkkürün inkişafı üçün süjetli, rollu oyunlardan daha geniş istifadə olunur. Rollu oyunlar müəyyən mövzunun səbəb, məqsəd əlaqələrinin, qanunauyğunluqlarının daha dərindən dərk olunmasına kömək edir. Rolları bölüşdürən uşaqlar yaşlıları təqlid edir, onların hissləri ilə yaşayırlar. «Mağaza» oyununda satıcı, xəzinədar, «Xəstəxana» oyununda həkim, xəstə, «Bərbərxana» oyununda bərbər və s. rolu ifa edən uşaq özünü onun yerinə qoyur, onun hissləri ilə yaşayır.

Tərbiyəçilər məşğələlərdə «Əqli hücum», «Cütlər və qruplar» metodundan istifadə edir. Bunun vasitəsilə konkret problemin həlli və ya hansısa suala cavabın axtarılması təşkil olunur. «Əqli hücum» yeni mövzunun izahından əlavə, çalışmaların yerinə yetirilməsi zamanı tətbiq olunur.

Müasir tə'lim texnologiyalarının məqsədi uşağı daima yeni biliklərə yiyələnməyə, müstəqil şəkildə öz biliyini artırmağa yönəltmək, onlarda tənqidi təfəkkürün, seçmə bacarığını, problem qoymaq, onu həll etmək qabiliyyətini formalaşdırır. Müasir tə'lim – texnologiyaları uşaqlarda fantaziya və ixtiraçılıq qabiliyyətinin təbiətə, cəmiyyətə, insanlara, qayğı və hörmət, özünəinam hissi tərbiyə edir. İnteraktiv tə'lim metodları uşaqlarda inam hissi tərbiyə etməklə yanaşı, yaradılan mühit onda tədqiqatçılığa, təşəbbüskarlığa, yaradıcılığa maraq oyadır.

Hər bir tərbiyəçi müasir tə'lim texnologiyalarına yiyələnməli, uşaqların tə'lim-tərbiyəsinə ailəni də cəlb etməlidir. Pedaqogika və psixologiyadan son illərdə əldə olunan nailiyyətlər göstərir ki, uşağı şəxsiyyət kimi qəbul edib onun yaradıcılığına, bacarıq və qabiliyyətlərinin inkişafına üstünlük vermək, inkişaf etdirmək onlarda idrak qabiliyyətinin inkişafına, məntiqi və mücərrəd təfəkkürünün formalaşmasına kömək göstərir, eyni zamanda təhsilin keyfiyyətinə tə'sir edir.

Uşaqlar üçün qrupda təşkil olunmuş müxtəlif fəaliyyət mərkəzləri uşaqların meyl və marağına uyğun təşkil olunarsa, bu, uşaqların qarşılıqlı əlaqə və ünsiyyətinə, müstəqil əqli nəticə çıxarmalarına, qərar qəbul etmələrinə imkan verər. Burada istifadə olunan materiallar didaktik vasitələr, avadanlıqlar, plakatlar, portretlər, incəsənət əsərləri və digər işlər uşaqların yaşına uyğun inkişafına zəmin yaradır.

Müasir tə'lim texnologiyaları və interaktiv tə'lim metodlarından istifadə təcrübəsi göstərir ki, uşaqların idrak fəallığının və məntiqi təfəkkürünün inkişafında onlar xüsusi əhəmiyyət kəsb edir.

Bu gün dünya təcrübəsində yeni pedaqoji texnologiyalardan, informasiya texnologiyalardan geniş istifadə tədris prosesini xeyli fəallaşdırır. Onu hər bir uşaq üçün maraqlı fəaliyyət sahəsinə çevirir, məşğələlərdə uşaqların fəallığını artırır.

İslahat proqramında təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Son illər bu sahədə işlək mexanizmlərin hazırlanması sahəsində bir sıra uğurlu addımlar atılmış, daxili və xarici qiymətləndirmə üzrə modellər hazırlanmışdır. Bu da təsadüfi deyildir, çünki, müntəzəm, obyektiv həyata keçirilən qiymətləndirmə təhsilin keyfiyyətini yüksəltmək üçün mühüm şərtlərdən biridir.

Təhsilin digər pillələrində olduğu kimi, məktəbəqədər tərbiyə və təhsil müəssisələrində də bu sahədə xüsusi axtarışlar, araşdırmalar aparılır. Müasir tə'lim texnologiyalarının tətbiqinə üstünlük verilməli, bu sahədə qabaqcıl uşaq bağçalarının iş təcrübəsi öyrənilib yayılmalıdır.

## BEŞYAŞLILARIN MƏKTƏBƏ HAZIRLANMASINA DAİR

Azərbaycan Respublikası Təhsil Nazirliyi məktəbəqədər yaşlı uşaqların məktəb tə'liminə hazırlanması probleminə xüsusi əhəmiyyət verir. Məktəbə hazırlıq sahəsində planlı iş aparılan bəzi məktəbəqədər müəssisələrin mə'zunlarının bir qismi məktəb tə'liminə tam hazır olur. Digər qismi isə az müddətdən sonra məktəbə, müəllimə sinfin kollektivinə asanlıqla uyğunlaşır. Təcrübə göstərir ki, birbaşa ailədən gələn altıyaşlıların böyük əksəriyyəti məktəbə psixoloji cəhətdən hazır olmur. Uşaqların hazırlığı arasında belə fərqin olması müəllimin işini çətinləşdirir, təhsilin effekli təşkilinə mane olur. Ona görə də uşaqların məktəbdə qısamüddətli hazırlıq qrupuna cəlb edilmələri məqsədə uyğun görülür. Hazırlıq qruplarında məşğələləri həmin uşaqlara məktəbdə dərs deyəcək müəllimlər aparmalıdırlar. Məşğələlər avqust ayında təşkil edilməlidir.

Belə məşğələlərdə uşaqların kollektivdə ünsiyyəti və davranış qaydaları, məktəbin rejiminə alışması, dərs sistemi, dərsdə özünü aparma, partada əyləşmə, dəftəri qoyma, qələmi tutma, dərs şeylərini qoruma, müəllimin suallarına cavab vermə, sual vermə qaydalarına yiyələnmələri nəzərdə tutulur. Bundan əlavə uşaqlarda müşahidəçilik qabiliyyətinin, diqqətin, nitq və təfəkkürün inkişaf etdirilməsinə geniş yer verilməlidir.

Məşğələlərin məzmunlu və maraqlı keçməsi, I sinifdə müəllimlərin işini xeyli yüngülləşdirir.

Aşağıda 10 günlük məşğələnin təxmini izahlı planlaşdırılması verilir:

| S № | Məşğələnin növü | Məşğələnin məzmunu | Təxmini vaxt (dəq) |
|---|---|---|---|
| | | ***I GÜN*** | |
| *1.* | *Uşaqların bir-biri ilə və məktəblə tanış olmaları* | *Müəllimlərin uşaqlarla, uşaqların biri ilə və məktəbin binası ilə tanış olmaları. Məktəbdə intizam, təmizlik* və gigiyena qaydalarının gözlənilməsi, təhsil almağın əhəmiyyəti, onun üçün nələrə əməl olunmasının zəruriliyi ətrafında müsahibə. | 20 dəq. |
| 2. | Nitq inkişafı | Uşaqların nitqlərinin fərdi xüsusiyyətlərinin öyrənilməsi. Nitq səslərini tələffüz etmə bacarıqları. Bu sahədə yol verdikləri nöqsanlar, lüğət ehtiyatı, sözləri tələffüz etmə bacarıqları, nitqlərində yerli şivə xüsusiyyətləri, cümlə qurma bacarıqları, rabitəli nitqlərinin vəziyyəti. | 25 dəq. |
| 3. | Uşaqların məktəbə hazırlıq səviyyəsinin öyrənilməsi | Uşaqların məktəb tə'liminə hazırlığını öyrənmək üçün pedaqoji və psixoloji diaqnostika. Bu məqsədlə Y.Ş. Kərimovun «I sinifdə islahat», «Uşaq məktəbə gedir». L.Ş.Bağırovanın «Məktəbə hazırlığın psixodiaqnostikası» kitabçalarından istifadə etmək mümkündür. | 20 dəq. |
| 4. | İlkin riyazi təsəvvürlərin inkişafı | Uşaqların 10 dairəsində sayma bacarıqlarının aşkar edilməsi (ətraf aləmdəki əşyalar, didaktik oyun materialları əsasında). Əşyaların sayılması üzrə çalışmalar. Necədir? Sualına cavab verilməsi. Müxtəlif formalı əşyalar içərisindən dördbucaqlı olanların seçilməsi. | 15 dəq. |
| 5. | Fiziki mədəniyyət | Sıraya düzülmə. Müəllimin göstərişi ilə bir cərgə addımlama. «Qaçdı-tutdu» oyunu. | 10 dəq. |
| | | ***II GÜN*** | |
| 1. | Məktəb həyatı ilə tanışlıq | Uşaqların fərdi xüsusiyyətləri ilə tanışlıq. I sinifdə oxuyarkən lazım olacaq tədris ləvazimatı və onlardan istifadə qaydası ilə tanışlıq. | 10 dəq. |
| 2. | Nitq inkişafı | Keçən gün görülmüş işlərin təkrarı. Bildikləri şe'rlərin ucadan, ifadəli oxunması. | 25 dəq. |
| 3. | Təsviri fəaliyyət | Uşaqların rəngləri necə tanımalarının öyrənilməsi. Təsviri sənətin sahələri (rəssamlıq, rəngkarlıq, heykəltaraşlıq, dekorativ təsviri fəaliyyət) ilə tanışlıq. Təsviri sənət məşğələlərində nələri öyrənəcəkləri haqqında mə'lumat. | 10 dəq. |

| | | | |
|---|---|---|---|
| 4. | İlkin riyazi təsəvvürlərin inkişafı | Keçən gün məşğələdə yerinə yetirilənlər üzrə məşq. Əşyaların sıra ilə sayılması üzrə təmrinlər. «Qırmızı bayraq neçənci yerdədir?» oyunu. İki qrup əşyanın kəmiyyətcə müqayisə edilməsi «hansı çoxdur», «hansı azdır?» | 25 dəq. |
| 5. | Ətraf aləmlə tanışlıq | Məktəbin ətrafındakı əraziyə ekskursiya. Uşaqlardan gördükləri əşya və hadisələrin adlarının xəbər alınması. Təbiət, canlılar və cansızlar aləmi, onları əhatə edən insanlar, binalar nəqliyyat haqqında müsahibənin keçirilməsi. | 20 dəq. |
| | | ***III GÜN*** | |
| 1. | Məktəb həyatı ilə tanışlıq | Uşaqların fərdi xüsusiyyətləri ilə tanışlıq. Müəllimə müraciət etmək, ona sual vermək, onun sualına cavab vermək, danışanı dinləmək, yoldaşlarının danışıqlarına münasibət bildirmək qaydaları ilə tanışlıq. | 10 dəq. |
| 2. | Musiqi və nəğmə | Uşaqların bildikləri nəğmələrin xəbər alınması. Xoşladıqları mahnının xorla oxunması. İmkan daxilində bir uşaq mahnısının səslənməsi. Onun əsasında ritmik hərəkətlər. | 15 dəq. |
| 3. | İlkin riyazi təsəvvürlərin inkişafı | Əşyaların 10-a qədər düzünə və tərsinə sayılması üzrə oyunlar. Sahədə əşyanın vəziyyətinin müəyyənləşdirilməsi: yuxarı-aşağı, sol-sağ, altında, üstündə. Üçbucaqlı formada əşyaların seçilməsi ilə tanışlıq. «Səsin haradan gəldiyini tap» oyunu. | 25 dəq. |
| 4. | Əmək tə'limi | Əmək tə'limi məşğələlərində nələri öyrənəcəkləri haqqında söhbət. Özünəxidmət üzrə vərdişlər (geyinmək, yuyunmaq, paltar və ayaqqabıya qulluq, yemək qaydaları və s.) ətrafında müsahibə. | 10 dəq. |
| 5. | Nitq inkişafı | Əşya və şəkillər üzrə iki-üç sözdən ibarət cümlələrin tərtibi. Cümlələrin sözlərə ayrılması (cümlədə neçə sözün olması və hər birinin hansı yerdə durması) üzrə təhlil. Çətin tələffüz olunan sözlərin tələffüzü üzrə iş. Yanıltmaların deyilməsi. | 30 dəq. |
| | | ***IV GÜN*** | |
| 1. | Məktəb həyatı ilə tanışlıq. | Uşaqların fərdi xüsusiyyətləri ilə tanışlıq. Sinfdə özünü aparma, yoldaşlarla nəzakətli davranmaq, ümumi əməkdə iştirak, qarşılıqlı yardım, parta (stol) arxasında əyləşmə, dəftəri qoyma, qələmi tutma qaydaları ilə tanışlıq. | 10 dəq. |
| 2. | Fiziki mədəniyyət | Tək-tək sıraya düzülmə. Dağılıb cüt-cüt düzülmə, yenidən tək-tək düzülmə. Xorlu oyun: «Qazlar-qazlar», «Bənövşə» | 15 dəq. |
| 3. | Nitq inkişafı | Müəllimin (uşaqların verdikləri üç-dörd sözə əsasən cümlənin qurulması. Cümlədə sözlərin sayının ardıcıllığının müəyyənləşdirilməsi. «Cümləni tamamla» oyunu. | 30 dəq. |
| 4. | Təsviri fəaliyyət | Rəngli karandaşlar və akvarellə işləmək qaydalarının öyrədilməsi. Paralel xətlər arasında sadə naxışların çəkilməsi. | 10 dəq. |
| 5. | Ətraf aləmlə tanışlıq | Təbiətin yaxınlıqdakı guşəsinə (bağa, parka, meşəyə, çölə, çayın sahilinə) gəzinti. Hava, ağaclar və kollarla tanışlıq. | 25 dəq. |
| | | ***V GÜN*** | |
| 1. | Nitq inkişafı | Uşaqların bildikləri şe'rlərin ifadəli oxunması. Şe'r əsasında sualların verilməsi. Ən düzgün cavabın seçilməsi. | 25 dəq. |

| | | | |
|---|---|---|---|
| 2. | Musiqi və nəğmə | Maqnitafon lentinə yazılmış uşaq mahnılarının dinlənilməsi. Azərbaycan xalq rəqsinin səslənməsi. Rəqs hərəkətləri. Müəyyən mahnının xorla oxunması. | 15 dəq. |
| 3. | İlkin riyazi təsəvvürlərin inkişafı | 10 dairəsində düzünə və tərsinə sayma, əşya qruplarının müqayisə edilməsi üzrə məşq. | 25 dəq. |
| 4. | Əmək tə'limi | Kağız və kartonla iş. Kağız və kartonun növləri. Kağızın düzxət boyu kəsilməsi və yapışdırılması qaydasının öyrənilməsi. | 10 dəq. |
| 5. | Fiziki mədəniyyət | Sıra ilə yerimək. Topun arxaya və qabağa ötürülməsi. | 15 dəq. |
| | | ***VI GÜN*** | |
| 1. | İlkin riyazi təsəvvürlərin inkişafı | 10 dairəsində düzünə və tərsinə sayma. Bütöv və onun yarısının müqayisə edilməsi. Sahədə əşyaların vəziyyəti (qabaqda, arxada, sonra, arasında) haqqında təsəvvürlərin inkişaf etdirilməsi. Sinif otağında, məktəbin binasında və həyətində üçbucaqlı əşyaların tapılması. | 25 dəq. |
| 2. | Fiziki mədəniyyət | Təksıra addımlamaqla gedə-gedə cüt-cüt dayanma. | 10 dəq. |
| 3. | Nitq inkişafı | Cümlənin sözlərə ayrılması, onda sözlərin sayı və ardıcıllığı üzrə çalışmalar. Uşaqların bildikləri nağılların nəql edilməsi. «Şəngülüm, Şüngülüm, Məngülüm» nağılı müəllim tərəfindən nəql edildikdən sonra uşaqlar tərəfindən səhnələşdirilməsi. | 30 dəq. |
| 4. | Təsviri fəaliyyət | «Gözbağlıca», «Qızlar-qızlar» oyunu. Paralel xətlər arasında əvvəlcədən rəngli kağızlardan kəsilmiş üçbucaqlı və dördbucaqlılardan naxış-applikasiyanın düzəldilməsi. | 10 dəq. |
| 5. | Əmək tə'limi | Gil və plastilinlə tanışlıq. Plastilindən sadə meyvə və tərəvəz fiqurlarının hazırlanması. | 15 dəq. |
| | | ***VII GÜN*** | |
| 1. | Fiziki mədəniyyət | Sıra tə'limi üzrə məşq. Səhər gimnastikası. | 15 dəq. |
| 2. | Nitq inkişafı | Şəkildə təsvir olunan əşyalar, həmçinin uşaqların təsəvvürləri əsasında cümlələrin qurulması və təhlili üzrə məşqlər. Uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi. Onlara tanış meyvə, tərəvəz, giləmeyvə, təbiət hadisələri haqqında tapmacalar üzrə iş. | 30 dəq. |
| 3. | Musiqi və nəğmə | Mümkün olan uşaq mahnılarından birinin dinlənilməsi, oxunması və onun ritminə müvafiq hərəkətlər. | 15 dəq. |
| 4. | İlkin riyazi təsəvvürlərin inkişafı | 10 dairəsində qazanılmış vərdişlərin möhkəmləndirilməsi. Əşya qruplarının müqayisə edilməsi (çoxdur, azdır, bərabərdir). Uzunluq anlayışının (uzun, qısa) verilməsi. | 20 dəq. |
| 5. | Əmək tə'limi | Plastilindən heyvan və quş fiqurlarının düzəldilməsi. | 10 dəq. |
| | | ***VIII GÜN*** | |
| 1. | Nitq inkişafı | Müəllimin oxuduğu təbiətlə bağlı hekayə dinlənildikdən sonra sual-cavab keçirilməsi. Necəlik bildirən sözlərin seçilməsi. Uşaqların *necə*? Sualına cavab olan sözlər demələri və cümlədə işlətmələri üzrə iş. | 20 dəq. |
| 2. | Fiziki mədəniyyət | Şəhər gimnastikası. «Qaçdı-tutdu» oyunu. Uzununa tullanma. | 15 dəq. |
| 3. | İlkin riyazi təsəvvürlərin inkişafı | 10 dairəsində say vərdişlərinin möhkəmləndirilməsi. Əşyaların sahədə yerləşdirilməsi üzrə öyrəndiklərinin təkrarı. | 20 dəq. |

| | | | |
|---|---|---|---|
| 4. | Təsviri fəaliyyət | Nümunə əsasında üçbucaq, dördbucaq və dairə şəkilli elementləri növbələşdirməklə paralel xətlər əsasında naxışın çəkilməsi. | 15 dəq. |
| 5. | Ətraf aləmlə tanışlıq | Uşaqlarda müşahidəçilik qabiliyyətini inkişaf etdirmək məqsədilə gəzinti bəzək ağacları, güllər, kollar üzərində müşahidənin təşkili. | 20 dəq. |
| | | ***IX GÜN*** | |
| 1. | Nitq inkişafı | Uşaqların lüğət ehtiyatının meşə ağacları (çöl çiçəkləri, tərəvəz, giləmeyvə, dərman bitkiləri və s.) hesabına zənginləşdirilməsi.<br>Şe'rlərin ifadəli oxunması üzrə müsabiqə. | 25 dəq. |
| 2. | Musiqi və nəğmə | Uşaqların ən çox sevdikləri mahnının xorla oxunması. | 10 dəq. |
| 3. | İlkin riyazi təsəvvürlərin inkişafı | Say çöpləri, təbiət materialları, əşya şəkillərinin düzünə və tərsinə sayılması. Müxtəlif rəngli say çöpcükləri və müxtəlif formalı həndəsi fiqurlardan ibarət iki qrup əşyaların (çox, az, bərabər) müqayisə edilməsi. Əşyaların uzunluğuna (enli, dar) görə müqayisə edilməsi. | 20 dəq. |
| 4. | Fiziki mədəniyyət | Sıra tə'limi. Hündürlüyə tullanmaq. | 15 dəq. |
| 5. | Əmək tə'limi | Təbiət materiallarından (yarpaq, qoza, küləş, saman, qamış, çöplər, tərəvəz toxumları və s.) müxtəlif fiqurların düzəldilməsi ilə tanışlıq. | 10 dəq. |
| | | ***X DƏRS*** | |
| 1. | İlkin riyzi təsəvvürlərin inkişafı | 10 dairəsində sayma üzrə təkrar məşqlər. Həndəsi fiqurların fərqləndirilməsi üzrə iş. Didaktik oyunlar. | 20 dəq. |
| 2. | Təsviri fəaliyyət | Akvareldən istifadə etməklə çiçək şəkillərinin çəkilməsi. | 10dəq. |
| 3. | Nitq inkişafı | Uşaqların süjetli şəkil üzrə, öz ailələri, oyun, əyləncə və istirahətləri haqqında hekayə qurub nəql etmələri. | 25 dəq. |
| 4. | Fiziki mədəniyyət | Top ilə oyunlar. Topu divara vurub tutmaq, bir-birinə atmaq, çiləmək. | 15 dəq. |
| 5. | Ətraf aləmlə tanışlıq | Quşların və heyvanların həyatı üzərində müşahidə.<br>Kənddə və şəhərdə insanların əməyi ilə tanışlıq. | 20 dəq. |

**QEYD**. Planda hər gün üçün nəzərdə tutulmuş məşğələlərin ardıcıllığının gözlənilməsi məcburi deyil. Bütün hallarda məşğələlərin müddəti 30 dəqiqəni keçməməlidir. Bə'zən 30 dəqiqəlik məşğələnin məzmunu ağır olduqda onu iki hissəyə (10–20, 20–10, 15–15) bölüb arasına başqa məşğələ daxil etməklə tamamlamaq mümkündür. Məşğələlərarası tənəffüslər 10 dəqiqədən az olmamalıdır. Tənəffüslər açıq havada hərəkətli oyunlar şəklində keçirilməlidir.

* * *

# I SİNİF (ilin II yarısı üçün)
## ANA DİLİ

**4 fevral.** **Oxu.** "Əziz birincilər", "Bizi nələr əhatə edir?".
**Yazı.** "Bizi nələr əhatə edir?" Mətnin axırıncı abzasının üzündən köçürülməsi.
**5 fevral.** **Oxu.** Təbiət.
**6 fevral.** **Oxu.** "Qışda", "Qartopu" (M.Seyidzadə).
**Yazı.** "Qartopu" şe'rinin üzündən köçürülməsi.
**7 fevral.** **Oxu. Müşahidə.** Təbiətdə baş verən hadisələr üzərində (dərsliyin 9-cu səhifəsindəki yaddaş üzrə).
**Yazı.** M.Namazın "Qar" şe'rinin müəllimin diktəsinə əsasən yazılması.
**9 fevral.** **Oxu.** "Qar" (X.Əlibəyli), "Qar" (M.Aslan).
**Hüsnxət.** "Hüsnxət" dərs vəsaiti ilə tanışlıq. 1-ci səhifəsi üzrə iş.
**10 fevral.** **Oxu.** "Pəncərədə naxışlar".
**11 fevral.** **Oxu.** "Dörd arzu" (K.D.Uşinski).
**Yazı.** "Qar" şe'rinin bir bəndinin üzündən köçürülməsi.

### AİLƏ

**19 fevral.** **Oxu.** "Ana" (İ.Səfərli). "Hamıdan qəşəng".
**20 fevral.** **Oxu.** "Ata", "Atamın əlləri" (M.Namaz).
**Yazı.** "Ana" şerinin birinci bəndinin üzündən köçürülməsi.
**21 fevral.** **Oxu.** Əşya dərsi. "Qar və buz".
**Yazı.** M.Namazın "Atavın əlləri" şe'rinin bir bəndinin üzündən köçürülməsi.
**23 fevral.** **Oxu.** "Ad günü".
**Hüsnxət.** "Hüsnxət" dərs vəsaitinin 2-3-cü səhifələri üzrə iş.

### SƏNİN SAĞLAMLIĞIN

**24 fevral.** **Oxu.** Sağlamlığın şərtləri, "Təmizlik" (A.Şaiq).
**25 fevral.** **Oxu.** "Ağıllı məsləhət", "Sağlam olmaq üçün nə etmək lazımdır?".
**Yazı.** "Hüsnxət" dərs vəsaitinin 27-ci səhifəsindən çöl quşlarının adlarının köçürülməsi.

### YAXŞI İŞLƏR GÖRƏK

**26 fevral.** **Oxu.** "Kərpickəsən qoca və cavan oğlan" (N.Gəncəvi).
**27 fevral.** **Oxu. Ekskursiya** (təbiətdə baş verən dəyişikliklərlə tanış olmaq məqsədilə meşəyə, bağa, parka).
**Yazı.** "Kərpickəsən qoca və cavan oğlan" hekayəsindən bir parçanın üzündən köçürülməsi.
**28 fevral.** **Oxu.** "Böyüklərə hörmət et" (M.Dilbazi).
**Yazı. Hüsnxət.** "Hüsnxət" dərs vəsaitinin 28-ci səhifəsindən vəhşi heyvanların adlarının üzündən köçürülməsi.
**1 mart.** **Oxu.** "Qoca qadındır" (V.Oseyeva).
**Hüsnxət.** "Hüsnxət" dərs vəsaitindən 4-5-ci səhifələri üzrə iş.
**2 mart.** **Oxu.** "Əsl yoldaş", "Alma və naringi".
**3 mart.** **Oxu.** "İki yoldaş" (L.Tolstoy).
**Yazı.** "Hüsnxət" dərs vəsaitindən "Dörd kəpənək" hekayəsinin dörd sətrinin üzündən köçürülməsi.
**4 mart.** **Oxu.** "Göyərçin və qarışqa".
**5 mart.** **Oxu.** "Aslan və dovşan".
**Yazı.** "Göyərçin və qarışqa" hekayəsindən bir hissənin üzündən köçürülməsi.
**6 mart.** **Oxu.** "Anamın bayramı".
**Yazı.** Qışın əlamətlərini bildirən sözlərin müəllimin diktəsinə əsasən yazılması.
**9 mart.** **Oxu.** "Acgöz it".
**10 mart.** **Oxu.** "Tülkü və durna".
**Yazı.** Hekayənin bir hissəsinin üzündən köçürülməsi.

## GƏLİN OYNAYAQ

11 mart. **Oxu.** "Can, gülüm, can-can!" (A.Şaiq).
12 mart. **Oxu.** "Mən də, mən də", "Saymaca".
**Yazı.** Oyun adlarının yazılması.

## GÖZƏL YAZ

13 mart. **Oxu.** "Yaz günləri" (M.Ə.Sabir), "Gəl, bahar" (T.Elçin).
**Yazı.** Yazın əlamətlərini bildirən sözlərin yazılması.
15 mart. **Oxu. Müşahidə.** ("Müşahidə aparın" başlığı altında verilənlər əsasında).
**Hüsnxət.** "Hüsnxət" dərs vəsaitinin 6-7-ci səhifələri üzrə iş.
16 mart. **Oxu.** "Gün çıx, gün çıx", "Ayaq izləri" (Ə.Kərim).
17 mart. **Oxu.** "Qaranquş".
**Yazı.** "Gəl, bahar" mətninin üzündən köçürülməsi.
18 mart. **Oxu.** "Novruz".
19 mart. **Oxu.** "Yazda təbiət".
**Yazı. İfadə.** "İfadə üçün mətnlər məcmuəsi"nin 30-cu səhifəsindəki **"Quş dənliyi"** mətni üzrə.
